Xalqın qəzeti!

# Xalq qəzeti

№ 77 (30481) 18 aprel 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Milli neft strategiyasının növbəti uğuru

Səhifə ⇨ 7

# Beynəlxalq diplomatiyada Azərbaycanın rolu, mövqeyi və nüfuzu durmadan artır

## Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Baş katibi Kayrat Sarıbayı qəbul edib.**



Kayrat Sarıbay Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyin ölkəmizə keçməsi münasibətilə təbriklərini çatdıraraq, çoxtərəfli diplomatiyada fəal rol oynayan Azərbaycanın bu sahədə zəngin təcrübəsinin olduğunu vurğuladı. O, bu xüsusda ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi seçilməsini və fəaliyyətini, Qoşulmama Hərəkatında uğurlu sədrliyini, həmçinin digər beynəlxalq təşkilatlar çərçivəsində fəal rolunu qeyd etdi.

COP29-un Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdıran Kayrat Sarıbay bunu beynəlxalq ictimaiyyətin Azərbaycanın çoxtərəfli diplomatiya sahəsində roluna hörmətinin və ehtiramının təzahürü kimi qiymətləndirdi. O, ölkəmizin regionda böyükmiqyaslı kommunikasiya layihələrinin həyata keçirilməsindəki mühüm rolunu da xüsusi vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi. Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin Asiyada etimad quruculuğu tədbirlərinin həyata keçirilməsində vacib dialoq platforması olduğunu deyən Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini xatırladı və sədrlik çərçivəsində əldə edilmiş təcrübənin bu təşkilata sədrliyin həyata keçirilməsi baxımından faydalı olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi COVID-19 pandemiyası dövründə üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsi və Qoşulmama Hərəkatının təsisatlanması baxımından atdığı addımlara toxundu, bu xüsusda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının və Qadınlar Platformasının yaradılması istiqamətində təşəbbüsləri vurğuladı.

Prezident İlham Əliyev Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrliyin Azərbaycana keçməsi prosesində bütün üzv ölkələrə, o cümlədən, Qazaxıstan tərəfinə təşəkkürünü bildirdi.

Söhbət zamanı bu təşkilatın Asiya qitəsində sülhün, təhlükəsizliyin gücləndirilməsinə və etimad quruculuğu prosesinə töhfə verməsi baxımından böyük potensiala malik olduğu qeyd edildi, Azərbaycanın üzv dövlətlərlə birgə çalışaraq Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin daha da təsisatlanması və sahəvi əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini vermək əzmində olduğu vurğulandı.

Görüşdə COP29 çərçivəsində də bu təşkilatın müxtəlif tədbirlərinin keçirilməsi, eyni zamanda, yaşıl nəqliyyat konsepsiyası və digər sahəvi əməkdaşlıq məsələlərinə baxılması ilə bağlı müzakirələr aparıldı.

## “Yaşıl hidrogen” gələcəyimizə işıq salır



**Energetika naziri Pərviz Şahbazov Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Abu-Dabi Dayanıqlılıq Həftəsi çərçivəsində keçirilən “Yaşıl” Hidrogen Sammitində çıxış edərək hidrogenin Azərbaycanın transformativ inkişaf və enerji təchizatçısı gündəliyinin əsas komponentlərindən olduğunu qeyd edib. P.Şahbazov hidrogenin istehsalı və istifadəsinin Azərbaycanın “Təmiz ətraf mühitə malik yaşıl artım ölkəsinin inkişaf strategiyası”nda, həmçinin “Azad edilmiş ərazilərin “yaşıl enerji zonası”na çevrilməsi” və “Avropa İttifaqı (Aİ) ilə enerji tərəfdaşlığına dair” mühüm sənədlərdə öz əksini tapdığını vurğulayıb.**

(ardı 7-ci səhifədə)

## Ermənistan parlament müxalifətindən Avropa Şurası üçün “həyəcan təbili”



Səhifə ⇨ 4

## Böyük futbolun uğur qaynağı kiçik yaşlılardır



### Konstantin Abramenko nümunəsi yenidən dirçəldilməlidir

**Planetimizdə ən sevimli oyunda yüksək ustalığa, məşhurluğa aparan yol uşaq futbolundan başlayır. Bu yolun hamar olmadığı, qarşıya çoxlu çətinliklərin çıxdığı da heç kimə sirr deyil. Amma bəzən dar küçələrdə asfalt üzərində, bəzən də düzənlikdə, tozlu-torpaqlı yolda oynanılan futboldan da zövq almaq, qibtəedilməz şəraitdə keçirilən məşğələlərdə gələcəyin mahir ustalarına çevriləcək istedadlar yetişdirmək də mümkün olur. Təki istək olsun və işə həvəslə, can-başla yanaşılsın. Bu zaman bir daha əmin olursan ki, futbola və uşaqlara sevgidən çox şey asılıdır.**

(ardı 11-ci səhifədə)

## Paris hansı irslə bizə dərs keçmək istəyir?

Səhifə ⇨ 3

Səhifə ⇨ 5



## Frank Şvabe öz ampluasındadır

## Ermənistan havayı pendirin harada olduğunu unudub

### 5 aprel görüşünün pərdəarxası məqamları



**Azərbaycan xarici siyasətində, xüsusən Qərblə münasibətlərində həmişə səmimi olub. Enerji təhlükəsizliyindən tutmuş beynəlxalq terrorla mübarizəyə qədər Bakı hər zaman özünü mütərəqqi adlandıran ölkələrin müraciətlərinə müsbət reaksiya verib, strateji yardımını əsirgəməyib. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsində Qərb ikili standartlara yol verdi, işğalçı Ermənistanı xilas etməyə çalışdı, Azərbaycan yenə də strateji sahələrdə əməkdaşlığını dayandırmadı.**

Bakı beynəlxalq aləmin məsuliyyətli üzvü kimi üzərinə düşən vəzifələri yerinə yetirdi və bu gün də bu proses davam edir. Amma 5 aprel görüşünün təfərrüatları məlum olandan sonra bir daha əmin oluruq ki, Qərb Bakı ilə münasibətlərində yenə də qeyri-səmimiliyini nümayiş etdirir. ABŞ–Avropa İttifaqı–Ermənistan sammitində qəbul olunmuş qərarlarla tanış olduqda belə qənaətə gəlmək olur ki, Qərb Cənubi Qafqaz regionunda İrəvan adlı növbəti “barıt çəlləyi” yaratmağı planlaşdırır. Ümid edirik ki, Ermənistan belə bir funksiyada çıxış etməyin acı nəticələrini hələ unutmayıb.

(ardı 3-cü səhifədə)

## Makronun “maska”sı düşdü

**Deyəsən, bütün gizlinlərin aşkara çıxdığı, qaranlıqların aydınlaşdığı məqam yetişib. Daha nə ikili standartlardan qidalanan bəyanatlar, nə riyakar yağlı vədlər, nə də ikiüzlü sülhpərvərliklə kimisə aldatmaq mümkündür.**

(ardı 6-cı səhifədə)



## Sülhməramlılar gedir, sülh məramımız qalır...

Səhifə ⇨ 6

## Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü il noyabrın 10-da Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu İcraiyyə Şurasının 11-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri yekdilliklə İslam Əməkdaşlıq Təşkilatının "Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramına 10-cu ev sahibi seçilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı fəaliyyət planı hazırlayıb həyata keçirsin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri,17 aprel 2024-cü il**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Filippin hökuməti və xalqı adından Sizə ən səmimi təbriklərimi çatdırıram.

Sülhün və sabitliyin qorunub saxlanılması, Azərbaycan dövləti və xalqı üçün daha çox inkişafa, rifaha nail olunması kimi vacib missiyanızda Sizə uğurlar arzulayıram.

Xalqlarımızın mənafeyi naminə qarşılıqlı maraq doğuran sahələrdə birgə çalışaraq Filippin ilə Azərbaycan arasında daha sıx ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə sadiqliyimi bir daha təsdiq edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Ferdinand MARKOS,***
***Filippin Respublikasının Prezidenti***

# Elektromobillərə geniş meydan açılır






**Aprelin 17-də Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun rəhbərliyi ilə "Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 mart tarixli Sərəncamından irəli gələn tədbirlərin həyata keçirilməsi ilə bağlı iclas keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Baş nazir iclası açaraq "Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamından irəli gələn tədbirlər, onların icrasının gedişi və qarşıda duran vəzifələr barədə məlumat verib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və energetika nazirinin müavini Samir Vəliyev məruzələrlə çıxış ediblər.

İclasda elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin və elektrik enerjisi doldurma məntəqələrinin (EDM) əhatə dairəsinin genişləndirilməsi, bu sahədə zəruri infrastrukturun yaradılması, onların dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi tədbirlərinin görülməsi, habelə bu işlərə sahibkarlıq subyektlərinin cəlb olunması məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsi və digər zəruri məsələlər barədə müzakirələr aparılıb.

Sonra qarşıda duran vəzifələr istiqamətində irəli sürülən təkliflər nəzərə alınmaqla aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

## Sülhməramlıların ölkəmizdən çıxarılması hər iki ölkənin ali rəhbərliyinin qərarıdır



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılması barədə məlumatla əlaqədar AZƏRTAC-ın sualını cavablandırıb.**

***– Mediada gedən məlumata və Rusiya Federasiyası tərəfindən verilmiş rəsmi açıqlamaya görə, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının çıxarılması prosesinə başlanıb. Bu məlumatı necə şərh edərdiniz?***

– 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilib. Artıq proses başlanıb, Azərbaycan və Rusiya Müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər.

## Fərhad Adıgözəlov kollektivə təqdim edilib

**Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyinin İdarə Heyətinin yeni sədri Fərhad Adıgözəlov aprelin 17-də kollektivə təqdim olunub.**

F.Adıgözəlovu kollektivə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov təqdim edib.

Xatırladaq ki, aprelin 16-da Prezident İlham Əliyevin imzaladığı Sərəncamla Fərhad Adıgözəlov Dövlət Reklam Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunub.

***XQ***

# Fransanın addımları sülhə ciddi əngəl törədir

**Məhz Azərbaycanın razılığı əsasında Fransanın 25 ilə yaxın müddətdə vasitəçilik roluna baxmayaraq, bu ölkənin 2020-ci il Vətən müharibəsindən sonra açıq-aşkar anti-Azərbaycan addımları hər kəsə məlumdur.**



Fransa tərəfinin Azərbaycanı birtərəfli hərəkətlərdə təqsirləndirməsinə baxmayaraq, ölkəmizin Parisə qarşı addımları və verdiyi rəsmi bəyanatlar yalnız bu ölkənin destruktiv fəaliyyətinə cavab xarakterli olub. Ölkəmizə qarşı qarayaxma kampaniyasına baxmayaraq, tərəfimizdən hər zaman dialoq qapıları açıq saxlanılıb.

Fransa xüsusilə son 3 il yarım müddətdə atdığı addımlar ilə Azərbaycanla Ermənistan arasında suverenlik və ərazi bütövlüyü əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyub və vəziyyətin gərginləşməsinə rəvac verib.

Bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın ölkəmizdəki səfirinin geri çağırılması ilə bağlı yerli mətbuatın sualına cavabında səsləndirib.

Mətbuat katibi diqqətə çatdırıb ki, Fransanın BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqı, Frankofoniya kimi təşkilatlarda və digər beynəlxalq platformalarda dəfələrlə Azərbaycan əleyhinə sənəd layihələrinin təşəbbüskarı olması, bu ölkənin bitərəf vasitəçi iddialarının tamamilə əsassız olduğunu sübuta yetirib.

Məhz Fransada hakim partiyanın nümayəndələrinin təşəbbüsü ilə bu ölkənin parlamentində ölkəmizə qarşı çoxsaylı əsassız ittihamların, təhqir və təhdidlərin əks olunduğu, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini sual altına qoyan və onlara xələl gətirən, keçmiş qondarma rejimi tanıyan qərar və qətnamələr qəbul edildiyini xatırlatmaq istərdik.

Bu müddət ərzində Fransa ərazisində mövcud azərbaycanofob mühitin nəticəsi olaraq səfirliyimizə qarşı dəfələrlə hücumların edilməsi və səfirliyin binasına zərər yetirilməsi, nəhayət ağlasığmaz addım kimi XIX əsr görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın büstünə qarşı vandallıq aktlarının törədilməsi, hökumət tərəfindən bunun qarşısının alınması üçün tədbirlərin görülməməsi rəsmi Parisin ölkəmiz əleyhinə kampaniyasının tərkib hissələridir.

Eyni zamanda, Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyini və ev sahibliyini hədəf alan çağırışlar edən Fransanın Azərbaycanı birtərəfli addımlarda təqsirləndirməsi tam əsassızdır.

Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransanın addımlarının sülhə xidmət etmədiyi gün kimi aydındır.

"Azərbaycan tərəfi dəfələrlə Fransaya təhdid, təzyiq dili ilə danışmağın heç bir nəticə verməyəcəyini bildirib və öz milli maraqlarının qorunması üçün bütün zəruri tədbirlər görəcəyini bir daha bəyan edir", – deyə A.Hacızadə vurğulayıb.

## Səfirimiz Portuqaliyada işə başladı

**Azərbaycanın iqamətgahı Vatikan şəhərində olmaqla Müqəddəs Taxt-Tacdakı və Portuqaliyadakı səfiri İlqar Muxtarov etimadnaməsini Portuqaliya Prezidenti Marselo Rebelo de Sousaya təqdim edib.**



Prezident İlham Əliyevin salamlarını Marselo Rebelo de Sousaya çatdıran səfir, eyni zamanda, ölkəmizin Portuqaliya ilə ikitərəfli münasibətlərə xüsusi önəm verdiyini, tezliklə Lissabon şəhərində səfirliyimizin diplomatik ofisinin açılmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Marselo Rebelo de Sousa öz növbəsində onun da salamlarını Azərbaycan Prezidentinə çatdırmağı xahiş edib və tezliklə dövlətimizin başçısı ilə görüşməkdən məmnun olacağını bildirib.

# Yeni Kaledoniya deputatları ölkəmizdə

**Yeni Kaledoniya Konqresinin İnfrastruktur, ərazi planlaşdırılması, davamlı inkişaf, energetika, nəqliyyat və rabitə komitəsinin sədri xanım Naisseline Omayranın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 17-də Heydər Əliyev Mərkəzində olub.**



Qonaqlara dünya memarlığının nadir incilərindən sayılan Mərkəz haqqında məlumat verilib. Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və Ulu öndərin irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Qonaqlar Ulu öndərin Azərbaycana rəhbər olduğu dövrlərdə - 1969-cu ildən 2003-cü ilədək rəsmi istifadəsində olan avtomobillərə baxıblar.

Ümummilli liderin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqların böyük marağına səbəb olub.

"Azərbaycan inciləri" sərgisi ilə də tanış olan nümayəndə heyətinin üzvlərinə məlumat verilib ki, ekspozisiyada ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatlar nümayiş etdirilir.

Qonaqlar Azərbaycanın qədim musiqi alətləri ilə də tanış olublar.

Heydər Əliyev Mərkəzi ilə tanışlıq qonaqlarda xoş təəssürat doğurub.

**Həmin gün xanım Naisseline Omayranın rəhbərlik etdiyi nümayəndə heyəti Bakıdakı Müqəddəs Məryəm Katolik Kilsəsində olub.**

Kilsəsin Azərbaycandakı yepiskopu Vladimir Fekete kilsənin tarixi, burada katoliklərin ibadət etmələri üçün yaradılan şərait barədə qonaqlara məlumat verib.

Bildirilib ki, bu kilsənin yerləşdiyi ərazi Roma-katolik kilsəsinin ənənəsinə uyğun olaraq təqdis edilib. Rəsmi açılışı 2008-ci ilin martında keçirilən kilsədə eyni vaxtda 250-300 nəfər ibadət edə bilir.

Fotoguşə və eksponatlarla ətraflı şəkildə tanışlıq qonaqlarda xoş təəssürat oyadıb.

**Yeni Kaledoniya Konqresinin nümayəndə heyəti aprelin 17-də Bakıda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil-qərargahı ilə tanış olub.**

Təşkilatın baş katibi Nigar Bağırlı nümayəndə heyətinin üzvlərini qurumun fəaliyyəti və gördüyü işlər barədə məlumatlandırıb.

**Dünən Yeni Kaledoniya Konqresinin nümayəndə heyəti Azərbaycan Dillər Universitetində olub.**

Görüşdə universitetin rektoru Kamal Abdullayev bu təhsil ocağının fəaliyyəti, burada tədris olunan xarici dillər və görülən işlər barədə qonaqlara məlumat verib. Söhbət zamanı rektor qonaqları maraqlandıran suallara cavab verib.

***Ə.BƏDƏLOV***
***XQ***

## Ermənistanın kəşfiyyat qurğusu zərərsizləşdirilib



**Ordumuzun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərən kvadrokopter bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunub və zərərsizləşdirilərək müsadirə edilib.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

***XQ***

# Ermənistan havayı pendirin harada olduğunu unudub

(əvvəli 1-ci səhifədə)

Aprelin 5-də Brüsseldə Ermənistan– Aİ – ABŞ formatında planlaşdırılan görüşdən düz iki gün əvvəl yerli KİV diplomatik dairələrdəki mənbələrə istinadla bildirmişdi ki, Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinken İrəvanı Avroatlantik məkana inteqrasiya etmək məqsədilə siyasi, iqtisadi, humanitar sahələrdə çoxsaylı sazişlər imzalamaq niyyətindədirlər. Ən əsası, belə bir məlumat yayılmışdı ki, təhlükəsizlik sahəsində MDB ölkələri üçün görünməmiş hərbi pakt bağlı qapılar arxasında bağlanacaq. Amma cənab Blinken, sonra da xanım Lyayen Prezident İlham Əliyevə zəng edərək, sammitin nəticələrinin Azərbaycana qarşı olmayacağını iddia etmişdilər. Hər iki şəxs dövlət başçımızı inandırmağa çalışmışdı ki, görüşdə ancaq Ermənistana siyasi-iqtisadi dəstək məsələləri müzakirə olunacaq. Ancaq bağlı qapılar arxasında müzakirə olunan sənədlərin açıqlanmasından sonra məlum oldu ki, Qərb nümayəndələri açıqlamalarında səmimi deyillər. Əldə olunan məlumatları ətraflı təhlil edərkən bir daha əmin oluruq ki, Qərb Cənubi Qafqaz regionunu geosiyasi mübarizə arenasına çevirmək istəyir və "qurbanlıq qoyun" qismində də Ermənistanı görür.

Bəs iki güc mərkəzi kasıb və geosiyasi çəkisi olmayan Ermənistana nə vəd edirlər? Sənədlərdən aydın olur ki, ABŞ İrəvana Strateji Müdafiə İcmalının aparılması və Ermənistan üçün yeni hərbi doktrina hazırlanması üçün ekspert dəstəyi verəcək. Deməli, İrəvan hərbi dokrtinasının hazırlanmasını okeanın o tayındakılara etibar edəcək. Bu məqam onu göstərir ki, ABŞ Ermənistanla hərbi əməkdaşlığını əhəmiyyətli dərəcədə dərinləşdirmək istəyir. Eyni zamanda, strateji müdafiə baxışı və yeni hərbi doktrinanın hazırlanması təkcə cari müdafiə strategiyalarının nəzərdən keçirilməsini deyil, həm də Ermənistanın milli təhlükəsizlik məsələlərinə yanaşmasının tamamilə yenidən nəzərdən keçirilməsini nəzərdə tutur. Yəni, Qərb, ilk növbədə, ABŞ Ermənistanın güc strukturlarının bütün aspektlərini və potensial zəifliklərini qiymətləndirəcək, həmçinin İrəvana yeni geosiyasi reallıqlara və maraqlara uyğun doktrina formalaşdırmağa kömək edəcək.

Belə çıxır ki, Ermənistanın yeni təhlükəsizlik doktrinası ABŞ-ın maraqlarına uyğun hazırlanacaq. Doktrinanın qəbulundan sonra Vaşinqton İrəvana maliyyə və texniki dəstək göstərməyə başlayacaq. Bu isə o deməkdir ki, Qərb Cənubi Qafqaz regionundakı sabitliyə təsir göstərən proseslərə fəal müdaxilə etmək istəyir. Yəni, görüşdə açıqlanan 65 milyon dollar ABŞ-ın regiondakı geosiyasi maraqlarına uyğun məbləğ deyil. Vaşinqton daha böyük məbləğ xərcləməyi planlaşdırır.

Sənəddə diqqət çəkən məqamlardan biri də budur ki, ABŞ – Ermənistan əməkdaşlığı ikitərəfli hərbi əməkdaşlıq Planlaşdırma və Tədqiqat Prosesi (PARP) və Əməliyyat İmkanları Konsepsiyası (OCC) vasitəsilə tərəfdaşlığın məqsədlərinin həyata keçirilməsində Ermənistanın NATO ilə əməkdaşlığına uyğunlaşdırılacaq. Məsələ ondadır ki, Planlaşdırma və Tədqiqat Prosesi və Əməliyyat İmkanları Konsepsiyası NATO ilə tərəfdaş ölkə əməkdaşlığının əsas elementlərindəndir. PARP tərəfdaşlara müdafiə məqsədlərinə nail olmaqda kömək etmək və ordularının NATO ilə qarşılıqlı fəaliyyətini yaxşılaşdırmaq üçün nəzərdə tutulub. Bu, tərəfdaş ölkələrə birgə əməliyyatlarda daha səmərəli iştirak etməyə imkan verir. Əməliyyat İmkanları Konsepsiyası tərəfdaş hərbi qüvvələrin NATO standartlarına cavab verməsi və alyansın əməliyyatlarında səmərəli əməkdaşlıq edə bilməsi üçün onları inkişaf etdirmək və qiymətləndirmək məqsədi daşıyır. Əlbəttə, belə bir əməkdaşlıq təkcə NATO ilə hərbi əlaqələrin dərinləşdirilməsi deyil, həm də Ermənistan silahlı qüvvələrinin qarşılıqlı fəaliyyət və hazırlıq səviyyəsinin yüksəldilməsi deməkdir. Təbii ki, gücləndirilmiş əməkdaşlıq NATO təlimlərində daha geniş iştirakı, qabaqcıl texnologiyaların əldə edilməsini və təcrübə mübadiləsini nəzərdə tutur ki, bu da öz növbəsində Ermənistanın hərbi potensialının güclənməsinə kömək edə bilər.

Birləşmiş Ştatlar Ermənistanın hərbi və müdafiə qabiliyyətini əhəmiyyətli dərəcədə inkişaf etdirmək, İranla sərhədə xüsusi diqqət yetirməklə, sərhəd nəzarətini və təhlükəsizliyi gücləndirmək üçün lazımi yardım göstərməyi də planlaşdırır. Burada Vaşinqtonun əsl niyyəti üzə çıxır. Daha doğrusu, belə yardımın göstərilməsi ABŞ-nin geosiyasi planlarına uyğundur. Yəni, burada hədəf İrandır. Bu gün Ermənistan – İran sərhədlərini Rusiya hərbçiləri qoruyurlar. Belə görünür ki, Vaşinqton "lazımi yardımın" göstəriləcəyini dedikdə, rus hərbçilərinin sərhədlərdən uzaqlaşdırılmasını nəzərdə tutur. İrəvanın da son vaxtlar anti-Rusiya bəyanatları belə düşünməyə əsas verir ki, bu məsələdə amerikalılar ermənilərə kömək etməyi planlaşdırırlar.

Maraqlıdır, İran ABŞ ilə Ermənistanın bu yeni əməkdaşlığına necə reaksiya verəcək? Tehrandan səslənən son bəyanatlar belə düşünməyə əsas verir ki, İran Qərbin regionda möhkəmlənmək planlarına qarşıdır. İran liderinin beynəlxalq məsələlər üzrə baş müşaviri Əli Əkbər Vilayəti "Əl-Mayadeen Net" saytında ABŞ-ın Cənubi Qafqaz planı" başlığı ilə dərc olunan məqaləsində Cənubi Qafqaz üçün Amerika – Atlantik layihəsini regiona qeyri-qanuni müdaxilə və işğal üçün yeni plan adlandırıb. Ə.Vilayəti deyir ki, bu plan "dünyanın həssas yerlərində gərginlik yaratmağa yol açmaq, regionun təhlükəsizliyi və ölkələrinin müstəqilliyi bahasına hərbi iştirak üçün bəhanə əldə etmək" məqsədini daşıyır. O əlavə edib ki, Avropa İttifaqı və ABŞ-ın NATO çərçivəsində Brüsseldə görüşünün məqsədi Cənubi Qafqaza qeyri-qanuni işğal və müdaxilə üçün yeni qətnamə üzərində razılığa gəlmək olub. Bu fikirlər onu göstərir ki, İran 5 aprel görüşünün keçirilməsindən narazıdır və onu Qərbin regiona müdaxilə etmək cəhdi kimi qiymətləndirir. Amma sözügedən sənədlərin açıqlanmasından sonra Tehranın sərgiləyəcəyi növbəti mövqe maraq doğurur. Hər halda, "böyük şeytan" adlandırdığı ABŞ-nin hərbçilərini öz sərhədində görmək Tehranın arzuladığı perspektiv deyil.

ABŞ Ermənistanın hava qüvvələrinin və hava hücumundan müdafiə imkanlarının artırılmasını da planlaşdırır. Nəzərə alsaq ki, Ermənistan KTMT-nin Birgə Hava Hücumundan Müdafiə Sisteminə inteqrasiya olunub, o zaman Vaşinqtonun əsas hədəfinin məhz Rusiya olduğu aydınlaşır. Bu istiqamətdə artıq işlər aparılır. Fransanın Ermənistana gətirdiyi radar sistemlərinin məhz bu məqsədə xidmət edəcəyi gözlənilir. Bu kontekstdə ABŞ Rusiyanın İrəvana hərbi təsirini azaltmaq üçün Ermənistanın hava hücumundan müdafiəsini gücləndirmək istəyir. Bunun üçün okeanın o tayından müvafiq texnologiyaların İrəvana göndərilməsi heç kim üçün sürpriz olmayacaq. Bundan başqa, Vaşinqton Ermənistanın qabaqcıl hərbi texnika və yeni texnologiyalara çıxışını asanlaşdırmaq üçün "Xarici Hərbi Maliyyələşdirmə" proqramı çərçivəsində İrəvana maliyyə yardımı göstərəcək.

ABŞ-ın Ermənistana göstərmək istədiyi növbəti yardım Global Positioning System (GPS) – Peyk Naviqasiya Sistemi ilə bağlıdır. ABŞ bütün Ermənistan ərazisində GPS texnologiyasının geniş tətbiqini sürətləndirməyə çalışacaq. GPS texnologiyasının hərbi sahədə tətbiqi hərbi əməliyyatların dəqiqliyi və səmərəliliyinin artırılmasında mühüm rol oynayır. Bu sistem qoşunlara mürəkkəb və ya tanış olmayan ərazilərdə dəqiq naviqasiya etməyə imkan verir, hərəkətliliyi və operativ reaksiya vermək qabiliyyətini xeyli yaxşılaşdırır. GPS sistemi silahların, o cümlədən, artilleriya mərmilərinin və idarə olunan raketlərin dəqiqliyini artırmaq üçün istifadə olunur. Bu, hədəflərə daha dəqiq zərbələr endirməyə imkan verir. Müasir pilotsuz uçuş aparatları və digər avtonom sistemlər GPS-dən geniş istifadə edir. Belə bir texnologiyanın Ermənistanda təkmilləşdirilməsi əsrlər boyu qonşularının ərazilərinə göz dikmiş və işğal siyasəti yürütmüş İrəvanın hərbi təxribatlar həyata keçirmək imkanlarının daha da genişləndirməsi deməkdir.

Aİ-nin də Ermənistanla bağlı planları ABŞ-dan ciddi fərqlənmir, bir-birini tamamlayır. Sənəddə qeyd edilir ki, Brüssel Ermənistan ordusuna dəstək məqsədilə Avropa Sülh Fondu (EPF) çərçivəsində yardım paketini qəbul edəcək. Bu paket Ermənistanın müdafiə sektorunda milli təhlükəsizliyini, sabitliyini və dayanıqlığını gücləndirmək məqsədi daşıyır. O, həmçinin əməliyyat səmərəliliyini artıracaq, Aİ və NATO standartlarına uyğunluğu sürətləndirəcək və Ermənistan ordusunun qarşılıqlı fəaliyyətini təmin edəcək. Yardım paketi, həmçinin Ermənistan ordusunun Aİ-nin Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti (CSDP) çərçivəsində əməliyyat və missiyalarda iştirak imkanlarını gücləndirmək məqsədini daşıyır. Əldə edilən məlumatlara görə, Avropa Sülh Fondu (EPF) vasitəsilə Ermənistana yardım paketinin qəbulu məsələsində artıq Avropa İttifaqında konsensus əldə olunub. Bu yardım paketi Ermənistanın milli təhlükəsizliyinin və hərbi potensialının artırılması, əməliyyat hazırlığının təkmilləşdirilməsi, habelə Aİ və NATO standartlarını özündə əks etdirən standartlara uyğunluğunu təmin etmək məqsədini daşıyır. Yəni, belə bir paketi qəbul etməklə Aİ Avropanın şərq sərhədlərində təhlükəsizliyin təmin edilməsində öz təsirini və iştirakını gücləndirmək istəyir.

Sənəddə Rusiyanın birbaşa maraqlarına toxunan məsələnin də diqqət mərkəzində saxlanılacağı açıqlanır. Belə ki, Aİ və Ermənistan Rusiyanın Ermənistandakı hərbi obyektlərinin statusunu da müzakirə ediblər. Rusiya hərbi bazalarının gələcəyi ilə bağlı Brüssel və İrəvan arasında fəal müzakirələrin aparılması heç kimə sirr deyil. İndi bu məsələ Brüssel sənədlərində də öz əksini tapıb. Rusiya hərbi kontingentinin Ermənistan ərazisindən çıxarılması Aİ və ABŞ-ın erməni siyasətində strateji hədəflərdən biridir. Belə razılıqla İrəvan Qərbin Rusiyanı Cənubi Qafqaz regionundan çıxarılması planına "yaşıl işıq" yandırır. Bundan başqa, Aİ və Ermənistan İrəvanın Rusiya hərbi texnikası və texnologiyasından asılılığının azaldılması, eləcə də Rusiya tərəfindən verilən hərbi təhsil



və təlimdən yaxa qurtarılması zərurətini də müzakirə ediblər.

Aİ Ermənistana Azərbaycanla sərhəddə müdafiə infrastrukturunun, o cümlədən, mühəndis istehkamlarının yaradılmasına da yardım edəcək. Burada sual oluna bilər: Brüssel hansı sərhədlərdə belə işə əl qoymaq istəyir? Axı Ermənistan ilə Azərbaycan arasında sərhədlərin demarkasiyası və delimitasiyası aparılmayıb. Deməli, Aİ şərti sərhədlərdə müdafiə infrastrukturunun və mühəndis istehkamlarının yaradılmasında Ermənistana kömək etməklə həmin zonaları potensial cəbhə xəttinə çevirir. Ermənistan və Aİ-nin sülh təşəbbüslərinə dəstək bəyanatlarına baxmayaraq, praktikada bu cür addımlar Azərbaycana qarşı potensial hücumlar üçün tramplin yaradılması kimi qiymətləndirilə bilər.

Bundan başqa, Aİ və Ermənistan sərhəd təhlükəsizliyi və nəzarət məsələlərində Ermənistan milli təhlükəsizlik xidmətinin sərhəd qoşunları və Avropa İttifaqının Xarici Sərhəd Təhlükəsizliyi Agentliyi (FRONTEX) vasitəsilə əməkdaşlıq edəcək. Xatırladaq ki, Aİ-də sərhədlərin idarə edilməsi və miqrasiya ilə məşğul olan FRONTEX agentliyi ittifaqın xarici sərhədlərinin möhkəmləndirilməsində, nəzarətin təmin edilməsində mühüm rol oynayır. Buna görə də, FRONTEX ilə qarşılıqlı fəaliyyət vasitəsilə sərhəd təhlükəsizliyi sahəsində Aİ-nin Ermənistan ilə əməkdaşlığı region ölkələrinin maraqlarına qarşı yönəlmiş növbəti addım kimi qiymətləndirilə bilər.

Sənədlərdən belə aydın olur ki, Aİ-yə üzv dövlətlər və ABŞ yeni yaradılmış Ermənistan xarici kəşfiyyat xidmətinin təlimlərində və təchizatında yardım edəcəklər. Ermənistanın bu sahədə əhəmiyyətli texniki və ekspert dəstəyi alacağı gözlənilir ki, bu da İrəvanın yeni yaradılmış xarici kəşfiyyat xidmətinə öz əməliyyat imkanlarını əhəmiyyətli dərəcədə genişləndirməyə imkan verəcək. Əlbəttə, Aİ və ABŞ ilə kəşfiyyat sahəsində bu cür dərin əməkdaşlığın Ermənistanın xarici kəşfiyyat xidmətinin Qərbin nəzarətində olan struktura çevrilməsinə gətirib çıxaracağı şübhə doğurmur. Təbii ki, Qərb texnika və texnologiyalarından asılılığın artması erməni kəşfiyyatının əməliyyat səviyyəsində effektivliyi artırsa da, müstəqillik dərəcəsini çox aşağı salacaq. Eyni zamanda, Aİ–Ermənistan kiber dialoqu da başlanacaq.

Bir sözlə, 5 aprel görüşünün pərdəarxası məqamları bir daha təsdiqləyir ki, Qərb hələ də sülh prosesini tormozlayan Ermənistanı gücləndirməklə regionun önəmli aktoru olan Azərbaycanın narahatlığını nəzərə almır. Əksinə, Aİ və ABŞ Ermənistanı öldürücü silahlarla təmin etmək barədə razılığa gəliblər. Üstəlik, hücum silahlarının tədarükü gözlənilir. Bütün bu hərəkətlər Ermənistanın orta müddətli perspektivdə NATO-ya daxil olmasına hazırlıqdan xəbər verir. Rusiyanın, Türkiyənin və İranın daxil olduğu regiona müdaxilə etməklə Aİ və ABŞ Ermənistana silah bazarını açır və İrəvanın bu silahları almasını özü maliyyələşdirir.

Göründüyü kimi, Ermənistan çox təhlükəli geosiyasi oyuna qoşulub. Qərbin hesabına ayağa qalxmaq və geosiyasi güc toplamaq istəyir. Amma İrəvan çox məşhur olan bu atalar sözünü unudur: "Havayı pendir ancaq tələdə olur". Bu reallığı dərk edən ermənilər də az deyil. Məsələn, tarix elmləri doktoru Qayane Mahmuryan "Qolos Armenii" qəzetinin "Ermənistanın hazırkı hakimiyyəti siyasi istiqamətini dəyişir. Qərb ölkəmizə çoxmilyon dollarlıq maliyyə dəstəyi vəd edir. Bunu necə başa düşmək lazımdır?" sualına belə cavab verib: "Unutmayaq ki, tarix təkrarlanır. Siyasət sferasında dostluğa, anlaşmaya, ədalətə, rəğbətə arxalanmaq sadəlövhlükdən də artıqdır. Kiməsə dəstək verəndə hər bir tərəf yalnız öz məqsədlərini güdür. Bu, həmişə belə olub və olacaq. Havayı pendir olan yer hamıya məlumdur. Ermənistan kimi kiçik dövlətin miqyasında təklif olunan maliyyə yardımının həcmi kiçikdir və iqtisadiyyatdakı vəziyyəti dəyişdirə bilməyəcək. Biz daha diqqətli olmalıyıq ki, Qərb Ermənistandan konkret nə tələb edəcək, pulsuz pendirin faktiki qiyməti nə qədərdir. Çox yüksək ola bilər. Bu vəziyyətdə bizim üçün nəticələr asanlıqla proqnozlaşdırıla bilər".

Doğru sözlərdir, biz də əlavə edək ki, İrəvan həmişəlik itirdiklərini geri almağa çalışır və düşünür ki, Qərbə yaxınlaşmaqla niyyətinə çatacaq. Amma qeyri-region dövlətlərinə bel bağlamaqla və region dövlətlərinin maraqlarını nəzərə almamaqla Ermənistan daha böyük təhlükəli yola çıxır, başqa ata minmək istəyir.

Azərbaycan isə sülh istəyir, region dövlətlərinin maraqlarına uyğun dincliyin bərqərar olmasını arzulayır. İrəvan başqa variantı seçirsə, özü bilər. Keçmişini unudanın gələcəyini topa tutarlar, deyiblər. Belə görünür, erməniləri gələcəkləri maraqlandırmır. Onları, daha doğrusu, Nikol Paşinyan və onun komandasını siyasi gələcək düşündürür. Amma İrəvan unutmamalıdır ki, Bakının hərbi gücü hər ötən gün artır və Azərbaycan milli maraqlarını sonadək müdafiə edəcək. Buna kimsənin şübhəsi olmasın!

***M.SƏBUHİ***
***XQ***

# Paris hansı irslə bizə dərs keçmək istəyir?

## Fransa qadınların səsvermə hüququnu Azərbaycandan 25 il sonra tanıyıb

**Əslində, bu məzmunda yazı hazırlamaq fikrim yox idi. Sadəcə olaraq, internet resurslarında geniş yer tutan "Tarixdə bu gün" adlı məlumatlar toplusunu vərəqləyirdim. Orada belə bir cümlə gördüm: "Fransa qadınları 1944-cü il aprelin 21-də səsvermə hüququ əldə etmişdilər". Dərhal yadıma düşdü ki, Azərbaycan Xalq Cümhuriyyəti qadınlara seçib-seçilmək hüququnu hələ 1918-ci ilin dekabrında vermişdi. Dəfələrlə yazmışıq ki, bizim əcdadlarımızın bu qərarı müsəlman Şərqindəki ilk addım idi.**

Sonralar isə məlum oldu ki, Azərbaycanda qadınlara seçib-seçilmək hüququ veriləndə hələ ancaq İngiltərə, Almaniya, Avstriya, Hollandiya və daha bir neçə ölkədə bu addım atılmışdı. ABŞ ( bu ölkədə qadınlara səs vermək hüququ 1920-ci ildə tanınmışdı), Fransa (1944-cü il), Yunanıstan (1952-ci il), İsveçrə (1971-ci il) və digər ölkələrdə qadınların belə hüquqları yox idi. Hətta, Lixtenşteyndə zərif cinsə bu hüquqlar 1984-cü ildə verilmişdir. Ən pisi də odur ki, son yüz, yüz əlli ildə qadınlara səsvermə hüququ verildiyi, sonra isə məhrum edildiyi hallar da baş vermişdir.

Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, qadınlara davamlı olaraq səs vermək hüququ verən ilk əyalət Böyük Britaniyanın Sakit okeandakı Pitkern adaları (1838-ci il) , ilk suveren ölkə isə




Norveç (1913-cü il) olmuşdu. Xatırladaq ki, Birləşmiş Millətlər Təşkilatı İkinci Dünya müharibəsindən sonrakı illərdə qadınların seçki hüququnu təşviq etmiş və 1979-cu ildə "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya qəbul olunmuşdur. Yəni, Azərbaycanın məlum qərarından təxminən 60 il sonra.

Bütün bunlar aydındır. Bəs Fransa bu gün nə üçün kimlərəsə, xüsusən, Azərbaycana dərs vermək istəyir? Rəsmi Parisə xatırlatmaq gərəkdir ki, Məhəmməd Əmin Rəsulzadə müsəlman qadınının azad edilməsini müsəlman xalqlarının milli-azadlıq mübarizəsinin ən mühüm məsələlərindən biri kimi qiymətləndirirdi. AXC qurucularından olan bu şəxs deyirdi: "Bütün digər xalqların qadınları kişilərlə bərabər ictimai-siyasi hərəkatda iştirak etdiyi və bununla da öz millətinin uğurlarına kömək etdiyi bir vaxtda müsəlman qadın dustaqlıqda qala bilməz və qalmamalıdır".

Bu fikirlər 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi İstiqlal Bəyannaməsinin IV bəndində bərabərhüquqluluq prinsipinin, seçmək və seçilmək hüququnun təsbit edilməsi ilə öz qanuni təsdiqini tapdı. Nəticədə, Azərbaycan Şərqdə qadınlara seçib-seçilmək hüququ verən ilk ölkə oldu. Yəni bizim ölkəmiz demokratik əsaslarla, beynəlxalq əməkdaşlığın sınaqdan çıxmış prinsipləri ilə, ən başlıcası isə bütün insan hüquq və azadlıqlarının qorunması şərtləri ilə idarə olunur. Fransa kimi bəzi ölkələri müstəmləkədə saxlamaq, əksər ölkələrin daxili işlərinə burun soxmaqla yox.

İndi milyonlarla asiyalı və afrikalının nəinki seçib-seçilmək, hətta, yaşamaq hüququnu əlindən almış Fransanın rəhbəri hansı haqla Azərbaycan barədə cəfəngiyyat söyləyir? Yəqin tələskən oxucu soruşacaq ki, Makron bizə hansı dərsi vermək istəyib? Bu sualı cavablandırmaq üçün xalqının başına bəla olmuş Emmanuel Makronun "Azərbaycanın Ermənistana münasibətindəki qeyri-müəyyənlik aradan qaldırılmalı, Ermənistanın ərazi bütövlüyü qorunmalı, Qarabağ xalqının ( !?) hüquqları təmin edilməlidir!" sərsəmləməsini yada salmaq kifayətdir.

Makrona xatırladan lazımdır ki, əvvəla, dünyada siyasəti hamı üçün açıq, aydın olan ölkələrin önündə Azərbaycan gedir. Ona görə də bizim fəaliyyətimizdə "qeyri-müəyyənlik" axtarmaq tamamilə əsassızdır və siyasətçiyə yaraşmayan sifətdir. İkincisi, rəsmi Bakı Azərbaycanın Ermənistana heç bir ərazi iddiası olmadığını ( hərçənd, indiki Ermənistan başdan-başa tarixi Azərbaycan torpaqlarında yaradılmışdır) dəfələrlə bəyan etmişdir və dünyada bunu bilməyən yoxdur. Üçüncüsü, Fransa kimi tanınmış dövlətə rəhbərlik edən şəxsin iyirmi-otuz minlik terrorçu, separatçı qruplaşmasına "Qarabağ xalqı" deməsi, sadəcə olaraq, gülünc səslənir. Onların hüquqlarının qorunması məsələsinə gəlincə isə Makron eşitməsə də, dünya ictimaiyyəti bilir ki, Prezident İlham Əliyev bizim Qarabağ iqtisadi rayonumuzda yaşayan erməniləri dəfələrlə Azərbaycan vətəndaşı adlandırmış və demişdir ki, separatçılıqdan əl çəkəcəkləri təqdirdə onlar da ləzgi, talış, kürd, avar və digər azsaylı xalqların təmsilçiləri kimi bərabərhüquqlu şəkildə ölkəmizdə yaşayacaqlar. "Qarabağ erməniləri" bu təklifi qəbul etməyərək, çıxıb getdilər. İndi Makron hansı hüquqdan danışır?

***İttifaq MİRZƏBƏYLİ***

# Yalanın ayağına taxılan erməni protezi

## Qondarma soyqırımı əfsanəsinin iflası rəsmi İrəvanı ayıldacaqmı?

**Birinci Dünya müharibəsinin gedişi zamanı – 1915-ci ilin aprelindən başlayaraq, Osmanlı imperiyasının ona qiyam qaldıran erməni millətindən olan vətəndaşlarını məcburən ölkənin daxilinə köçürməsi hadisəsi ilə bağlı Ermənistanda növbəti isterika dalğası baş qaldırıb. Psixologiya elminin şəxsiyyətin psixi pozğunluğunun göstəricilərindən biri hesab etdiyi isterikanın bəzi haylar arasında bu dəfə baş qaldırmasına Ermənistan parlametinin hakim "Mülki müqavilə" partiyasından olan deputatı Andranik Koçaryanın səsləndirdiyi fikirlər səbəb olub.**

A.Koçaryan bildirib ki, məlum hadisələr zamanı ölən ermənilərin hamısının adlarını dəqiqləşdirmək və siyahısını açıqlamaq lazımdır. Deputat sonradan güclü tənqidlərə tuş gəlməmək üçün özünü sığortalamağa çalışıb. Özünün də "soyqırımından əziyyət çəkən" şəxs olduğunu iddia edib. Onun sözlərinə görə, həm ata, həm də ana tərəfdən əcdadları "qurban" gedib: "Biz, nəhayət, hər kəsin adının daxil edildiyi siyahıya sahib olmalıyıq. Bəlkə onların sayı qəbul edildiyi kimi, 1,5 milyondan çox, yaxud azdır?!"

Deputat qeyd edib ki, İkinci Dünya müharibəsi dövründə nasist Almaniyasında və onun işğal etdiyi ərazilərdə soyqırımına məruz qalan yəhudilər bunu etməyə müvəffəq olublar. Ancaq Ermənistanın bunu niyə edə bilmədiyi bəlli deyil. Koçaryan bu təşəbbüsün Türkiyə ilə münasibətlərin qurulması üçün də önəmli olduğunu bildirib. Əlavə edib ki, buna görə utanmağa ehtiyac yoxdur.

Qeyd edək ki, hakim partiyanın deputatı bununla qondarma hadisələrə xəstə təfəkkürlü haylardan bir qədər fərqli münasibət sərgiləyib. Ancaq Ermənistan cəmiyyətində qondarma soyqırımı mövzusu o qədər daşlaşıb və qəlibləşib ki, onunla bağlı qəbul edilmiş ümumi fikirdən fərqli yanaşma ortaya qoyanlar dərhal güclü tənqid atəşinə tuş gəlirlər. Onlar vətən xaini, Türkiyənin, Azərbaycanın "agenti" adlandırılır, hər yerdə çıxdaş olunurlar. Uydurma mövzu haylar arasında, sanki, bir tabudur. Onunla bağlı fərqli fikir söyləmək az qala böyük cinayət işlətməyə bərabər tutulur. İndi hakim partiyanın deputatının bu istiqamətdə fərqli fikir söyləməsi haylar arasında aydın səmada çaxan şimşək effekti doğurub.

Yeri gəlmişkən, qeyd etmək yerinə düşər ki, Türkiyə hökuməti dəfələrlə Ermənistana dünyanın müxtəlif ölkələrindən olan mütəxəssislərin iştirakı ilə arxivləri birgə açmağa, komissiya yaratmağa çağırıb. Ancaq arxivlərin açılmasından sonra əsl həqiqətlərin üzə çıxacağından qorxan Ermənistanın əvvəlki Koçaryan-Sarkisyan rejimi bundan imtina edib. Onlar öz fikirlərini belə "əsaslandırıblar" ki, "soyqırımı" qəbul edilmiş "fakt"dır və bu mövzuda hər hansı müzakirə açıla bilməz. Beləliklə, Türkiyənin təşəbbüsləri faydasız qalıb.

Ümumiyyətlə, Koçaryanın məlum yanaşması mənsub olduğu hakimiyyət düşərgəsinin ümumi dəst-xəttindən qaynaqlanır. Nikol Paşinyanın 2018-ci ildə hakimiyyətə gəlişi ilə əvvəlki rejimlərin istismar və manipulyasiya etdikləri ermənilərin, necə deyərlər, sevimli mövzusunda da gözlənilməz dönüş qeydə alındı. Hiss olunur ki, Paşinyan hayların "tarixi fakt" kimi qəbul etdikləri hadisələrə yenidən qiymət verməyə çalışır. Onu şübhə altına alan bəyanatlar səsləndirir. Baş nazirin rəhbəri olduğu "Mülki müqavilə" partiyasının yaratmış olduğu Demokratiya Məktəbində 2024-cü il aprelin 13-də "Ermənistan Respublikasının sosial psixologiyası" mövzusunda mühazirə oxuması bunun daha bir göstəricisi hesab oluna bilər. Hayastanda belə güman edilir ki, Paşinyan bununla dövlətlərarası münasibətlərin qurulması üçün Türkiyənin ilkin şərtinə – "soyqırımı"ndan imtinaya əməl edir.

"Hraparak" qəzeti yazır ki, Paşinyan bununla "erməni soyqırımını inkar etmək", bu "faktı şübhə altına almaq" və Türkiyəyə qarşı irəli sürülən tələblərdən əl çəkmək məqsədilə "tövbə qapısı"nın rəsmən açıq olduğuna eyham vurur. Qəzetin yazdığına görə, bir saat davam edən mühazirənin əsas mahiyyəti bundan ibarət olub ki, "erməni soyqırımı" ilə bağlı bəyanatların mətni SSRİ və Türkiyə arasında münasibətlərin 1946-cı ildən başlayaraq pisləşməsi, həmçinin 1952-ci ildə NATO-nun yaradılması zamanı Moskva tərəfindən kəskinləşdirilib. Paşinyanın fikrincə, SSRİ "soyqırımından xilas olmuş" mühacirlərin geri qaytarılmasını təşkil edib və bu, iddialar məsələni daha da kəskinləşdirib.

Nikol bütün mühazirə boyu "soyqırımı", "medz yeghern" (erməni dilindən tərcümədə "böyük fəlakət" deməkdir – S.H.) və ya "bədbəxtlik" sözlərindən də istifadə etməyib. Halbuki, ermənilər özləri ABŞ prezidentlərinin aprelin 24-ü ərəfəsində haylara ünvanladıqları müraciətlərdə Ağ ev rəhbərlərini həmişə "soyqırımı" sözündən yayınmaqda ittiham ediblər. Qəzet qeyd edib ki, hətta, ABŞ Prezidenti Co Bayden bu ənənəni pozaraq, 2021-ci il aprelin 24-də ermənilərə müraciətində ilk dəfə olaraq "soyqırımı" sözündən istifadə etsə də, Ermənistanın baş naziri bundan imtina edir. Yeri gəlmişkən, girişdə adını çəkdiyimiz A.Koçaryan onu da deyibmiş ki, "soyqırımı" və "medz yeghern" sözləri arasında heç bir fərq yoxdur.

Əlbəttə, hələlik Ermənistanda sağlam düşüncə tərəfdarlarının sayı çox azdır. Amma, görünən odur ki, belə düşünənlər mövqelərini açıq ifadə etməkdən də çəkinmirlər. Məsələn, parlamentin deputatı Ovik Ağazaryan deyib ki, Ermənistan Türkiyəyə qarşı iddia ilə bağlı heç bir hüquqi akt təqdim edə bilməz. Çünki həmin hadisələr Osmanlı imperiyasında baş verib: "Biz o zaman dövlət olaraq mövcud deyildik, buna görə də iddiaçı tərəf ola bilmərik. Dünyanın müxtəlif yerlərində yaşayan hər bir insan iddia ilə çıxış edib, hər şeyi əsaslandıra bilirsə, bu başqa məsələdir.



Biz Türkiyədən heç nə tələb edə bilmərik. Nə deməliyik: Bu torpaqları Ermənistan Respublikasına verin? Hansı beynəlxalq standartlara əsasən?"

Ancaq cəmiyyətdəki radikal-revanşist kəsim baş nazirin və onun tərəfdarlarının mövqeyini kəskin tənqid etmək yolunu tutub. Onlardan biri 8 il (2011–2019-cu illərdə) parlamentin sədr müavini olmuş, müxalifətdə olan Respublika partiyasının icraçı orqanının üzvü Eduard Şarmazanovdur. O deyib ki, Paşinyanın söylədiyi mühazirədən bir gün sonra A.Koçaryanın səsləndirdiyi fikirlər baş nazirin tezislərinin davam etdirilməsi sayıla bilər. Şarmazanovun fikrincə, Koçaryan bütün "qurban"ların adlarını açıqlama çağırış etməklə, guya, "soyqırımı" faktını açıq şəkildə şübhə altına alıb.

Azərbaycana və Türkiyəyə münasibətdə hər zaman kəskin mövqeyi ilə seçilən, Vətən müharibəsi dövründə Ermənistanın ombudsmanı vəzifəsində çalışarkən ölkəmizi olmazın məsələlərdə ittiham edən Arman Tatoyan isə "erməni soyqırımı"nın tanınması üçün "real əsasların" toplanması çərçivəsində qurbanların adlı siyahısının yaradılmasını Ermənistanın dövlətçiliyinə qarşı addım adlandırıb. O, sosial şəbəkə hesabında yazıb: "Hökumət 1,5 milyon "erməni soyqırımı qurbanı"nın (?) adlı siyahısının tərtib olunmasını "soyqırımı" ilə bağlı real əsasların yaradılması hesab edərək, erməni kimliyinə və dövlətçiliyinə qarşı qəbul edilməsi qətiyyən mümkün olmayan addımlar atır".

O, Türkiyə hökumətinin də "soyqırımı qurbanları"nın sayını mübahisələndirmək ideyasını irəli sürdüyünü, Paşinyanın bununla inkar siyasətini təbliğ etdiyini vurğulayıb.

Parlamentdəki "Şərəfim var" müxalifət fraksiyasının katibi Tiqran Abramyan isə jurnalistlər üçün keçirdiyi brifinqdə bildirib ki, "erməni soyqırımı"nın 109-cu ildönümü ərəfəsində İrəvan Ankaraya növbəti güzəştə getməyə qərar verib: "Ermənistan hakimiyyəti Türkiyənin tələblərinə əməl edir və Osmanlı imperiyasında "erməni soyqırımı" faktından tədricən imtina yolunu tutub".

Abramyan Qarabağ məsələsində Paşinyan və komandasının leksikonunun dəyişməsinin nəyə gətirib çıxardığını da xatırladıb. Deyib ki, 44 günlük müharibədən sonra hakimiyyət tədricən "Artsax" deməyi dayandırıb, bunun əvəzində "Dağlıq Qarabağ" deməyi üstün tutub. İndi də hakimiyyət həmin yolla gedir".

**"Qafqaz tarixi" mərkəzinin rəhbəri Rizvan Hüseynov mövzu ilə bağlı "XQ"-yə bildirdi ki,** "erməni soyqırımı" məsələsi müstəqilliyin bərpasından bəri Hayastanın



dövlət siyasətidir: "Ermənistan dövlətinin, necə deyərlər, xəmiri bu miflə yoğrulub. Qondarma soyqırımı, "böyük Ermənistan", "böyük Tiqran" və "miatsum" onların ideologiyasının təməl prinsipləridir. Erməni dövlətçiliyi bu məsələlər üzərində bərqərar olub və hayları birləşdirən "dəyərlər"dir. Ancaq ötən onilliklər göstərdi ki, onlar bu istiqamətdə getməklə heç nəyə nail ola bilmirlər. Ədavəti qızışdırırlar, düşmənçilik toxumu səpirlər və bunun nəticəsində özləri yeni faciələr yaşayırlar. Əslində, belə xəstə təfəkkür onların 2023-cü ildə uzun illər yaşadıqları Qarabağdan da çıxmasına səbəb oldu. Türkiyə ilə münasibət qurulmasını qeyri-mümkün edən səbəblərdən biri də uydurma hadisələrlə özlərini aldatmaqları və onu "fakt" kimi dünyaya sırımaqlarıdır".

R.Hüseynov ermənilərin bundan öncə olduğu kimi, bundan sonra da heç nəyə nail ola bilməyəcəyini vurğuladı: "Paşinyan iqtidarının bu məsələdə mövqeyi bir qədər fərqlidir. Yəni, daha yumşaqdır və nisbətən sağlam mövqedən çıxış edir. O, Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmağa meyillidir. Buna görə də münasibətlərin qurulmasına mane olan əngəlləri dəf etməyə çalışır. Amma uydurma soyqırımı məsələsi qeyd etdiyim kimi, onlar üçün dövlətçiliyin təməl prinsipidir. Paşinyan istəsə də, istəməsə də qondarma hadisələrə dəstək ifadə etməlidir. Buna məhkumdur".

Sözsüz ki, 109 il öncə Osmanlı imperiyasında baş verən hadisələrə müasir Ermənistanda millətçilərin, radikal baxışlara malik şəxslərin yanaşmasının necəliyindən asılı olmayaraq, fakt faktlığında qalır. Fakt isə bundan ibarətdir ki, millətçilər, onların daşnak rəhbərləri Osmanlı imperiyasını, müasir dövrdə isə Türkiyəni yumşaq desək, sevməyən dövlətlər məlum hadisələri saxtalaşdırıblar. Türkofob, islamofob mərkəzlər də məkrli niyyətlərini həyata keçirmək üçün "soyqırımı" kartından yararlanırlar. Onlar müharibə edən dövlətə qarşı qiyam qaldıranların məcburiyyətdən ölkənin daxilinə aparılmasını "soyqırımı" kimi qələmə verməklə Türkiyənin müsbət imicini zədələməyə, onu gözdən salmağa çalışırlar.

Təəssüf ki, bəzən dünyanın müxtəlif yerlərində tarixdən xəbərsiz olanlar, o zamankı şəraiti düzgün qiymətləndirə bilməyənlər hadisələrin qeyri-obyektiv təbliğatına inanırlar. Tarix isə baş verənlərin canlı şahididir. Faktlar, tarixi sənədlər, açılan arxivlər göstərir ki, əslində, ermənilər özləri zaman-zaman türklərə qarşı soyqırımı siyasəti aparıblar. Bunu haylar özləri də çox yaxşı bilirlər.

"Soyqırımı"nın mif olduğunu son vaxtlar dünyada daha çox insan görür, dərk edir. Erməni yalanının, necə deyərlər, maskası yırtılıb, iç üzü, mahiyyəti bəlli olub. Məhz bunları başa düşən, "soyqırımı" yalanının ayaq tutsa da yerimədiyini görən Paşinyan iqtidarı deyəsən, fərqli yol seçmək qərarına gəlib. Baş nazirin və onun komandasının mövqelərində nə qədər ardıcıl və səmimi olacaqlarını isə zaman göstərəcək.

***Səxavət HƏMİD***
***XQ***

# Ermənistan parlament müxalifətindən Avropa Şurası üçün "həyəcan təbili"

## "Demokratiya qiyafəsi"nə bürünmüş ölkədə insan hüquqları rəzil durumdadır

**Ermənistanda insan hüquq və azadlıqları pozulur. Bununla bağlı faktlar 2018-ci il inqilabınadək də qeydə alınıb, ondan sonra da. Beynəlxalq ictimaiyyət isə heç vaxt məsələyə ciddi önəm verməyib. Hətta, terrorçu Koçaryan-Sarkisyan xunta rejiminin zamanında adi hal almış insan haqlarına aşkar həqarət təmayüllərinə də göz yumulub. Baş nazir Nikol Paşinyanın hakimiyyətə yiyələnməsindən sonra isə problem tamamilə unudulub.**



Əvəzində Ermənistanın "Qafqazda demokratiya adası" obrazına dair fikirlər tirajlanıb və rəsmi İrəvan məsələni özünün xarici siyasət seqmentinə daxil edib. Dəfələrlə görmüşük ki, N.Paşinyan və komandasının üzvləri müxtəlif beynəlxalq platformalarda demokratiya amilindən Azərbaycana qarşı yararlanmağa cəhd göstəriblər. Onlar bəzi beynəlxalq dairələrin ölkəmizə münasibətdəki ikili standartlar siyasəti, bu siyasətin başlıca elementi sayılan qərəzli yanaşmalar, Azərbaycana ünvanlanmış anti-demokratik təqdimatlar fonunda Ermənistan demokratiyası məfhumundan üstünlüyə yiyələnmək üçün alət kimi istifadə edib, manipulyasiyalara yol veriblər.

Əslində, Ermənistan rəhbərliyi 44 günlük müharibəyə də, belə demək mümkünsə, demokratiya sipərinə arxalanaraq başlamışdı. Elə zənn etmişdi ki, ölkənin mövcud istiqamətdəki yüksək təbliğatı Azərbaycanı yenmək, Qarabağın anşlüzü baxımından fayda doğuracaq. Əlbəttə, rəsmi İrəvan yanılmış və bunun acı nəticələrini sadə ermənilər yaşamışdılar və bu gün də yaşayırlar. Həmin ermənilər müharibədən əvvəl olduğu kimi, savaşdan sonrakı dövrdə də "demokratiya nağılı"nın gəlişigözəl ifadələrindən başqa heç nə görmədilər.

Hazırda istər Azərbaycanla münasibətlər məsələsində, istərsə də digər istiqamətlərdə, o cümlədən Rusiya müstəvisində Paşinyana havadarlıq edən qüvvələr yenə demokratiya amili üzərinə köklənirlər. Onlar Ermənistanın qorunmasının vacibliyini əsaslandırarkən elə fon yaradırlar ki, sanki ölkənin müdafiəsi bəşəri dəyər və prinsiplərə ali hörmətin təcəssümüdür. Belə təqdimatlar rəsmi İrəvana daxildəki etirazları boğmaq, hər cür qanunsuzluğu törətmək üçün yaxşı sığınacaqdır.

Lakin deyəsən, indi vəziyyət bir qədər fərqlidir. Hərçənd, bu fərqliliyin beynəlxalq dairələrin Ermənistan hakimiyyətinin anti–demokratik hərəkətlərinə yanaşmasını dəyişdirəcəyini düşünmək sadəlövhlükdür. Çünki həmin dairələr üçün demokratiya, insan hüquq və azadlıqları kimi məsələlər yalnız siyasi spekulyasiya vasitələridir.

Əlqərəz, Ermənistan parlamentinin müxalif "Ermənistan" və "Şərəfim var" fraksiyaları Avropa Şurasını və beynəlxalq insan haqları təşkilatlarını ölkədə demokratiya sahəsində geriləməni, insan hüquq və azadlıqlarının kobud şəkildə pozulmasını pisləməyə çağırıblar. Onların yaydıqları müraciətdə bildirilib ki, Ermənistanda insan hüquqlarının pozulması və demokratiyanın tənəzzülü göz qabağındadır. Ölkənin hazırkı hakimiyyəti beynəlxalq ictimaiyyət qarşısında özünü demokratiyanı inkişaf etdirmiş kimi göstərir. Ancaq insan hüquq və əsas azadlıqlarını kobud şəkildə pozur.

Erməni müxaliflərin bəyanatında daha sonra bildirilir ki, hökumətin cəhdlərinə baxmayaraq, beynəlxalq insan haqları təşkilatları ölkədə bir neçə il ərzində dövlət hakimiyyətinin konsolidasiyası şəraitində müxalifətdə olan yerli icma liderlərinin devrilməsi tendensiyasının davam etdiyini, mövcud xüsusda hakim partiyanın maliyyəsi ilə bağlı şəffaflığın yoxluğunu, nəticə etibarilə demokratiyanın faiz nisbətinin aşağı düşdüyünü bildirirlər. Müxaliflər əlaqədar beynəlxalq qurumların Ermənistan hökumətinin söz və sərbəst toplaşma azadlığına hücumlarını gücləndirdiyinə dair hesabatlar yaydıqlarını vurğulayıblar. Onlar, həmçinin, qeyd ediblər ki, yerli qanunvericilik həbsə son çarə kimi baxsa da, alternativ həbs üsullarına üstünlük versə də, hazırda Ermənistanda həbs ən çox yayılmış təcrübə olaraq qalır və müxalifət xadimlərinə qarşı geniş istifadə olunur.

Ermənistanın parlament müxalifətinin bəyanatında o da bildirilir ki, ölkədə əks düşərgələrdə yer alan siyasətçi opponentlərin qondarma cinayət işləri ilə təqibi, bütün mümkün vasitələrlə repressiyalara məruz qalmaları adi hala çevrilib və bu cür hərəkət və davranışlar hakimiyyətin iş üslubu, vizit kartıdır: "Müxalifətdən olan deputatlar, deputatlığa namizədlər, müxalifət partiyalarının təmsilçiləri, bir sıra ictimai xadimlər, onlarca yerli icma rəhbərləri uzun müddətdir ki, qondarma ittihamlarla həbsdədirlər".

Bundan başqa bəyanatda vurğulanıb ki, Ermənistanda müxalif fəaliyyətinə görə yüzlərlə insan sırf polisin ifadəsi əsasında qeyri-qanuni həbs edilib və uzun müddətdir azadlıqdan məhrum olunub. Habelə, ictimai xadimlər, siyasətçilər və onların yaxınları, həlak olmuş hərbçilərin valideynləri Ermənistanın indiki hakimiyyətini tənqid etdiklərinə görə cinayət törətməkdə ittiham və ya mühakimə olunurlar: "Avropa Şurası Parlament Assambleyasının (AŞPA) müəyyən etdiyi meyarların tətbiqi gerçəkləşərsə, məlum olar ki, yuxarıda qeyd edilən əksər hallardakı kimi, hazırda həbslə üzləşənlərin çoxu siyasi məhbuslardır".

Ermənistan parlament müxalifətinin bəyanatında o da vurğulanıb ki, həbsdən fərqli fikirlərə qarşı mübarizə vasitəsi kimi istifadə edildiyi, o cümlədən, ibtidai və məhkəmə araşdırmalarına əsasən bəzi hallarda ölümlə nəticələnən repressiv münasibətin olduğu ölkədə insan haqlarından və ya demokratiyadan söhbət gedə bilməz. İctimai-siyasi xadimlərə bu münasibətin bir məqsədi var: söz azadlığına mane olan mühit və ab-hava yaratmaq. "Yuxarıda göstərilənlərə əsaslanaraq, biz beynəlxalq hüquq müdafiə təşkilatlarının diqqətini Ermənistanda demokratiya və insan haqlarının kobud şəkildə pozulması hallarına cəlb edirik. Biz Avropa Şurasını Ermənistanda davam edən demokratiyanın tənəzzülünü, insan haqları və əsas azadlıqların kobud şəkildə pozulmasını qətiyyətlə pisləməyə çağırırıq",– deyə Ermənistanın müxalif parlament fraksiyalarının bəyanatında deyilir.

Bəli, hər şey göz qabağındadır. Erməni müxalif parlament fraksiyasının Avropa Şurasına və digər beynəlxalq qurumlara ünvanlanmış bəyanatı isə acınacaqlı vəziyyətin təsviri baxımından əhəmiyyətli sayıla bilər. Bu təsvir nəticə çıxarmaq və hərəkətə keçərək durumu dəyişdirmək üçün yaxşı istinadgahdır. Hərçənd, əvvəldə də dediyimiz kimi, nəinki bu sənədin, eləcə də digərlərinin beynəlxalq dairələrə heç bir təsiri yoxdur. Çünki həmin dairələrin Qərbin forpostuna çevrilmiş Ermənistana münasibəti fərqlidir. Onların ümumən insan hüquq və azadlıqları məsələsinə yanaşmaları da həmçinin. Bu ikili yanaşma qaldıqca Ermənistandan gələn bütün bəyanat və çağırışlar qulaqardına vurulacaq.

Sonda bir məqama da diqqət yetirək. Haqqında söz açdığımız bəyanatın müəllifləri Ermənistanın sabiq hakimiyyətində təmsil olunanlardır. O kəslər ki, özləri iqtidarda yer alanda insan hüquq və azadlıqlarına önəm verməyiblər. İndi bu adamlar bəşəri dəyərlərdən, həmin dəyərlərə hörmətdən dəm vurur, mövcud xüsusda Paşinyan hakimiyyətinə ittiham yağdırırlar. Necə deyərlər, "daşı günahı olmayan atsın". Belə görünür, Ermənistanda günahsız yoxdur. Hər halda riyakar ölkədə doğulub, onun siyasi mühitində günahsız qalmaq olmur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Yeni tarixi mərhələdə milli ideya

**IX MƏQALƏ**

**Beynəlxalq müqavilələr... Ancaq kiminlə savaşırıq – bu bizim daxili işimizdir.**

**Karel Çapek**




## Cənubi Qafqazda ABŞ-ın inteqrasiya strategiyası

Ənənəvi olaraq, Amerika Birləşmiş Ştatları Cənubi Qafqaza iki geosiyasi strategiyanın nisbətində baxmışdır. Birincisi, realpolitikaya əsaslanan realizmdir. İkincisi, liberal konsepsiyaya dayanan idealizmdir. H.Kissincer bu iki xətti müqayisə edərək təklif etmişdi ki, ABŞ onların sintezində xarici siyasətini aparsın.

Belə bir mövqenin politoloji anlamı bir məqamı aydınlaşdırmaqdan başlayır. Konkret H.Kissincer Amerikanın xarici siyasəti kontekstində realizmlə idealizmin sintezi deyəndə nəyi nəzərdə tuturdu? O, burada başlıca prinsipi belə təqdim edrdi: Vaşinqton hər bir regionda dəyərlərin qəbul etdirilməsinə üstünlük verməlidir. Bunun üçün “yumşaq güc”lə “sərt gücü” növbələşdirməli və lazım olanda birləşdirməlidir. Öncə, idealizm (yəni dəyərlərin “könüllü” qəbul etdirilməsi) xətti yeridilməlidir, lakin ciddi müqavimət olanda “sərt güc”dən (hərbi güc, iqtisadi sanksiyalar, informasiya və sosial təxribatlar, kriminal dairələrdən iğtişaşlar üçün istifadə və s.) istifadə lazımdır.

Belə aydın olur ki, ABŞ siyasəti üçün Amerika dəyərlərinin yayılması və hər bir cəmiyyətdə siyasi şüurdan tutmuş kütlə səviyyəsinə qədər yayılması öncül məsələdir. Bu məqsədə çatmaq üçün də məhz idealist və realist metodlardan istifadə qəbul ediləndir.

Bu ümumi yanaşmanın işığında istənilən regionda Amerikanın hansı inteqrasiya modelinə üstünlük verdiyini anlamaq çətin deyil. Bu məqamda da iki məsələni fərqləndirmək gərəkdir.

Birincisi, ümumi olaraq ABŞ regionda neoliberalizm dəyərlərini, Qərbin siyasi idarəetmə mədəniyyətini, sosial baxışları, ictimai fəaliyyət özəlliklərini, dili, mədəniyyəti yeritməyi strateji məqsəd sayırsa, yerli mədəni, psixoloji, mənəvi, əxlaqi və s. xüsusiyyətlər Vaşinqton üçün arxa plana keçir. Onlara verilən qiymət nə dərəcədə region insanlarının Amerika dəyərlərinə uyması ilə bağlı olur. Əgər insanlar tam qəbul edirlərsə, deməli “liberaldırlar”, “demokratdırlar”, “sivildirlər”, “mədənidirlər” və s. Yox, əgər bunlara soyuq yanaşırlarsa, deməli, “köhnədirlər”, “avtoritardırlar”, “yeniliyə həssas deyillər”. O halda birinciləri təşviq etməli, ikinciləri isə neytrallaşdırmalıdır.

Məsələ də burada qəlizləşir. Çünki “təşviq” yalandan layiq olmayan keyfiyyətləri kimlərəsə aid etmək olur, “neytrallaşdırmaq” isə milyonların göz yaşını axıtması ilə sinonimə çevrilir. Bu cür yalançı təşviq siyasi spekulyasilara, təxribatlara, yalançı “regional qəhrəman, demokrat siyasilərin” yağışdan sonrakı göbələklər kimi çoxlmasına, “neytarllaşdırma” isə intriqalara, münaqişələrə, qeyri-sağlam rəqabətə, haqsız geosiyasi normaların yaranmasına aparıb çıxarır.

Normal və sağlam siyasi düşüncə üçün bunların milli ideya baxımından nə dərəcədə qəbuledilməz olduğu aydındır. Sübuta ehtiyac yoxdur. Ancaq məsələ bununla məhdudlaşmır. Bu, ikinci özəlliklə əlaqəlidir.

İkincisi, ABŞ ümumi səviyyədəki həmin nöqsanları, saxtakarlığı və yalançılığı maskalamaq üçün iştahlandırıcı layihələr təklif edir. Cənubi Qafqaz üçün bu, “İpək Yolu” layihəsi boyu əməkdaşlıq zolağı yaratmaq proqramında ifadəsini tapırdı. Müxtəlif maliyyə, idarəetmə, təhlükəsizliyin təmini, iqtisadi infrastrukturun yenidən qurulması adı altında bir fundametal dəyər tələb olunurdu: Amerikasayağı həyat tərzi olmalıdır! Bunun üçün, əlbəttə, milli dövlətlərdə “idaretmə şəffaflaşmalıdır”. Hətta, o dərəcədə ki, insanların şəxsi həyatı barədə cəmiyyət hər şeyi bilməlidir. Bu istiqamətdə cinsi pozğun olanların təbliği ayrıca yer tutur. Bir başqa xətlə feminizm yeridilir. Nümunəvi kişi obrazını, o cümlədən mərd və qəhrəman kişi obrazını ABŞ üçün keçərli olan qəhrəmanlar yaratmalıdırlar. Milli qəhrəman olmamalıdır və s.

Konkret sosial, iqtisadi, maliyyə, nəqliyyat, informasiya proqramları, təhlükəsizliyinin təmini və digər layihələrlə böyük bir geosiyasi məkanda özünə uyğun geosiyasi mənzərə yaratmağa çalışan ABŞ, əlbəttə, regional inteqrasiyada maraqlıdır. Ancaq bir şərtlə: bu inteqrasiya yerli xalqlara deyil, amerikanlara xidmət etməlidir.

Bu tezisin fonunda Vaşinqtonun konkret hansı modeli təklif etməsinin elə bir anlamı yoxdur. Əsas olanı odur ki, Amerikasayağı regional inteqrasiya reallıqda hər bir region xalqının assimilyasiyası deməkdir. Bu baxımdan Vaşinqtonun inteqrasiya modeli Aİ-nin, Çinin və Rusiyanın modellərindən heç nə ilə fərqlənmir.

Beləliklə, ABŞ bu üsulla Cənubi Qafqazda real olaraq heç bir uğur qazana bilməmişdir və indi də həmin vəziyyət davam edir. Hətta, bir zamanlar çox güclü və qorxunc görünən ABŞ indi çaşqın geosiyasi vəziyyətdədir. O, nə edəcəyini dəqiq bilmir. O dərəcədə bilmir ki, təcavüzkar Ermənistana açıq dəstək verir və İranın geosiyasi manevrlərinə haradasa təkan verir. ABŞ İsrail – İran münasibətlərində də təhlükəli manevrlər edir (hər halda KİV-də bu barədə informasiyalar çoxalmışdır).

ABŞ-ın Cənubi Qafqazdakı bu cür mövqeyinin prizmasında Çin və Rusiyanın inteqrasiya modelləri maraqlıdır.

## Regional inteqrasiyada “Çin müdrikliyi”

Çin Aİ və ABŞ-dan fərqli fəlsəfə işığında Cənubi Qafqazda “görünməyə” və hətta “işıq saçmağa” çalışır. Bunu olduqca ehtiyatlı və demək olar ki, siyasi məqamı hiss etdirmədən həyata keçirmək istəyir. Çin Cənubi Qafqazda siyasi deyil, iqtisadi, energtik, nəqliyyat, loqistika, yeni istehsal yerlərinin inşası, dil və mədəniyyətlə təsir etməyə cəhdlər göstərir. Mərkəzi Asiyada da eyni vəziyyətdir. Bunun üçün Çin “Bir Kəmər, bir yol” qlobal layihəsinin punktlarından yararlanmağa çalışır. Onlar iqtisadi, geosiyasi, enerji, nəqliyyat, loqistika, informasiya və digər “yumşaq faktorları” əhatə edir.

Pekin konkret olaraq hər hansı regional inteqrasiya modelini təklif etmir. Lakin atdığı addımları vahid bir bucaq altında birləşdirəndə özünə uyğun bir inteqrativ geosiyasi modelinin reallaşmasına cəhd hiss olunur. Burada Çin üçün təklif etdiyi qlobal layihənin Cənubi Qafqazda hər bir dövlət tərəfindən dəstəklənməsi ilk sıradadır. Bunun üçün, o, Azərbaycanla da, Ermənistanla da geniş əməkdaşlıq edə bilər. Hətta, Ermənistana Azərbaycanın əleyhinə nəticə verə biləcək yardım göstərə bilər.

Onun Cənubi Qafqaz məsələsində İranla hansı dəyərləri bölüşdüyü hələ tam aydın deyildir. Bu istiqamətdə də rəsmi Pekin situasiyanı müəyyən balansda saxlamaqla gələcək hərəkətlər üçün manevr imkanlarını saxlamağa çalışır.

Pekinin Moskva ilə Mərkəzi Asiyada olduğu kimi, Cənubi Qafqazda da maraqları üst-üstə düşmür. Lakin Çin heç bir kəskinləşməyə getmir. Onu digərlərindən fərqləndirən başlıca cəhət bundan ibarətdir. Bu, o deməkdir ki, rəsmi Pekin güclü maliyyə sərf etməklə geosiyasi meydanda mövcudluğunu daha uyğun şərait yaranana qədər saxlamaq strategiyasını seçmişdr. Müdrik Çin hələ gözləyir! Bundan nə qazanacağını zaman göstərəcək! Bu aspektdə Çinin Türk Dövlətləri Təşkilatına münasibəti də maraqlıdır.

Zahirən rəsmi Pekin heç bir etiraz bildirmir. Eyni zamanda, öz ərazisndə yaşayan türklərin TDT-yə ümid yeri kimi baxmasını da qəbul etməz. Hətta adi simpatiya belə Pekində qıcıq yarada bilər. Ancaq hazırda vəziyyət elədir ki, Çindən başlayan “Orta Dəhliz” böyük bir ərazidə məhz TDT coğrafiyasından keçir. Burada hər hansı “qırılma” “Bir kəmər, bir yol”u arxivə ata bilər. Bir sıra mütəxəssislər TDT-yə alternativ yollardan bəhs edirlər. Lakin tarixi təcrübə göstərir ki, həmin alternativlər həm risklidir, həm də sabitliyin olmadığı yerlərdir. Gələcəkdə alternativlərin Çinə hansı səviyyədə baş ağrısı yarada biləcəyini Pekin yaxşı bilir.

Bundan başqa, Çinin layihəsində Avropa faktoru ciddi yer tutur. Avropaya gedən ən etibarlı yol isə TDT-dən keçir! Deməli, bu təşkilatla əlaqə Çin üçün böyük geosiyasi əhəmiyyət kəsb edir. Xüsusilə ona görə ki, TDT hazırda dünyada sürətlə inkişaf edən potensiallı təşkilatlardan biridir.

Çin üçün başqa bir inteqrasiya nümunəsi Rusiyanın irəli sürdüyü Avrasiya inteqrasiya modeli ilə bağlıdır. Belə çıxır ki, Çinin Cənubi Qafqazda arzuladığı inteqrasiya modeli hələ tam aydın deyildir və belə bir şəraitdə milli ideyaya onun necə təsir etdiyi də məlum olmur. O zaman, Çin məsələsinin bir müddət Cənubi Qafqazda aparıcı geosiyasi faktor ola biləcəyini proqnozlaşdırmaq çox çətindir.

Bunun fonunda Rusiya bu istiqamətdə kifayət qədər qətiyyətli və ardıcıl görünür. O cümlədən, Cənui Qafqazda inetqrasiyaya çox can atır.

## “Rus dünyası” inteqrasiya modeli

Rusiya Qərb və Çindən fərqli olaraq bir neçə yüz il Cənubi Qafqazda aparıcı geosiyasi güc olmuşdur. Bu fakt onun tarixi, mədəni və geosiyasi aspektlərdə regional inteqrasiyada daha şanslı olmasına dəlalət edir. Lakin bunun üçün Moskva indiyə qədər Cənubi Qafqazda yeritdiyi geosiyasi kursa ciddi düzəlişlər etməlidir. Çünki Rusiya bu müddətdə əsas olaraq imperiya ambisiyaları ilə regiona münasibət bildirmişdir.

Bunu bütün sferalarda, o cümlədən, dil və mədəniyyət aspektlərində açıq görmək olur. Ruslar Azərbaycan dilini öyrənmirlər, rus diplomatlar bir kəlmə belə Azərbaycan dilində danışmamışlar, mədəniyyətdə də özlərini aparıcı hesab edirlər. Bu məqamlar Rusiyanın regional inteqrasiyaya radikal və əsas olaraq öz şəxsi maraqları baxımından yanaşmasını şərtləndirir. Buna görə də, Rusya Cənubi Qafqazın inteqrasiyasında bu qədər böyük potensiala malik olmasına baxmayaraq, real bir iş görə bilməmişdir. Əksinə, onun adı daha çox yerli dövlətlər arasında münaqişə yaratmaqda hallanır.

Bu baxımdan MDB, Avrasiya İqtisadi Birliyi və KTMT kimi təşkilatların Cənubi Qafqazda effekti minimumdur. Bu təşkilatlar çərivəsində regionda hər hansı inteqrasiyadan söhbət gedə bilməz. Əksinə, Gürcüstan MDB-dən uzaqlaşıb, Ermənistan da uzaqlaşmış kimidir. Nə Gürcüstan, nə də Azərbaycan KTMT-də yoxdur, olmaları da gözlənilmir. MDB çərçivəsində əməkaşlıq daha çox ikitərəfli xarakter daşıyır. Rusiyanın təklif etdiyi və yaratdığı təşkilatların nüfuzu çox aşağıdır.

Bunların fonunda Moskvanın tələbkarlıqla dil və mədəniyyət məsələsini ortaya atması başa düşüləndir. Ölkələri dövlət kimi inteqrasiya etməyə gücü çatmayan bir dövlət dil və mədəniyyəti ilə burada qalmağa çalışar. Lakin milli ideyanın geosiyasi kontekstində əhəmiyyətli olan iki məqam unudulmamalıdır

Birincisi, Rusiya dil və mədəniyyətdə regionda uğurlu olsa belə (hələ belə olduğu görünmür), regional inteqrasiyaya töhfə verə bilməyəcək. Çünki inteqrasiya edən dövlət kimi müasir dövlətçiliyin tələblərinə cavab verə biləcək konsepsiyası yoxdur. Rusiya Cənubi Qafqaz üçün heç bir yeni ümidverici bir inteqrasiya layihəsi təklif edə bilmir. Davamlı olaraq dil və mədəniyyətdən bəhs etmək inteqrasiya aspektində boş yerə havanı dalğalandırmaqdır.

İkincisi, Rusiya Cənubi Qafqazda milli ideya fonunda digər güclü dövlətlərlə rəqabətə hazır görünmür. Doğrudur, bu məqamda onun ABŞ, Aİ və Çin kimi güclü mərkəzlərdən elə bir fərqi yoxdur, yəni onlardan zəif deyildr. Lakin “uğursuz inteqratorlar kvartetində” olmaq Moskvaya real nə vəd edir ki? Rəqiblərin də uğursuz olmasından yaranan təsəllimi? Sərf edirsə, olsun!

Ancaq zaman dayanmır. Situasiya anbaan dəyişir. Və meydana yeni perspektivli güclər çıxa bilər. Bu sırada mütəxəssislər ilk olaraq Türk Dövlərləri Təşkilatını (TDT) göstərirlər! Xüsusilə, milli ideyanın geosiyasi kontekstində ən cəlbedici və real faktor kimi TDT görünür!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitki,***
***fəlsəfə elmləri doktoru***

# Frank Şvabe öz ampluasındadır

## Almaniyalı deputat köhnə bayatıları təkrarlayır

**Avropa Şurası Parlament Assambleyasında Azərbaycan əleyhinə aparılan kampaniyanın müəllifi, ölkəmizin qurumdakı nümayəndə heyətinin fəaliyyətinin dayanmasının baiskarı almaniyalı deputat Frank Şvabe yenə də gündəmə gəlib. Bu dəfə “Turan” İnformasiya Agentliyinə müsahibəsi ilə. Almaniyalı deputatın nələrdən söz açdığı üzərinə gələcəyik. Hələlik isə bəzi məqamları diqqətə çatdıraq.**

***

Məlum olduğu kimi, Azərbaycan nümayəndə heyəti bu il yanvarın sonlarında AŞPA ilə əməkdaşlığını və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq barədə qərar verib. Həmin vaxt F.Şvabe BBC-nin Azərbaycan xidmətinə müsahibəsində məsələyə münasibət bildirmişdi. Sözügedən müsahibə AŞPA-da götürülmüş anti-Azərbaycan xəttinə, bir növ, bəraət cəhdinə oxşamışdı. Şvabe çalışmışdı ki, qurumun qərəzli yanaşmasına hansısa formada haqq qazandırsın. Əlbəttə, bu, cəhd olaraq qalmışdı.

Ümumən, AŞ hər zaman ölkəmizə münasibətdə qərəzli olub. Şvabenin Azərbaycanda insan hüquqlarına və qanunun aliliyinə dair vəziyyəti “pis” qiymətləndirməsi də bundan xəbər verirdi. Bəs konkret səbəb nə idi? Guya, Şvabe və dostları Azərbaycana gəlib siyasi məhbuslarla görüşmək istəyiblər, lakin buna imkan verilməyib. Siyasi məhbus dedikdə isə Qarabağdakı separaçı rejimin keçmiş liderləri nəzərdə tutulmuşdu. Digər yandan, “siyasi məhbus” ifadəsinin özü qərəzli münasibətin göstəricisidir. Çünki bu baxışda Azərbaycan qanunvericiliyini pozaraq, həbsə düşmüş şəxs anlayışı yoxdur.

Müsahibəsində Azərbaycanda 2024-cü il fevralın 7-də keçirilmiş Prezident seçkilərinə AŞPA-nın müşahidəçilərinin dəvət olunmadıqlarını iddia edən F.Şvabenin mövcud xüsusdakı müqayisəsi primitiv təsir bağışlamışdı. Belə təəssürat yaranımışdı ki, o, ATƏT-in seçkilərdəki müşahidəçilik missiyasına qısqanclıqla yanaşır.

Onu da bildirək ki, AŞ kimi Fransa neokolonializminin alətinə çevrilmiş qurumun Azərbaycana heç bir faydası yoxdur. Şvabeyə gəldikdə, bu şəxs Avropada yalnız Rusiyanın, Belarusun və Vatikanın AŞPA-da təmsil olunmadığını bildirərək, görüntü formalaşdırmışdı ki, sanki, qurumda yer almamaq hansısa böyük fəlakətdir. Əlbəttə, yanılmışdı.

Həm də ona görə yanılmışdı ki, əslində, AŞPA-nın işi heç də yalnız insan hüquqları sahəsində monitorinq aparmaqdan ibarət deyil. Halbuki, alman parlamentari bunu sanki ehkamlaşdırmaq yolunu tutmuşdu. Üstəlik, Şvabenin dediklərindən anlaşılmamışdı ki, onun Azərbaycan nümayəndə heyətinin pozduğunu bildirdiyi qaydalar nədən ibarətdir. Hər halda, seçkidə müşahidəçilik qayda ola bilməzdi. Daha bir nəticə də hasil olmuşdu ki, ölkəmizin yol verdiyi qayda pozuntusu ATƏT-i müşahidəçi kimi seçkilərə dəvət etməkdir. Şvabenin haqqında söz açdığımız qısqanclığı da elə budur.

Avropanın, o cümlədən, dünyanın mütərəqqi təşkilatları adına son dərəcə utancverici durum var. Bunu F.Şvabenin sözügedən müsahibəsi də təsdiqləmişdi. O, Azərbaycanın adını rüşvətdə hallandırmışdı. Ancaq əsas məqam bu deyildi. Almaniyalı deputat rüşvət almaq uğrunda dünyanın təsisatları arasında mübarizənin mövcudluğuna dair təəssürat yaratmışdı. “Avropa Şurası və ATƏT arasında bir fərq var ki, ATƏT-in işləməsi üçün səs yekdilliyi ilə verilən qərarlara ehtiyac var. Azərbaycan, Rusiya və Türkiyə kimi ölkələr ATƏT-in zəif təşkilat olmasını istəyir. Onlar istəyir ki, ATƏT-in etimadı zəifləsin. Lakin Avropa Şurasına qarşı bunu etmək olduqca çətindir. Çünki biz qərarların əksəriyyətini majoritar prinsiplə, yəni çoxluğun nəyi dəstəkləməsinə əsasən veririk. Bu cür vəziyyətlərdə biz daha yaxşı işləyirik və bu metodu istifadə etmək niyyətindəyik. Azərbaycan tərəfi isə bu iki təşkilatı bir-birinə qarşı qoymaq üçün oyun oynamağa çalışır”, – deyən Şvabe sanki diplomat deyil, cığal uşaq təsiri bağışlamışdı. “Cığal uşaq” təkcə Azərbaycanı deyil, elə ATƏT-i də birbaşa hədəfə almışdı: “ATƏT-in Azərbaycana getməsindən məmnun deyiləm. Çünki bizim razılaşmamız var ki, hansısa ölkənin bizdən bir-birimizə qarşı istifadə etməsinə imkan verməyəcəyik. Yəni, ya biz birlikdə çağrılırıq, ya da heç birimiz həmin ölkəyə getmirik. Mən ATƏT-dən bunu istəyirəm”.

Ümumən, Şvabenin söylədiklərinin hamısında məntiqsizlik var idi. Bilmək olmurdu ki, onun təmsil etdiyi təşkilat Azərbaycan nümayəndə heyəti ilə bağlı qərar verərkən, konkret nəyi əsas götürüb. Almaniyalı parlamentari, indiyədək anti-Azərbaycançı qüvvələrin dilə gətirdikləri şablonları təkrarlamaqdan başqa heç nə deməmişdi.



***

F.Şvabe “Turan”a müsahibəsində də şablonlara baş vurub. Bildirib ki, Azərbaycan nümayəndə heyətinin AŞPA-da səsvermə hüququnun qaytarılması AŞ-nin tələbləri yerinə yetirildiyi təqdirdə mümkündür, ancaq Bakı hələlik belə bir istək nümayiş etdirməyib.

Azərbaycanın öz prinsipləri var. AŞPA-dakı nümayəndə heyətimizin təşkilatdakı iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarı dünyanın mötəbər institutlarının böhranından xəbər verməkdədir. Azərbaycan bu böhrana ilk reaksiya verən ölkə kimi nümunədir. AŞ-nin üst eşelonu nəzərə almalıdır ki, səslərinə etimad etdikləri şəxslər hərəkət və davranışları ilə böhranı daha da dərinləşdirməkdədirlər.

Digər tərəfdən, nümayəndə heyətimizin addımı nəinki AŞ-nin, bütövlükdə Avropanın və dünyanın aparıcı təşkilatlarının ermənipərəstlik mərəzindən qurtulması üçün də siqnal olmalıdır. Bu təşkilatlar Ermənistanın və havadarlarının siyasi oyunlarında alətə çevrilərək, anti-Azərbaycan mövqeyi tutmaqla, dünya üçün son dərəcə təhlükəli presedent formalaşdırırlar. Çünki hərəkətləri, böyük ölçüdə, separatizm və ekstremizm xüsusundakı siyasi avantürizmə dəstəkdir. Dəstək isə bumeranq effekti yarada bilər. Nəzərə alaq ki, “köhnə qitə”nin bir çox yerlərində potensial separatizm ocaqları mövcuddur. AŞPA-nın Azərbaycana qarşı tutduğu ədalətsiz mövqe həmin ocaqların baş qaldırması üçün presedentdir. Belə hal yaşanacağı təqdirdə, Avropanın siyasi və mənəvi industriyasının hansı kökə düşəcəyini proqnozlaşdırmaq qorxunc düşüncələrə yol açır.

Şvabe hazırkı müsahibəsində onu da bildirib ki, AŞPA-nın yanvar sessiyasında qəbul edilmiş hesabatda Azərbaycan nümayəndə heyətinin bir il müddətinə səsvermə hüququndan məhrum edildiyi əksini tapıb. “Biz başqa həll variantını nəzərdən keçirməyə hazır olacağıq, ancaq bir şərtlə ki, Azərbaycan Avropa Şurasının qaydalarına tam əməl etməyə hazır olsun”, – deyən almaniyalı parlamentari yenə də köhnə havalardadır. O, Azərbaycan qanunvericiliyinə riayətin vacibliyini bir kənara qoyaraq və qanunları pozaraq həbsə düşənləri, bir növ, dissident qiyafəsində göstərir. Kimdir Şvabenin dissidentləri? Çox da düşünməyə ehtiyac yoxdur – Toplum TV-nin jurnalistləri, iqtisadi ekspert Qubad İbadoğlu. Almaniyalı deputatın fikrincə, onların azadlığa buraxılmamaları AŞ üçün mənfi siqnallardır...

***

Bəli, prinsiplərinə sadiq qalan Azərbaycan rəsmi səviyyədə bəyan edib ki, ölkəmiz hazırkı fəaliyyət strukturuna malik AŞ ilə yollarını tamamilə ayırmaq barədə də düşünür. Buna əsas verən səbəblərin bir neçəsini açıqladıq. Son olaraq onlardan ən başlıcası üzərində dayanaraq bildirək ki, Prezident İlham Əliyev 44 günlük müharibə müddətindəki çıxışlarının birində beynəlxalq təşkilatların təmsilçilərinin Azərbaycana haqsız müharibə apardığını bildirdiklərini diqqətə çatdırmışdı. Dövlətimizin başçısı vurğulamışdı ki, həmin təşkilatlar ölkəmizə irad tuta bilməzlər, çünki illər ərzində onların qəbul etdikləri sənədlərdə Ermənistan işğalçı kimi tanınıb. Yəni, həmin təşkilatların özlərini inkar yolu tutmaları məntiqi deyil.

Lakin biz müharibədən sonrakı müddətdə bu qurumların bəzilərinin tam fərqli davrandıqlarının şahidi olduq və olmaqdayıq. Belə yaramaz mövqeli təşkilatlardan biri məhz AŞPA-dır. Assambleyanın növbətçi bəyanatlarında Azərbaycan torpaqlarının, o cümlədən, Qarabağın ermənilər tərəfindən işğal olunduğu bildirilib. Hazırda onun tutduğu ermənipərəst mövqe isə o anlama gəlir ki, təcavüzkar, zorakılığa yol verən Ermənistan yox, Azərbaycandır. Əlbəttə, belə yanaşma, bütövlükdə, AŞ-ni prinsipsizləşdirir. Bu münasibət qurumu haqsızlıq və ədalətsizlik üçün vasitəyə çevirir. Deməli, AŞPA nə vaxt prinsipsizliyindən, buqələmunluğundan daşınar, o zaman Azərbaycan onunla əməkdaşlığa, qurumda təmsilçilik məsələsinə baxa bilər. F.Şvabenin “Turan”a müsahibəsində səsləndirdikləri və seçdiyi ton isə AŞPA-nın konstruktivlikdən uzaqlığının növbəti sübutudur və deməli, bu təşkilat Azərbaycana lazım deyil.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Sülhməramlılar gedir, sülh məramımız qalır...

## Qarabağdakı Rusiya hərbi kontingenti Azərbaycanı vaxtından əvvəl tərk edir

**Düzgün hesablanmış siyasət, tarixi vəziyyətin dəqiq qiymətləndirilməsi, soyuq məntiq və tərəfdaşlarla münasibətlərin sağlam zəmində qurulması ilk baxışda "mümkünsüz" görünəni mümkünə çevirməyə qadirdir. Söhbət Rusiya sülhməramlı kontingentinin Azərbaycanı vaxtından əvvəl tərk etməsini şərtləndirən amillərdən gedir.**





Nə gizlədək, bu məsələ ətrafında gedən müzakirələr cavabdan daha çox suallar üzərində qurulurdu. Narahatlığımıza səbəb olan incə məqamlar da kifayət qədər idi. Amma Azərbaycan xalqı Qarabağ iqtisadi rayonumuzdakı Rusiya sülhməramlılarının ərazimizdən çıxacağına əmin idi. Sənəddə son müddət kimi 2025-ci ilin may ayı göstərilirdi. Ən önəmlisi isə odur ki, Azərbaycan hakimiyyəti bu "müşkül" məsələni qonşu dövlətlə münasibətlərə xələl gətirmədən, əvvəlki tək dost və müttəfiq qalaraq, eləcə də hər ki ölkənin milli maraqlarına tam riayət olunmaqla həll etdi.

* **

10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın 4-cü maddəsində nəzərdə tutulurdu: "Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır".

Ümidlə gözlədiyimiz hadisə vaxtından bir il bir ay tez baş verdi. Bu, "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm",– deyən Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik fəhmi, tarixi məqamı tarixi hadisəyə çevirmək bacarığı sayəsində baş verdi. Rəsmi məlumatlarda qeyd olunur ki, bu qərar Azərbaycan və Rusiyanın ali rəhbərliyi səviyyəsində qəbul olunub. Hər iki dövlətin başçısı tərəfindən qarşılıqlı anlaşma və diplomatik etiket çərçivəsində qəbul edilən bu qərar həm də qonşu və strateji tərəfdaş ölkələr olan Azərbaycan və Rusiyanın suverenliyə hörmət prinsipinə riayət etmələrinin nümunəsidir. Bu, eyni zamanda, üzbəüz oturub ortaq məxrəcə gələ bilməyən, qarşılıqlı güzəştə getməyi bacarmayan dünyanın bəzi dövlətlərinə verilən mesaj sayıla bilər.

Azərbaycanın müasir tarixinin daha bir qızıl səhifəsini təşkil edəcək bu hadisə həm də xaricdə və daxildəki bəzi üzdəniraq dairələrin məsələ ilə bağlı səsləndirdiyi cəfəng "proqnozlar"ını alt-üst etdi. Belə iddiaların tamamilə əsassızlığını, onların müəlliflərinin isə siyasi savad və müasir dünyagörüşü sarıdan axsadıqlarını ortaya qoymuş oldu.

Artıq baş vermiş fakta çevrilən hadisədən danışarkən buna gətirən yolların haralardan və nələrdən keçdiyini də unutmamalıyıq. Bu gün əldə etdiyimiz nəticəyə 2020-ci ilin 44 günlük Vətən müharibəsi, 2023-cü ilin lokal antiterror tədbirləri, sonrakı bütün addımların ölçülüb-biçilmiş, hərtərəfli düşünülmüş şəkildə, vahid plan kimi atılması sayəsində gəlib çatmışıq.

Məsələ ilə bağlı yerli jurnalistlərin sualını cavablandıran Pusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Rusiya sülhməramlı kontingentinin Qarabağdan çıxması faktını təsdiqləyib: "Bəli, həqiqətən də belədir".

Yazımıza nöqtə əvəzi kimi Rusiya Dövlət Dumasının müdafiə üzrə komitəsinin sədr müavini Aleksey Juravlyovun Rusiya sülhməramlı kontingentinin Azərbaycandan vaxtından əvvəl çıxarılmasına münasibətini veririk:

"Dinc sakinləri qorumaq mümkün oldu, onlara yardım göstərildi. Hazırda sülhməramlılar lazım deyil. Çünki Qarabağda qarşı-qarşıya duran tərəflər yoxdur. Qarabağın Azərbaycana mənsub olması isə heç kəsdə şübhə doğurmur".

***İ.HƏSƏNQALA***
***XQ***

# Makronun "maska"sı düşdü

## Otuz il Azərbaycanı arxadan vuran Parisin "diplomatik təkəbbürü" də riyakarlıq nümunəsidir

**(əvvəli 1-ci səhifədə)**



"Fransa son aylarda Azərbaycan tərəfindən ikitərəfli münasibətlərə xələl gətirən birtərəfli hərəkətlərin davam etdirilməsi ilə əlaqədar məsləhətləşmələr üçün Azərbaycandakı səfirini geri çağırmaq qərarına gəlib". "Frans Press"in Fransa Xarici İşlər Nazirliyinə istinadən yaydığı məlumatda daha sonra deyilir: "Prezident bu gün (aprelin 16-da– red.) səfirimizi bu münasibətlə qəbul edib. O, Azərbaycanın hərəkətlərindən təəssüfləndiyini dilə gətirib və Azərbaycan tərəfinin öz niyyətlərinə aydınlıq gətirməsini arzuladığını bildirib. Fransa beynəlxalq hüquq normalarına və iki ölkənin ərazi bütövlüyünə hörmət etməklə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına dəstəyini bir daha bəyan edir".

### Azərbaycanofobiya "memarı"

İki ölkə arasında "münasibətlərin normallaşmasına dəstəyindən" dəm vuran Parisin münaqişənin nizamlanmasına ATƏT-in Minsk qrupunun həmsədri kimi 25 ilə yaxın müddətdə göstərdiyi "ayı xidməti" hamıya məlumdur. Fransanın 2020-ci il Vətən müharibəsindən sonra tutduğu açıq-aşkar anti-Azərbaycan mövqeyi də tarixin yaddaşına yazılıb. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın ölkəmizdəki səfirinin geri çağırılması ilə bağlı yerli mətbuata verdiyi açıqlamada, həmçinin rəsmi Parisin BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqı, Frankofoniya kimi təşkilatlarda və digər beynəlxalq platformalarda dəfələrlə Azərbaycan əleyhinə sənəd layihələrinin təşəbbüskarı olduğu vurğulanır.

"Məhz Fransada hakim partiyanın nümayəndələrinin təşəbbüsü ilə Senatda ölkəmizə qarşı çoxsaylı əsassız ittihamların, təhqir və təhdidlərin əks olunduğu, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini sual altına qoyan, keçmiş qondarma rejimi tanıyan qərar və qətnamələr qəbul edildiyini xatırlatmaq istərdik",– deyilən açıqlamada bu ölkədə Azərbaycanofob mühitin yaradılmasının anti–Azərbaycan kampaniyasının tərkib hissəsi olduğu bildirilir. XİN rəsmisinin şərhində o da xüsusi olaraq vurğulanır ki, Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyini və ev sahibliyini hədəfə alan çağırışlar edən Fransanın Azərbaycanı "birtərəfli addımlarda" təqsirləndirməsi tam əsassızdır: "Azərbaycan tərəfi dəfələrlə Fransaya təhdid və təzyiq dili ilə danışmağın heç bir nəticə verməyəcəyini bildirib və öz milli maraqlarının qorunması üçün bütün zəruri tədbirlər görəcəyini bir daha bəyan edir". Əslində, xüsusilə, son üç ildə ermənilərə "böyük bacılıq xidməti" göstərən Paris Azərbaycanla münasibətləri korlamaq yolunda əlindən gələn hər şeyi edib, mümkün sayılan və sayılmayan bütün addımları atıb. Xatırladaq ki, keçən ilin dekabrında Bakı casusluq fəaliyyətlərini ifşa etdiyi Fransa səfirliyinin iki diplomatını "persona non-qrata" elan etdi. O zaman rəsmi Paris bunun qarşılığında "beynəlxalq diplomatik qaydalar"a uyğun olaraq, Azərbaycanın iki diplomatını "etibarsız" elan edərək, "güzgü effekti" ilə cavab vermişdi.

### "Karvan-şou" silsiləsi davam edir

Bakının 2023-cü il sentyabrın 19-da ildırım sürəti ilə həyata keçirdiyi antiterror tədbirindən sonra Makron iqtidarının Marseldəki çoxsaylı erməni diasporuna yarınmaqdan ötrü BMT Təhlükəsilzik Şurasında Azərbaycana qarşı qətnamələr qəbul etdirmək cəhdlərini bu gün üçün düşünülmüş ssenarinin bəndləri hesab edə bilərik. Fransa Senatının bu il yanvarın 17-də Ermənistanın ərazi bütövlüyünü dəstəkləyən qətnamə qəbul etməsini, "Dağlıq Qarabağda (?) hərbi əməliyyat keçirməsi ilə əlaqədar" Azərbaycana qarşı sanksiyaların tətbiqinə çağırmasını, eləcə də Azərbaycanın tanınmış şairi Xurşidbanu Natəvanın Fransanın Evian şəhərindəki abidəsinə qarşı vandallıq (heykəlin gözlərinə, adının yazıldığı hissəsinə qırmızı boya çəkilib, burnu və barmaqları qırılıb) əməlini iki ölkə arasında münasibətləri gərginləşdirilməyə hesablandığı şübhə doğurmurdu.

Makron və tərəfdarlarının dominantlıq etdiyi Avropa İttifaqında Azərbaycana qarşı kampaniyanın təşkilatçısı və baş icrasının Fransanın olduğunu heç kim inkar edə bilməz. Məhz Yelisey sarayının müvəqqəti kirayənişinlərinin fitvası ilə Avroparlament Azərbaycana qarşı bir neçə haypərəst qətnamənin qəbulunda yaxından iştirak etməsi də sirr deyil. Bakı Fransanın ötən ilin yayında "blokadada aclıqdan əziyyət çəkən" Qarabağ ermənilərı üçün göndərdiyi "un karvanı" şousunu da yaxşı xatırlayır.

Azərbaycanı "son aylarda iki ölkə arasında münasibətlərə xələl gətirən birtərəfli hərəkətlərə" görə ittiham edən rəsmi Paris Azərbaycandakı səfiri Ann Buayeni məsləhətləşmələr aparmaqdan ötrü geri çağırdığını bəyan edib. Səfirin geri çağırılması "jesti"ni də həmin "şou"nun davamı kimi qəbul etmək lazımdır. Məğlub Ermənistanı silahlandıraraq, onu revanşa şirnikləndirməyə, bölgədə yeni müharibəni alovlandırmağa çalışan Makron iqtidarının hansı məkrli "məsləhətlərə" baş vuracağını yaxın günlərdə görəcəyik.

Birmənalı şəkildə deyə bilərik ki, rəsmi Paris özünün xarici siyasət kursunda dünyada və regionumuzda cərəyan edən prosesləri, reallıqları görməzdən gəlir. Azərbaycan nə ötən otuz ildə, nə də son illərdə Fransanın Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasına yönəlmiş bir təşəbbüsünü gördü. Bu ölkə daim regionda gərginliyi saxlamaqda, status-kvonun dondurulmasında maraqlı olub.

"Beşinci respublika"nın ardıcıl və düşünülmüş şəkildə Azərbaycanla münasibətlərin pozulmasına yönəlik atdığı addımları, az qala, gözlə görünəndir. Bakıya qarşı siyasi, hərbi, ideoloji cəbhələrdə ən iyrənc "texnologiyaları" dövriyyəyə buraxan Fransanın indi maskası yırtılmış simasına "diplomatik təkəbbür" ifadəsi verməkcəhdi, sadəcə, gülüş doğurur. Onsuz da gec-tez maska düşməli, əsl sima görünməli idi. Həqiqi tablonu isə nəinki maskalamaq, onu hətta pərdə arxasında gizlətmək də mümkün deyil.

### Xalqlar cəlladının cəza payı...

"Beynəlxalq referi" rolunda çıxış etməyə iddialı Parisin buna nəinki mənəvi haqqı yoxdur, əksinə, son davranışları ilə beynəlxalq hüququ tapdalayır. Hər bir dövlətin ərazi bütövlüyü onun suveren hüququn özəyini təşkil edir. Buna görə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi BMT, ATƏT, Avropa İtifaqı, Avropa Şurası, NATO və Avropa Parlamenti tərəfindən tanınıb. Burada istisna yalnız Fransadır. XXI əsrdə müstəmləkəçilk "ənənəsindən" əl çəkməyi düşünməyən Parisin adi insani, bəşəri pinsiplərə belə ehtinasız yanaşması çoxlarının diqqətini çəkir.

Dünyanın ən qəddar müstəmləkəçi keçmişinə malik Yelisey sarayındakılara bunları xatırlatmaq məqamıdır. Fransanın 1830-cu ildən Əlcəzairdə başlanan müstəmləkə üsul-idarəsi dəfələrlə qanlı qətllər törədib. Əlcəzair xalqının məruz qaldığı soyqırımın ən qara səhifəsi ondan ibarət olub ki, fransız legionu ona bu barədə danışmağı belə qadağan edib. İndi təkcə əlcəzairlilər deyil, Yelisey sarayının istibdadına məruz qalmış digərləri də törətdiyi qanlı cinayətlərə görə qatil Fransanın bəşəriyyət qarşısında cavab verəcəyinə ümid edirlər. Bax, onda İlahi ədalət öz yerini tutmuş olacaq.

Cənubi Qafqazda reallığı kökündən dəyişən və bölgənin şəriksiz liderinə çevrilən Azərbaycan bütün dövlətlərlə münasibətlərin qarışılıqlı hörmət və beynəlxalq hüquq prinsipləri çərçivəsində qurulmasına tərəfdardır. Fəqət, hansısa ölkə Bakının xoşməramlı çağırışlarına, siyasi iradəsinə qarşı çıxırsa, bu, həmin ölkənin öz problemidir. Əgər Fransa hələlik səbəbini tam açıqlamadığı səfirin geri çağırılmasını lazım bilirsə və bununla Azərbaycanla diplomatik münasibətlərə son qoymaq barədə düşünürsə, Bakı da adekvat addım ata bilər.

Bildiyimiz kimi, Fransanın "Total", "Thales" və "Suez" kimi böyük şirkətləri Azərbaycanda dövlət sifarişi ilə reallaşan bir çox layihələrdə iştirak edirlər. Bundan savayı, Fransanın Cənubi Qafqazın üç ölkəsi ilə ticarət dövriyyəsinin 60 faizindən çoxu Azərbaycanın payına düşür. Emmanuel Makron özünün məkrli və məntiqsiz addımları ilə həmin layihələrə də son qoya bilər. Bütün bunların gələcək taleyi Parisin bundan sonrakı mövqeyindən asılı olacaq.

Bakı üçün bir məsələ gün kimi aydındır: Azərbaycan hakimiyyəti dünyanın hansısa dövlətinin istənilən xarakterli təzyiqi qarşısında özünün milli maraqlarından yarım addım belə geri çəkilməyəcək. Yelisey sarayında üstüörtülü məsləhətləşmələrə başlayan müsyölər bu amili mütləq nəzərə almalıdırlar.

***İmran BƏDİRXANLI***
***XQ***

**Ekspert rəyi**



**Fərhad MƏMMƏDOV, siyasi icmalçı**

Fransanın bu diplomatik addımı bir qədər təəccüblüdür. Çünki, son həftələr ərzində Azərbaycan–Fransa münasibətlərində hər hansı mənfi hadisə baş verməyib. Doğrudur, ümumi gərginlik var, bir müddət əvvəl diplomatların qarşılıqlı "persona non-qrata"sı baş vermişdi. Amma, son vaxtlar səfirin geri çağırılmasına səbəb ola biləcək insident qeydə alınmayıb. İkinci maraqlı məqam odur ki, Azərbaycan XİN-in bəyanatında bizim səfirimizin, "güzgüvari" şəkildə Fransadan geri çağılması qeyd olunmadı. Bu, bir daha onu göstərir ki, Emmanuel Makronun ölkəmizə qarşı birtərəfli addımı yalnız qərəz üzərində həyata keçirilib. Növbəti maraqlı məqam isə rəsmi Parisin iki ölkə arasında münasibətlərin pozulmasında Azərbaycanı ittiham etməsidir. Halbuki, Fransanın özündə, hakimiyyətin həm qanunverici, həm də icraedici qolları səviyyəsində açıq anti–Azərbaycan tezisləri səsləndirilir.

Amma Azərbaycanın qanunverici və icraedici hakimiyyətində Fransanın siyasəti, ərazi bütövlüyü ilə bağlı fikirlər səslənsə də, fəqət konkret hansısa qərar, yaxud qətnamə qəbul olunmayıb. Bütün bunları ümumiləşdirməyə çalışsaq, bir faktı qeyd etməliyik ki, Paris Azərbaycanla Qərbin münasibətlərinin gərgin olmasına çalışır. Həm də Avropanın Cənubi Qafqaz siyasətində dominant mövqeyə malik olmağı hədəfləyir. Yəqin Paris düşünür ki, bu addımı atması onun Qərbin bölgə siyasətində marginalaşmasına gətirib çıxaracaq. İntəhası, Parisin özünə müttəfiq saydığı Almaniyanın, ABŞ-nin, Avropa İttifaqının da oxşar addımları atacağı qeyri-realdır.

**Ekspert rəyi**



**Fikrət SADIXOV, Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Emmanuel Makron bu hərəkəti ilə öz maskasını çıxartdı və iç üzünü göstərmiş oldu. Bununla da həm bizə, həm də digər ölkələrə sübut etdi ki, Fransanın vaxtilə həmsədr, sonra vasitəçi rolunda çıxış etməsi belə nəticələnməli idi. Yəni, bu, Ermənistana dəstək verilməsinin, bizə qarşı isə bu ölkədə Azərbaycanofobiyanın alovlanmasının yekunu sayıla bilər. Beləliklə, Fransa açıq şəkildə bu siyasi istiqaməti götürdü və indi buna nöqtə qoymaq qərarına gəldi. Bakı onun Ermənistanla dostluğuna qarşı deyil, amma bu zaman bir sıra diplomatik incəlikləri nəzərə almalıdır.

Əlbəttə, Fransanın Azərbaycanda casusluqla məşğul olan kəşfiyyatçı–diplomatlarının həbs olunmasına qıcıqla münasibət göstərməsi təbii idi. Amma Bakı fərqli addım ata bilməzdi. Əgər kimsə Azərbaycanın maraqlarına daxildən zərbə vurmaq məqsədilə kəşfiyyatla məşğul olursa, onun cavabını verməliydik və verdik. Düşünürəm ki, Parisin son addımı ilə onsuz da pozulan ikitərəfli münasibətlər daha da gərginləşəcək. Bunu hamımız görür və təhlil edirdik. İndiki məqamda Bakını da Fransadakı diplomatik elçimizi geri çağırmasını gözləyirəm. Beynəlxalq diplomatik praktikada belə qəbul olunub. Fransanın götürdüyü bu istiqamət ona Azərbaycandan mövqe və maraqlarına uyğun gedişlərin olmayacağını şərtləndirir.



**Elxan ŞAHİNOĞLU, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi**

Fransa prezidenti seçildiyi gündən Emmanuel Makron ermənipərəst mövqedən çıxış etməyə başladı. O vaxt hələ müharibə də olmamışdı. Makron balansı pozdu, Ermənistana dəfələrlə səfər etsə də, Azərbaycana heç vaxt gəlmədi. Halbuki, Fransanın əvvəlki dövlət başçıları hayların təəssübkeşləri olsalar da, sözdə də olsa, balansı qorumağa çalışırdılar. Onlar İrəvana səfər edəndə Bakıya da gəlirdilər.

Makron, faktiki olaraq, Fransa–Azərbaycan münasibətlərinin üstündən xətt çəkdi. İkinci Qabağ müharibəsində birmənalı şəkildə Ermənistanın tərəfini seçdi, Azərbaycan əleyhinə siyasətini gücləndirdi. Bu isə təbii olaraq, rəsmi Bakının adekvat reaksiyasına səbəb oldu. Bakı ikitərəfli münasibətlərin gərginləşməsini istəmirdi. Yalnış seçimi edən Makron və onun ətrafı oldu. Onlar daha sonra ölkəmizin əleyhinə digər addımları da atdılar.

Bu baxımdan səfirin geri çağırılması son körpülərin də yandırılması mənasına gəlir. Beynəlxalq hüquqda və beynəlxalq əlaqələrdə səfirin geri çağırılması qarşı dövlətə edilən siyasi demarş sayılır. Səfirin Parisdə dərhal Makronla görüşməsi faktının özü də anti–Azərbaycan addımı kimi qiymətləndirilməlidir.

# "Yaşıl hidrogen" gələcəyimizə işıq salır

(əvvəli 1-ci səhifədə)

Nazir çıxışında Xəzər dənizində 157 qiqavat külək enerjisi potensialı əsasında 28 QVt-dan çox "yaşıl enerji" layihələri üzrə "Masdar", "ACWA Power", bp, Fortescue və digər beynəlxalq enerji şirkətləri ilə imzalanmış əməkdaşlıq sənədlərində "yaşıl hidrogen" istehsalının da nəzərdə tutulduğunu bildirib. Hazırda hidrogenin istehsalı ilə yanaşı, ixracı aspektində "Xəzər dənizi-Qara dəniz-Avropa", "Mərkəzi Asiya-Azərbaycan-Avropa" "yaşıl" enerji dəhlizləri çərçivəsində beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edildiyini də diqqətə çatdırıb.

"Yaşıl hidrogen" ölkəmizin enerji təchizatında yeni mənbə kimi dəhliz yol xəritəsini artıq müəyyənləşdirdiyi diqqətə çatdırılıb.

Ekspertlərin fikrincə, hidrogen 100 faiz bərpaedilən enerji imkanlarına nail olmaq üçün mühüm önəm daşıyır. Azərbaycanda müxtəlif strateji sənədlərdə hidrogendən istifadə üzrə inkişaf da nəzərə çarpır. Ölkəmizin əsas iqtisadi inkişaf strategiyası təkcə hidrogenin istehsalı və istifadəsini deyil, həm də istehsal və ixrac imkanlarının öyrənilməsini özündə ehtiva edir.

Hazırda ölkəmiz Aİ ilə birgə "yaşıl enerji" dəhlizini inkişaf etdirir. Bu təşəbbüs Azərbaycanda istehsal olunan bərpaedilən enerjinin Avropaya nəqlinə yönəlib. Həmçinin respublikamızı "yaşıl enerji" dəhlizinin yaradılması üzrə Qazaxıstan və Özbəkistanla birləşdirən daha bir layihə icra mərhələsindədir, bu təşəbbüsdə ekoloji cəhətdən təmiz hidrogen həyati əhəmiyyətli rol oynayır.




...lərlə mövqeyinin möhkəmləndirməsi, həmçinin 2050-ci ilədək karbon emissiyalarını 40 faizədək azalda bilməyimiz baxımından mühüm önəm daşıyır. "Xəzər-Qara dəniz-Avropa" yaşıl enerji dəhlizi vasitəsi ilə Azərbaycan "yaşıl hidrogen" üzrə də Aİ üçün etibarlı tədarükçü olacaq", – deyə P.Şahbazov əlavə edib.

Yeri gəlmişkən, "Yaşıl" Hidrogen Sammitində vurğulanan bəzi məqamlara da toxunmaq istərdik. Toplantıda əlverişli, təhlükəsiz və "təmiz enerji" sisteminə keçidin vacib hissəsi kimi hidrogen sənayesinin inkişafını reallaşdıran amillərdən bəhs edilərkən Azərbaycanın COP29-a sədrlik missiyasının "yaşıl hidrogen"in inkişafına da maliyyə dəstəyini gerçəkləşdirməklə "yaşıl enerji" töhfə verəcəyi bildirilib. Həmçinin ölkəmizin "yaşıl hidrogen" istehsalı üçün dəniz küləyi resurslarından istifadə üzrə Aİ ilə six əməkdaşlıq münasibətləri qurduğu da diqqətə çatdırılıb.

Sammitdə işğaldan azad edilmiş ərazilərdə "yaşıl zona"ların ayrılması və bu sahələrdə hidrogen istehsal olunacağı da xatırladılıb və bu prioritetin Avropa ilə əməkdaşlıqda təməl daşlarından biri kimi diqqətdə saxlandığı qeyd edilib. Toplantıda Xəzər dənizində külək enerjisi potensialının 157 qiqavat səviyyəsində müəyyənləşdirilməsi də Aİ ilə ekoloji cəhətdən təmiz hidrogen istehsalı üçün dəniz küləyi resurslarından istifadə üzrə sıx əməkdaşlığı şərtləndirdiyi vurğulanıb və Azərbaycanın hidrogen istehsalının inkişafı üzrə...

Lakin o da qeyd edilir, ekoloji cəhətdən təmiz hidrogen sənayesinin tərəqqisi üçün qarşıda görüləsi işlər də çoxdur. Belə ki, hidrogendən sıfır istifadə ilə yararlanma qaydalarının dəyişməsi qarşıda prioritet vəzifə kimi durur. Bunun üçün konkret milli strategiyalar, hüquqi çərçivələr, tənzimləmə tədbirləri və əlbəttə ki, rəqabət qabiliyyətli istehsal, mühüm investisiyalar və infrastruktura ehtiyac var. Bundan başqa, suyun şirinləşdirilməsi kimi amilləri də nəzərə almaq lazımdır. Bu, hidrogen istehsalının əsas mənbəyi olaraq diqqət çəkir. Etibarlı qlobal təchizat zəncirinin yaradılması da həlledici əhəmiyyət kəsb edir. Bu aspektlər üzərində isə aktiv şəkildə çalışılır.

Bu gün respublikamızda fossil yanacaqlardan ədalətli keçidlə bağlı Birləşmiş Ərəb Əmirliklərində əldə olunmuş konsensus və 2030-cu ilə qədər "yaşıl enerji" potensialının 3 dəfə artırılması üzrə razılaşma 100 faiz bərpaolunan enerji sisteminə doğru mühüm addım kimi dəyərləndirilir. Hamı üçün əlçatan, təhlükəsiz və dayanıqlı enerjini, eyni zamanda, ekoloji təhlükəsizliyi bərpaolunan mənbələr hesabına təmin etmək səviyyəsinin öhdəliklərin və qarşıya qoyulan məqsədlərin icrasından asılı olacağı bildirilir.

**Vaqif BAYRAMOV**
**XQ**

## Ekspert rəyi

**Emin BAĞIROV,**
**iqtisadi şərhçi**



COP29 ölkəsi olaraq Azərbaycan 2030-cu ilədək və ondan sonrakı dövrdə "yaşıl enerji" və iqlimlə bağlı hədəflərin reallaşmasına milli səviyyədə töhfə vermək və iqlim fəaliyyəti üzrə qlobal həmrəyliyin hərəkətverici qüvvəsi olmaq əzmindədir.

Azərbaycanın daxili istehlak, iqtisadiyyatın dekarbonizasiyası və ixrac məqsədilə quruda və dənizdə "yaşıl enerji" planları 2027-ci ilədək olan birinci mərhələdə 2 QVt, 2030-cu ilə qədər növbəti mərhələdə isə 8 QVt-dan çox "yaşıl enerji" güclərinin reallaşdırılması hədəflənib. Bu, bərpaolunan enerji potensialının ölkəmiz vasitəsilə təxminən 2027-ci ildə 2 dəfə, 2030-cu ilə olan dövrdə isə 4 dəfədən çox artımını vəd edib. Respublikamızda elektrik enerjisinin qoyuluş gücündə "yaşıl enerji" payını ilkin hədəf göstəricisindən 3 faiz çox və 3 il tez olmaqla 33 faizə yüksəldən bu layihələr Avropa ölkələrində də bərpaolunan enerji potensialının artırılmasının mənbələrindən olacağı göstərilib.

"Yaşıl enerji"nin dünya bazarlarına nəqli Azərbaycan dövlətinin enerji siyasətində əsas istiqamətlərdən biridir. Azərbaycan 2030-cu ilədək 5 min meqavat bərpaolunan enerji istehsalı potensialına malik olmağı planlaşdırır. 2023-cü ildə respublikamızda Qafqazın və Mərkəzi Asiya regionunun 230 meqavat gücündə ən böyük günəş elektrik stansiyası istifadəyə verilib və bu cür yeni stansiyaların tikintisi davam edir. Xəzər dənizindən Qara dənizə və Avropaya qədər uzanacaq "yaşıl enerji" elektrik kabelinin inşası istiqamətində mühüm işlər görülür.

Azərbaycanda "yaşıl enerji" istehsalının inkişafı perspektivləri regional və beynəlxalq əhəmiyyət daşıyan tədbirlərdə geniş müzakirə olunur. Məsələn, 2024-cü il martın 1-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları keçirilib. Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat və 44 şirkətin təmsil olunduğu tədbirdə "yaşıl enerji" sahəsində əməkdaşlığa dair sənədlər imzalanıb. Cənub Qaz Dəhlizi "yaşıl enerji" sahəsində də vacib əməkdaşlıq platforması kimi çıxış edir. Bu layihə çərçivəsində "yaşıl hidrogen"lə bağlı ölkələrarası dialoq mühüm önəm daşıyır ki, bu da təsadüfi deyil. Çünki "yaşıl hidrogen" istehsalı yeni iqtisadi imkanlar yaratmaqla enerji sektorunda innovativ texnologiyaların tətbiqini sürətləndirir.

Yuxarıda göstərilənlərdən bir daha aydın olur ki, "yaşıl enerji"yə keçid qlobal ekoloji problemlərin həllində əhəmiyyətli rol oynayır. Ekoloji fəlsəfədə "yaşıl enerji"nin xüsusiyyətləri insan-təbiət münasibətləri kontekstində öyrənilir. "Yaşıl enerji"yə keçid ekosistemdə dayanıqlığın və insanın tələbatları ilə təbiətin imkanları arasında tarazlığın təmin olunmasında böyük əhəmiyyət daşıyır.

"Yaşıl enerji" mənbələrindən enerji istehsalı iqlim dəyişikliyinin və qlobal istiləşmənin qarşısının alması üçün vacibdir. "Yaşıl enerji" istehsalı enerji təhlükəsizliyinin təmin olunmasında özünəməxsus yer tutur, yeni texnologiyaların və innovasiyaların inkişafına təkan verir. Azərbaycan Respublikası coğrafi baxımdan əlverişli "yaşıl enerji" potensialına malikdir və ondan səmərəli şəkildə istifadə edilməsi istiqamətində məqsədyönlü dövlət siyasəti aparılır.

Qarabağ və Şərqi Zəngəzur, həmçinin Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonaları elan olunub. Bu ərazilər yüksək potensiala malik olan "yaşıl enerji" mənbələrinə malikdir. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, Tərtərçay və Həkəri kimi çayların qollarında böyük hidroenerji imkanlar mövcuddur. Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında texniki potensialı 7200 MVt-dan çox olan günəş enerjisindən istifadə üçün əlverişli şərait var. İlkin proqnozlara görə, Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində külək enerjisi 2 min MVt həcmində texniki potensiala malikdir. Kəlbəcər və Şuşa rayonlarında geotermal enerji mənbələrindən "yaşıl enerji" kimi istifadə olunması imkanları mövcuddur. Bundan əlavə, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bioenerji kimi bərpaolunan enerji potensialı var.

Naxçıvan Muxtar Respublikasında ümumi gücü 39 MVt olan günəş elektrik stansiyaları fəaliyyət göstərir. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda Naxçıvanda "Yaşıl enerji zonası"nın yaradılmasını nəzərdə tutan kompleks tədbirlər öz əksini tapıb. Naxçıvanda "yaşıl enerji" istehsalının inkişaf etdirilməsi məqsədilə "Nobel Energy Management", "TotalEnergies" və "A-Z Czech Engineering" kimi şirkətlərlə müqavilələr imzalanıb.

## 17 ölkə 5,6 milyon ton Azərbaycan nefti alıb



**2024-cü ilin yanvar-mart aylarında Azərbaycandan 17 ölkəyə 3 milyard 490 milyon 147,9 min dollarlıq 5 milyon 600 min 505,9 ton neft ixrac edilib. Bu barədə Dövlət Gömrük Komitəsinin cari ilin birinci rübünün yekunlarına dair hesabatında bildirilib.**

Hesabat dövründə Azərbaycan İtaliyaya 1 milyard 233 milyon 891,3 min dollar dəyərində 1 milyon 930 min 858,2 ton neft ixrac edib. Bununla da, İtaliya ölkəmizin ümumi neft ixracında birinci yerdə qərarlaşıb. Azərbaycanın ümumi neft ixracında ikinci yer İsrailə məxsus olub. Hesabat dövründə bu ölkəyə 621 milyon 83,9 min dollar dəyərində 1 milyon 21 min 917,3 ton neft ixrac edilib. Azərbaycanın neft ixrac etdiyi ölkələrin siyahısında ilk üçlüyü Hindistan qapayıb. İlin əvvəlindən bu Asiya ölkəsinə isə 454 milyon 380,8 min dollarlıq 712 milyon 883,7 ton neft satılıb.

Komitənin məlumatına əsasən, qeyd olunan göstəricilərdə hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan neftin dəyərinə dair məlumatlar nəzərə alınıb.

## I rüb – 4 milyard manat investisiya



**Cari ilin birinci rübündə əsas kapitala 3 milyard 809 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4 faiz çox investisiya yönəldilib.**

Dövlət Statistika Komitəsinin məlumatında daha sonra qeyd edilir ki, neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 2,7 faiz, qeyri-neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 4,8 faiz artıb. İstifadə olunmuş investisiyanın 2 milyard 123 milyon manatı və ya 55,7 faizi məhsul istehsalı sahələrinə, 1milyard 453 milyon manatı (38,2 faizi) xidmət sahələrinə, 233,5 milyon manatı (6,1 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Əsas kapitala yönəldilmiş investisiyaların 3 milyard 25 milyon manatını və ya 79,4 faizini daxili investisiyalar təşkil edib.

## Gəmi-bərələrlə daşımalar artıb



**2024-cü ilin birinci rübündə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (ASCO) gəmiləri ilə, ümumilikdə, 960 min 796 ton xam neft və neft məhsulları daşınıb.**

ASCO-dan verilən məlumata görə, yanvar-mart aylarında quruma məxsus bərə gəmiləri ilə 8847 vaqon daşınıb. Bununla yanaşı, hesabat dövründə ASCO tərəfindən 8535 TIR, 615 minik maşını olmaqla, 9150 avtonəqliyyat vasitəsi aparılıb. İlin ilk rübündə bərələrin xidmətindən 6172 sərnişin istifadə edib.

Hesabat dövründə universal quru yük gəmiləri ilə daşımaların payı isə 154 min 988 tona çatıb.

**XQ**

# Milli neft strategiyasının növbəti uğuru

## "Azəri–Çıraq–Günəşli" yataqlar blokunda 7-ci platformada hasilata başlanıb

**Xəbər verildiyi kimi, aprelin 16-da "Azəri Mərkəzi Şərqi" (ACE) platformasında ilkin neftin hasilatına başlanıb. İlk neft ötən ilin sonunda adı çəkilən platformadan qazılmağa başlanmış birinci quyudan əldə edilib. Bu, Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" (AÇG) yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin (Yeni əsrin müqaviləsi) imzalanmasından 6 il 7 ay ötəndən sonra mümkün olub. Bununla da, "Azəri-Çıraq-Günəşli" yataqlar bloku yeni istismar mərhələsinə qədəm qoyub.**

ACE platforması "Əsrin müqaviləsi" çərçivəsində BP və tərəfdaşlarının birgə sərmayəsi ilə Xəzər dənizində quraşdırılmış 7-ci neft hasilatı obyektidir. ACE mövcud "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında suyun dərinliyinin 137 metr olduğu sahədə yerləşən 48 qazma şaxtalı yeni hasilat, qazma və yaşayış blokundan ibarət nəhəng hasilat qurğusudur. Layihəyə, həmçinin platformadan neft və qazı quruda yerləşən Səngəçal terminalına nəql etmək üçün mövcud ixrac kəmərlərinə birləşdirilmiş yeni yataqdaxili boru xətləri daxildir. Platformanın dayaq blokunun çəkisi 16 min ton, hündürlüyü isə 153 metrdir. Bu qurğuya suvurma, neft və qaz ixracı üçün nəzərdə tutulmuş üç dik boru daxildir. Dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda inşa edilib və 2023-cü ilin əvvəlində Xəzər dənizindəki daimi yerinə yola salınıb. Platformanın çəkisi 19 min 600 ton olan üst modulları isə Bakı yaxınlığında yerləşən Bayıl tikinti-quraşdırma sahəsində inşa olunub. Üst modullar 2023-cü ilin avqustunda dənizə göndərilib.

"Şərqi Azəri" və ACE platformaları arasındakı suvurma boru xətti "Mərkəzi Azəri" kompressiya və suvurma platformasından ACE qurğularına laya vurulan suları nəql edir. Platformanın dizaynı digər analoji qurğulardan hasilatı dəstəkləmək üçün laya qazın və suyun vurulmasına imkan verir. Eyni zamanda, bu, texnoloji və rəqəmsal baxımdan BP-nin dünyada ən qabaqcıl, həmçinin qurudan idarə etdiyi ilk platformadır. Belə ki, uzaq məsafədən – Səngəçal terminalından nəzarət olunan platformanın idarəmexanizminə innovativ sistem avtomatlaşdırmaları daxil edilib. Terminalın ərazisində yeni ACE idarəetmə mərkəzi inşa edilib.

ACE platforması texnoloji və rəqəmsal baxımdan bp-nin dünyada idarə etdiyi ən qabaqcıl platformadır. Platformanın innovativ layihələndirilməsi insan əməyi tələb edən prosesləri avtomatlaşdırmağa imkan verməklə əməliyyatların daha təhlükəsiz və səmərəli aparılmasını təmin edir. Platforma tam avtomatlaşdırılmış ən müasir qazma qurğusu ilə təchiz olunub. Müasir texnologiya və yeni proseslərin tətbiqi əməliyyatlar nəticəsində formalaşan emissiyaları azaltmağa da kömək edir.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qeri Counz ACE platformasının uğurla işə salınmasını təmsil etdiyi şirkətin SOCAR və Azərbaycan hökuməti arasında davamlı sıx əməkdaşlığın və tərəfdaşların dəstəyinin əsl nümayişi kimi dəyərləndirib. O deyib ki, "Əsrin müqaviləsi"nin 30-cu ildönümündə əldə olunmuş bu nailiyyət dünya miqyaslı AÇG yataqlar blokunun işlənməsinin növbəti mərhələsinin başlandığını bildirir. "Biz artıq Xəzərdə 9 dünya səviyyəli hasilat platforması inşa edib quraşdırmışıq və onları təhlükəsiz şəkildə idarə edirik. Bunların arasında ACE, həqiqətən də, öz mühəndislik kreativliyi, qabaqcıl rəqəmsal texnologiyası və avtomatlaşdırmalarına görə tam seçilir. Qürur duyuruq ki, "gələcəyin platforması" olduğuna inandığımız belə bir qurğunu uğurla ərsəyə gətirmişik", – deyə Qəri Counz əlavə edib.

"Azəri Mərkəzi Şərqi" layihəsinin ümumi dəyəri 6 milyard dollar təşkil edir. Layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. İstismar müddəti ərzində buradan, ümumilikdə, 300 milyon barelədək neft hasil olunacağı proqnozlaşdırılır. Xam neft əvvəlcə platformadakı texniki emal qurğularından keçəcək, sonra isə 30 düymlük mövcud sualtı ixrac boru kəmərinə qoşulmuş yeni yataqdaxili boru kəməri vasitəsilə, təxminən, 130 kilometr yol qət edərək Səngəçal terminalına nəql olunacaq. 2024-cü il ərzində platformadan daha iki quyunun qazılıb istismara verilməsi planlaşdırılır. Bununla da, "Azəri Mərkəzi Şərqi" platformasından hasilatın tədricən artaraq ilin sonuna gündə, təxminən, 24 min barelə çatacağı gözlənilir.

Xatırladaq ki, "Yeni əsrin müqaviləsi" 2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan hökumətinin, SOCAR-ın, BP, "Chevron", "Inpex", "Statoil", "ExxonMobil", "TP", "Itochu" və "ONGC Videsh" şirkətlərinin rəsmiləri tərəfindən Bakıda imzalanıb. Həmin sazişlə AÇG yataqlar blokunun işlənməsi 2050-ci ilədək uzadılıb. Saziş qüvvəyə mindikdən dərhal sonra SOCAR və tərəfdaşları arasında AÇG müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin irəli aparılması haqqında razılaşma əldə edilib. ACE layihəsi üzrə yekun investisiya qərarı isə 2019-cu ilin aprel ayında qəbul olunub.



"Yeni əsrin müqaviləsi" adlandırılan sazişin ölkəmiz üçün iqtisadi əhəmiyyəti olduqca yüksəkdir. Belə ki, saziş çərçivəsində Azərbaycan iqtisadiyyatına əlavə 40 milyard dollar investisiya qoyulacaq. Bu, neft sektorunun inkişafı baxımından vacib olmaqla yanaşı, yardımçı sahələrin inkişafını stimullaşdırmaq baxımından da mühüm əhəmiyyət daşıyır. Azərbaycanın məşğulluq strategiyasına mühüm töhfələr verən ACE layihəsinin pik dövründə ölkə daxilində həyata keçirilmiş tikinti işlərinə 8500 nəfərdən çox işçi cəlb olunub.

Bununla yanaşı, Azərbaycanın yeni neft strategiyasının şanlı səhifəsi sayılan "Əsrin müqaviləsi"nin davamı olan bu saziş ölkəmizin maraqlarını tam təmin edir. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırılıb. Ən əsası isə, Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcək. Bundan əlavə, beynəlxalq tərəfdaş şirkətlər tərəfindən Azərbaycan Respublikasının Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəniləcək. Beləliklə, ölkəmizin ümumi mənfəət göstəricisi 89,1 faizə yüksələcək. Bütün bu nailiyyətlər isə onu göstərir ki, ulu öndər Heydər Əliyevin neft strategiyası uğurla icra edilib.

**Mirbağır YAQUBZADƏ**
**XQ**

Hədəflər, niyyətlər, təməllər



# İKİNCİ NƏFƏS

**Rafael HÜSEYNOV,**
**Milli Məclisin deputatı, akademik**

**Arxada qalan 21 il boyunca – Azərbaycan Respublikasına rəhbərlik etdiyi və yurdun iqtisadi-siyasi-mədəni çöhrəsinin büsbütün dəyişilərək hər zaman olduğundan daha parlaq bir səviyyəyə çatdığı dönəmdə Prezident İlham Əliyevin iştirak etdiyi təməlqoymalar və açılışların sayı yüzlərlədir. Söz yox, istənilən bünövrəatmanın ardında hökmən hansısa hədəflər, niyyətlər dayanır və bu gün belə yüksəlişə nail olmuşuqsa, deməli, həmin ümidlər doğrulub, arzular gerçəkləşib.**

Böyüyündən-kiçiyindən asılı olmayaraq, hər bir təməlatma gələcəyin mahiyyətcə xoş məramından xəbər verir, xalqın və ölkənin sabahını onun indisi və keçmişindən daha gözəl etməyə hesablanıb. Ona görə də böyüyündən-kiçiyindən, miqyasından asılı olmayaraq, hər belə addım son olaraq xalqın rifahına, Vətənin daha qüdrətli olmasına hesablandığından təqdirə, ehtirama, alqışa layiqdir. Lakin aprel ayının 16-da dövlət başçımızın Hacıqabulda etdiyi təməlqoymanın elə ciddi tarixi və iqtisadi mənası var ki, onu indiyədək baş vermiş bünövrəatmaların ən əlamətdarlarından, Prezidentimizin hakimiyyət illərinin ən əhəmiyyətli hadisələrindən biri kimi dəyərləndirmək lazım gəlir və həmin layihənin möhtəşəmliyi, Azərbaycan insanının həyatında necə köklü müsbət dəyişikliklərə gətirəcəyi də uzaq olmayan sabahlarda hər kəsə görünəcək.

Başlanğıcını Mingəçevir su anbarından götürən, böyüklüyünə görə Azərbaycanda ikinci olan Yuxarı Şirvan suvarma kanalı istifadəyə verildiyi 1958-ci ildən etibarən əslində daşıdığı yük, verdiyi fayda baxımından birinci olub, fövqəladə mühüm ölkənin qan damarı olmaq siqlətini daşıyıb. Səbəb onun hansı coğrafiyanın içərisindən keçməsidir. 60 ildən artıq müddətdə Şirvan düzündə yerləşən Yevlax, Ağdaş, Göyçay, Zərdab, Ucar, Kürdəmir, İsmayıllı və Ağsu rayonlarının yüz min hektardan çox əkin sahəsini suvarma və yaşayış məntəqələrini məişət suyu ilə məhz Yuxarı Şirvan suvarma kanalı təmin edib. Bu rayonlar içərisində suvarma kanalının keçdiyi əsas ərazi Mərkəzi Aran bölgəsi olub. O yerlər ki, el sözü – həmişə ilan mələyən torpaq kimi tanınıb, Azərbaycanın bu səmti xatırlanınca göz önündə ən əvvəl yayın qızmar istilərindən qarsıb yanaraq cadar-cadar olmuş biyaban, kilometrlərlə uzanan şoranlıqlar olub. Yuxarı Şirvan suvarma kanalı olmasaydı, həmin altmış ili aşan müddət ərzində suya həsrət həmin yerlərin böyük hissəsini əkinə-biçinə, yaşayışa yaramayan torpaqlar kimi itirərdik. 122 kilometr uzunluqlu bu kanal həmin uzun məsafəni əhatə eləyən kənd-kəsəyə yalnız su deyil, həyat ötürüb, dolanışıq ötürüb, dirilik ötürüb. Ancaq illərin üstünə illər qalaqlandıqca bu kanal da qocalıb, heydən düşüb, əvəzində onun həndəvərindəki kənd-kəsəyin sayı durmadan artıb, əhali çoxalıb, əkib-becərmək ehtiyacı artıb, demək, suya tələbat da yüksəlib.

Son illərdə mütəmadi diqqət və qayğı sayəsində tamamilə yenidən qurulan, genişləndirilən, müasir tələblərə layiq səviyyəyə çatdırılan – Bakıdan Gəncəyədək uzanan magistral şose xəttini düşünün. Bir anlıq bunu da fikirdən keçirin ki, o magistral olmasaydı, görün ölkənin nəqliyyat həyatı və ona bağlı hər şey, bütövlükdə həyatımızın özü nə hala düşərdi. Belə təsəvvüretməyə dəvətimizi yersiz saymayın. İnsan bir dəyərin əsl qiymətini onun yoxluğunu düşünəndə, boşluğunu ağlından keçirəndə qabarıqlığı ilə anlayır.

Dövlətin hündürlüyündən ölkənin bütün mənzərəsi, o sıradan ümdə ehtiyaclarının da xəritəsi, əlbəttə ki, qat-qat aydın görünür. Nəyi nə zaman və necə etməyin məqamını hər kəsdən yaxşı bildiyini xalqa qətiyyətlə və əmin-arxayınlıqla bəyan etmiş Prezident İlham Əliyev həmin deyişiylə, təbii ki, yalnız siyasi gedişatı deyil, Azərbaycanın müqəddəratı ilə bağlı hər məsələni nəzərdə tutub. Şirvan suvarma kanalına yeni ömür bağışlamaq istəyinin də məhz indi ağla gəlməsini fərz etmək düz sayılmaz. Ölkənin digər ümdə qayğıları kimi, bu mövzu da lap çoxdan ölkə başçısının düşüncə gündəliyində, hökmən həll edilməli təxirsiz işlər cədvəlindədir. İşi başlayıb sona çatdırmaq, vəd edib boyun olduğunu da ən bəyənilən bir tərzdə yerinə yetirmək, üstəlik də hər layihəsini indiyədək görünməmiş heyrətli miqyaslarda icra etmək Prezident İlham Əliyevin liderlik missiyasının bariz cəhətlərindəndir ki, iki onildir nəticələrini görərək iftixar duyuruq. Bu layihənin də gerçəkləşməsi səmtində qərar məhz indi verilibsə, aydındır ki, dövlət rəhbəri məqsədin vaxtında və gərəyincə həyata keçirilməsi üçün bütün zəruri tədbirlər haqqında da hesablamalarını öncədən aparıb. Aprelin 8-də Şirvan suvarma kanalının yenidən qurulması haqqında sərəncam imzalayıb, düz 8 gün sonra isə artıq iş başında idi – başlanğıcı özü edirdi, təməli qoyurdu. Bütün xalqın və tarixin qarşısında hələ təməl qoyarkən yekunu irəlicədən bunca dəqiqliyi ilə görərək belə inamla danışa bilmək üçün gərək İlham Əliyev olasan, gərək geridə qalan müddətdə elə bir irs doğurmuş olasan ki, söylədiyin bu sözlərin də doğruluğuna və çin çıxacağına heç kəs şübhə etməsin: “Biz hər şeyi planlı şəkildə edirik ki, hər qarış torpaqdan maksimum məhsuldarlıq, maksimum səmərə götürək və bunu edəcəyik. Əminəm, Azərbaycan xalqı da tam əmindir ki, dediyimiz bütün sözlər, verdiyimiz bütün vədlər hər zaman yerinə yetirilir və bu gün dediyim bu layihələrin icrası da tam təmin ediləcək. Biz üç ildən sonra – uzaqbaşı 2027-ci ilin sonuna qədər Şirvan kanalının da açılışını qeyd edəcəyik”.

Vəd edilən gün yetişəndə nələr dəyişəcək, Azərbaycan nələri qazanacaq?

İndinin tələbləri və texnologiyaları baxımından yanaşılarsa, Şirvan suvarma kanalı necə də bəsit görünür. Əvvələn, qabaqkı su itkiləri olmayacaq, su ehtiyatlarından daha səmərəli istifadəyə meydan açılacaq, kanalətrafı yüzlərcə yaşayış məntəqəsinin məişət suyu ilə təminatı müqayisəedilməz dərəcədə yaxşılaşacaq.

Əziz vətəndaşlarımız, o bölgədən çıxmış, uşaqlıq, yeniyetməlik illərimdən başlayaraq oralardakı insanların su ilə hansı imtahanlara çəkildiyini indi xatirimdən keçirirkən və nələr olacağını xəyalən müqayisə edirkən gəldiyim qənaət budur ki, sanki bir neçə əsr uzaqlıqdan XXI əsrə sıçrayışla yetişəcəyik. Şirvan suvarma kanalının təzə həyat qazanmasıyla onun suyu ilə qidalanan torpaqların həcmi hansısa faizlərlə deyil, elə Prezident İlham Əliyevin həmişə heyrətləndirən nəhəng miqyaslarına müvafiq olaraq bir neçə qat artacaq. “Şirvan Nəhri” adlandırıla bilən bu həyat qaynağı 230 min hektar torpaq sahəsini suvarma suyu ilə təmin edəcək, 110 min hektardan çox mövcud əkin sahələrinin su təminatının, nəhayət ki, insanlarımızı yarıdan hala yetməsinə, 116 min hektar əkinəyararlı torpaqların dövriyyəyə cəlb olunmasına gətirib çıxaracaq. Bu quruca rəqəmlərin ardındakı yaşıllığı, bolluğu, yaxşılaşan güzəranı, əhalinin dəyişən ovqatını, artan ruh yüksəkliyini də görün. Ruh yüksəkliyi məsələsinə də səbəbsiz toxunmuram. Axı o bölgənin zəhmətkeş, fədakar insanlarının min bir əziyyətlə əkib-becərdiklərinin yağmura həsrət qalan, quraqlıq keçən illərdə gözləri görə-görə yandığına, quruduğuna, tələf olduğuna da dəfələrlə şahid kəsilmişik, camaatımızda bütün bunların hansı pərişanlıqlar oyatdığından da agahıq.

Prezident İlham Əliyev imza atdığı, quruculuğuna başladığı bu layihə ilə insanlarımıza ilk növbədə ən vacib olan sabaha inam, məhsulunun batmayacağı, sabahkı günündən arxayın ola bilmək güvənliyini bağışlayır.

Belə layihələrin hər birində Qarabağ Zəfərinin siqləti var! Nə fəqri var ki, zəbt zəbtdir! Bir var sənin ərazilərini kənar düşmən qəsb etsin, bir də var torpaqların susuzluğun, şoranlığın, qızmarın işğalına uğrayıb səhralaşsın, həyat gücünü itirsin.

Bu xalqa Qarabağ Qalibiyyətinin heç vaxt bitməyəcək məsudluğunu bəxş etmiş Prezident İlham Əliyev indi millətini xoşbəxt edən belə misilsiz layihələri günümüzün həqiqətlərinə döndərmək yolunda çalışır.

Əvvəllər 120 kilometr olmuş kanalın uzunluğu bu layihəylə aşağı-yuxarı iki dəfə artırılacaq (başqa nə təhər olmalıdır ki?! İlham Əliyev miqyasları onun hər yeni Əsərində bütün istiqamətlərdə görünməlidir) və həmin 200 kilometrdən artıq Nəhr gələrək son nöqtədə Hacıqabul gölünə çatacaq. Həyatını qeyb etmiş bir təbiət incisi də diriləcək. Məhz belə! Çünki Hacıqabulun nəsil-nəsil insanının minnətdar olduğu bu göl artıq 10 ildən çoxdur ki, quruyub. İllərcə həmin gölü xilas etmək üçün çox cəhdlər edildi, çox təşəbbüslər qaldırıldı. Ancaq gölün taleyinin bunca uğurlu həllini heç təsəvvür etmirdik. Nəyə görə hacıqabullular və ətraf ərazilərin də insanları bu gölə borcludurlar? Yaşlı insanlar hərdən-hərdən İkinci Dünya müharibəsini, 1941-1945-ci illər davasını xatırlayırlar. Hacıqabul gölü o qıtlıq, sıxıntılarla dolu illərdə həyat qaynağına çevrilibmiş. Hacıqabul gölünün balığı, buradakı ov quşları, həm ön, həm arxa cəbhənin ehtiyacları üçün tədarük edilirmiş, həm də yerli cammatı o ağır dövrdə aclıqdan xilas edibmiş. Bir vaxtlar Hacıqabul gölünün təbii gözəlliyi, saf havası, insanların seyrəngahına çevrilmiş göz oxşayan mənzərəli yan-yörəsi bu yerlərin bəzəyi idi və ətrafına axın-axın insanları yığardı. İl-il quruya-quruya, susuzlaşa-susuzlaşa axırı ki, 10 il öncə ömrünü başa vuran Hacıqabul gölü üstəlik ətraf mühiti zədələyən, əl-ayaq çəkilən solğun bir məkan halına düşdü. Bu layihəylə Hacıqabul gölünün nəbzi yenidən vurmağa başlayacaq, o çevrə əvvəlki hüsnünü qazanaraq Azərbaycanın ən gözəl istirahət guşələrindən biri kimi təzə ömrünü başlayacaq.

Həmin gün – Şirvan suvarma kanalını canlandırmaq layihəsinin təməlqoyma mərasimində “Bu layihə ilə biz bu sahəyə yeni nəfəs gətiririk” deyən Prezident İlham Əliyev necə də haqlıdır!

Hacıqabul rayonunda yerləşən Aqroparkın xətti ilə buvaxtadək əkin aparılmamış 4 mindən çox hektarda taxıl yetişdirilib və məhsuldarlıq buğda üzrə hər hektardan 7 tona yaxın alınıb – Azərbaycanın taxılçılıqda öndə gedən digər yerlərindən ikiqatdan artıq, dünyanın irəli getmiş kənd təsərrüfatı ölkələrində olan həddə. Hələ indiki məhdud su imkanları ilə, amma yeni texnolojilərin tətbiqi ilə. Keçmişlərdə bunu kimə söyləsəydin, bunları nağıl, fantastika kimi qəbul edərdi. İndi təsəvvür edin Şirvan suvarma kanalının bir neçə il sonra başa çatdırılması ilə qazanılan su bolluğu imkanlarını və əldə edəcəyimiz məhsul bolluğunu.

21 il əvvəl dövlət sükanının arxasında İlham Əliyev böyük yolunu başlayarkən ilk ən böyük vədi və əhdini etmişdi ki, mən Azərbaycana yaxşı Prezident olacağam.

Yurdun hər qarışına beləcə, usanmadan ikinci nəfəs bağışlamaq əzmi və istedadı həmin vədin və əhdin fasiləsiz və ləyaqətlə yerinə yetirilməsinin ən parlaq sübutu deyilmi?!

# Kuba səfiri Yeni Azərbaycan Partiyasında



**Aprelin 17-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Kuba Respublikasının ölkəmizdəki səfiri Karlos Enrike Valdes de la Konsepsyonla görüşüb.**

Görüşdə səmimi dostluq və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan–Kuba münasibətlərinin uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub. Diqqətə çatdırılıb ki, iqtisadi, ticari, mədəni, tibb, təhsil, turizm və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün mühüm potensial mövcuddur və iki ölkə çoxşaxəli münasibətlərin dərinləşdirilməsində olduqca maraqlıdır.

Tahir Budaqov Kubaya qarşı iqtisadi, ticarət və maliyyə embarqosuna son qoyulmasının zəruriliyinə dair BMT Baş Assambleyasında müzakirəyə çıxarılan qətnamə layihələrinin Azərbaycanın hər zaman lehinə səs verdiyini söyləyib. O, Azərbaycanın 1993-cü ildə BMT Baş Assambleyasının 48-ci sessiyası zamanı postsovet məkanında belə qətnaməni dəstəkləyən yeganə ölkə olduğunu bildirib, bu faktların ölkəmizin Kubaya dost münasibətinin bariz göstəricisi olduğunu deyib.

Səfir Karlos Enrike Valdes de la Konsepsyon Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın Kuba üçün əhəmiyyətindən danışıb, respublikamızın embarqoya dair BMT səviyyəsində aparılan müzakirələrdə Kubaya göstərdiyi birmənalı dəstəyin ölkəsində minnətdarlıqla qarşılandığını qeyd edib.

Söhbət zamanı yaxın vaxtlarda partiyalar arasında onlayn görüşün keçirilməsi barədə razılıq əldə edilib, gələcəkdə partiyalararası əməkdaşlıq sazişinin imzalanması perspektivləri haqqında fikir mübadiləsi aparılıb.



# Azərbaycanın AQEM-ə sədrliyi böyük ümidlər doğurur

**Aprelin 17-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) icraçı direktoru Kayrat Sarıbay ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə tərəflər Azərbaycanın AQEM-də 2024-2026-cı illər üzrə sədrliyinin mümkün prioritetləri və planlarını, təşkilat çərçivəsində mövcud işləri və perspektivləri müzakirə ediblər.

İcraçı direktor Kayrat Sarıbay Azərbaycanın AQEM çərçivəsində hər zaman fəal iştirak etdiyini məmnunluqla bildirib və sədr seçilməsi münasibətilə səmimi təbriklərini çatdırıb. Nəqliyyat bağlantıları, ətraf mühit kimi mövzuların AQEM üçün hazırda ən aktual məsələlərdən olduğunu deyən K.Sarıbay bu xüsusda Azərbaycanın konstruktiv mövqeyi ilə seçildiyini vurğulayıb.

Görüşdə tərəflər AQEM-in transformasiyası, qurumun fəaliyyətinin birgə maraq doğuran və aktual məsələlər üzrə istiqamətlənməsi, Azərbaycanın sədrliyi ilə keçiriləcək nazirlər görüşünə və qarşıdan gələn Zirvə görüşünə hazırlıq, COP29 çərçivəsində əməkdaşlıq imkanları, habelə regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# “Məşğulluğa Dəstək Layihəsi”nin uğurları

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən “Məşğulluğa Dəstək Layihəsi” üzrə artıq 15 mindən çox benefisiar kiçik bizneslərini qurmaq üçün müvafiq avadanlıqlarla təmin edilib. Dünya Bankının həmin layihə üzrə missiyası ilə nazirlikdə keçirilən görüşdə səsləndirilən fikirlər barədə XQ-yə qurumun ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən bildirilib.**



Qeyd edilib ki, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, aztəminatlı ailələrin üzvləri və digər həssas qruplardan olan, işsiz kimi qeydiyyata alınmış şəxslərin kiçik biznesə çıxışının dəstəklənməsində “Məşğulluğa Dəstək Layihəsi”nin əhəmiyyətini vurğulayıb. Bu layihənin özünüməşğulluq proqramının əhatə dairəsinin genişləndirilməsinə mühüm dəstək olduğu, layihənin 22 min şəxsi əhatə etməsinin nəzərdə tutulduğu vurğulanıb.

Bildirilib ki, layihə çərçivəsində biznes təlimlərlə yanaşı, mentorluq xidmətlərinin icrasına da başlanılıb. “Məşğulluğa Dəstək Layihəsi” barədə məlumatlılıq səviyyəsinin artırılması üçün Bakı və bölgələrdə ardıcıl olaraq ictimai dinləmələr keçirilir.

Görüşdə layihə üzrə görülən işlər və qarşıda duran vəzifələr müzakirə olunub.

**Z.HÜSEYNOVA**
**XQ**

# Yeni Klinika ABŞ sertifikatı qazanıb



**Azərbaycanda və hətta regionda ilk dəfə olaraq tibb müəssisələri arasında TƏBİB-in tabeliyində fəaliyyət göstərən Yeni Klinika ABŞ-ın Səhiyyə İnformasiya və İdarəetmə Sistemləri Cəmiyyətinin (HIMSS) xəstəxana məlumatlarının idarəedilməsi sistemi üzrə beynəlxalq dərəcəli nüfuzlu akkreditasiya sertifikatını əldə edib.**

Sertifikat informasiya texnologiyaları və idarəetmə sistemlərindən ən yaxşı şəkildə istifadə etməklə səhiyyə xidmətinin keyfiyyətli, təhlükəsiz, səmərəli formada daim təkmilləşdirilməsinə görə təqdim edilir.

Qeyd edək ki, Amerika Birləşmiş Ştatlarının Xəstəxana İdarəetmə Sistemləri Cəmiyyəti - HIMSS 1961-ci ildə təsis edilib.

Başlıbel faciəsindən 31 il ötür

# Erməni qəddarlığının qanla yazılmış daha bir səhifəsi

**Dördüncü ildir ki, tarixi günlər yaşayırıq. Ötən ilin sentyabrından Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub. 36 il Qarabağı separatçı toqquşmalar məkanına, qan çanağına çevirmiş Xankəndi xuntası darmadağın edilərək ölkəmizdən qovulub. İşğalçı Ermənistanın bu müddətdə Azərbaycana qarşı törətdiyi deportasiya və soyqırımlarının amansız izləri isə tariximizə qanlı ləkələr kimi əbədi yazılıb.**



Erməni silahlı quldur bandalarının ölkəmizdə törətdiyi soyqırımları silsiləsində Başlıbel faciəsi də qəddarlığı ilə seçilir. Kəlbəcər rayonu işğaldan azad edildikdən sonra 27 il əvvəl mühasirəyə düşmüş dinc əhaliyə qarşı törədilmiş bu amansızlığın, aşkar soyqırımının mənzərəsi və təfərrüatları aşkarlandı. Bu kənddə doğulub-böyümüş həmkarımız, QHT hərəkatı fəalı Xalid Vahidoğlu Başlıbeldə dinc sakinlərin məhv edilməsinin izlərini doğmaları ilə birgə öz gözləri ilə görüb. Soydaşımız kəndi tərk etdikləri günü belə xatırlayır:



– 1993-cü il martın 31-də adi qaydada yuxuya gedən ailəmizin artıq aprelin 1-də heç nəyi yox idi. İlk əvvəl 14 yaşınadək oxuduğum nağıllardakı kimi qəribə və sehrli görünsə də, amma bu nə yuxu idi, nə də nağıl. Bu heç həyatın 1 aprel zarafatı da deyildi. Həyatın aralarında bizim də olduğumuz minlərlə insana biçdiyi tale idi. Qısası, bir neçə saatda 45 illik qazandığı bütün daşınan və daşınmaz əmlakı itirən bir ailədə yetişdim, formalaşdım. Həmin kitab doğma kənddən yeganə yadigar olaraq bu gün rəfimin başında özünə yer tapıb.

1993-cü ilin aprelində sığındığımız ailənin qonşularının verdiyi çaydanı qaynadıb, onların verdiyi stəkanda çay içən ailəmizin indi maddi baxımdan hər şeyi var yenə: ev, maşın, insanın yaşayışı üçün lazım olan digər əşyalar. Bu illərin yeganə niskili doğma kəndimizə gedə bilmədiyimiz idi.



**– Nəhayət, 27 ildən sonra Kəlbəcərə getdiniz və Başlıbel qətliamının izlərini görüb dəhşətə gəldiniz...**

– Ermənilərin xalqımıza qarşı törətdiyi misilsiz vəhşiliklərdən biri 1993-cü ilin aprelində Kəlbəcər rayonunun işğalı zamanı Başlıbel kəndində baş verib. İşğal zamanı doğma torpaqlarını tərk etməyən 62 nəfər dağlara sığınıb. Lakin həmin şəxslər cəmi 17 gün gizlənə biliblər. 1993-cü il aprelin 18-də erməni quldurları onların gizləndiyi mağaraları aşkarlayıblar. Bu insanlar cəmi 2 ov tüfəngi və əsgərlərdə olan bir neçə avtomat silahla düşmənə müqavimət göstəriblər. Başlıbelin işğalı zamanı erməni quldurları 27 nəfəri güllələyiblər. Onların arasında uşaq, qadın və qocalar da olub.

İkinci Dünya müharibəsinin iştirakçısı Hüseyn Hüseynov diri-diri yandırılıb. Ruhi xəstəlikdən əziyyət çəkən Qənaət Ağamirov isə işgəncə ilə qətlə yetirilib. 19 nəfər kənd sakini Ermənistan hərbçiləri tərəfindən girov götürülüb. Düşmən gülləsindən canını qurtara bilən 30 nəfər isə yenidən dağlara çəkilərək 113 gün mühasirə həyatı yaşayıblar. Sağ qalan həmin şəxslər dəfələrlə ölümlə üz-üzə gəliblər, günlərlə ac-susuz qalıblar.

Mühasirədən çıxaraq 4 gün yol qət edən 29 nəfər 1993-cü il iyulun 22-də Daşkəsən ərazisinə keçə biliblər. Amma hər iki Dünya müharibəsinin iştirakçısı Ələsgər Ələsgərov doğma torpağını tərk etməyərək Başlıbeldə qalıb. O bu günədək itkin sayılır, barəsində heç bir məlumat yoxdur.

**– Başlıbelin son günlərini necə xatırlayırsınız?**

– Mühasirə şəraitində yaşayan Başlıbeldə elektrik enerjisi olmadığından yalnız radio və maqnitofon dinləyə bilirdik. 1993-cü ilin 31 martında kəndin mərkəzinə – nənəmgilə getmişdik. Orada eşitdim ki, səhər tezdən kəndi tərk etməliyik...

**– Uzun illərdən sonra isə yenidən kəndinizə yetişdiniz...**

– Murovdağın dolaylarını maşında qalxarkən ötən illərdəki xəyallarımı, yuxularımı düşünürdüm. “Nissan”ın sentyabr ayında getməyə çətinlik çəkdiyi yolları 2 metrdən artıq qarın, üzümüzə vuran qarlı çovğunun altında piyada getdiyimiz günləri xatırlayırdım. Fikirləşirdim ki, hətta 14 yaşında 4 gün ac-susuz yol gələn uşağın gücü, 190 at gücündən çox imiş.

Təxminən, 2 saat yolçuluqdan sonra Qamışlıya çatırıq. Amma hər kəsin maraqla qarşıladığı Qamışlı qayalıqları, sovet dövründə Azərbaycanda olan yeganə tunel, buradan çıxanda açılan mənzərə, çayın şırıltısı da mənə heç nə demirdi. Başlıbelə daha tez çatmaq, kəndimizi görmək istəyirdim. Başlıbelə aparan yollar isə qoyub getdiyimizdən heç nə qalmayacağını göstərirdi. Körpülər dağılmış, qayalar uçmuş, yollar keçilməz olmuşdu. Sanki bizim qoruya bilməyib tərk etdiyimiz kəndimizi təbiət qorumaq istəmişdi: yola tökdüyü qayalar, sellə uçurduğu yollar, hər tərəfdən yola doğru yönəltdiyi böyük ağaclarla.

Bəylikdən Başlıbelə qədər olan 12 kilometrlik yol boyu 9 yerdə çayı keçməli olduq. Çay yatağını dəyişmiş, yolları sel yumuş, hətta Dərin dərədən bir dərinlik qalmamışdı. Turşsu bulağı yolun içinə sızsa da, özü yox idi. Sakinsiz Başlıbelin adının olub, özünün olmadığı kimi…

Başlıbelə çatdıq. Evimizi görmək istədim. Qaça-qaça çıxacağımı illərlə düşündüyüm yoxuşu güclə qalxdım. Hıçqırıq boğdu məni. Bir həyat qaynayan evin həyətinin otları saralmış, ağacları qurumuş, yeganə ayaqda qalmağı bacaran alma ağacının meyvəsi cırlaşmışdı. Bulağa tərəf baxmadan evə getmək istəyirdim. Düşmənin yandırdığı evin divarları qaralmışdı. 3 dəmir çarpayı biz qoyduğumuz yerdə idi. Sökülüb, yandırılıb viran edilən evin içində bir neçə əşyadan başqa heç nə qalmamışdı.

**– Bəs kənddəki qırğının izləri, şəhidlərin dəfni...**

– Qayalıq ərazidəki 12 nəfərlik ümumi məzarlığı əsgərlərlə birgə Başlıbel sakinləri dəmir parçası, bel, külüngə 2 saatdan artıq vaxta qazdılar. “Portda” kahalarında şəhidlərimizin qalıqlarını aşkar edəndən sonra onlara qəbirlər qazıldı. Erməni qaniçənləri tərəfindən qətlə yetirilən 10 nəfər Başlıbel sakini, laçınlı Əhliman kişi və zərdablı Vüqari torpağa tapşırdıq.

Qalıqları aşkar edilənlərdən biri olan Yetim Gülarəyə əmin-amanlıq zamanında hər qış bir neçə dəfə odun aparmışdım, o da özünəməxsus ləhcəsi ilə mənə dua etmişdi. Gülərə nənəni torpağa tapşırmaq da mənə nəsib oldu.

Ruhları şad olsun. Hələ də dəfn yeri bilinməyən 12 nəfər Başlıbel sakininin də tapılıb İslam adəti ilə dəfn edilməsi gözü yolda qalan yaxınlarına nəsib olsun.

**Söhbəti yazdı:**
**Pünhan ƏFƏNDİYEV**
**XQ**



## Sağlam ailə modelinin hüquqi əsasları

**Aprelin 17-də Milli Məclisdə parlamentin Ailə, qadın və uşaq məsələləri, Səhiyyə və Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə təşkilatçılığı ilə “Sağlam ailə modelinin hüquqi aspektləri – Yaşıl dünya müstəvisində” mövzusunda ictimai dinləmə keçirilib.**

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxışında Prezident İlham Əliyevin Hacıqabulda yenidən qurulacaq Şirvan suvarma kanalının təməlqoyma mərasimində çıxışına toxunaraq dünyada baş verən hadisələrin, ətraf mühit və iqlim dəyişikliklərinin bütövlükdə başəriyyəti düşündürdüyünü deyib.

2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edildiyini xatırladan komitə sədri ölkəmizin işğaldan azad olunmuş ərazilərinin “Yaşıl enerji” zonası elan olunmasının əhəmiyyətindən söz açıb.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov bu il Azərbaycanda keçiriləcək COP29 çərçivəsində görüləcək işlərə toxunub, ölkəmizdə ekoloji sağlamlığın təmin olunması, gələcək nəsillərə təmiz ekoloji mühitin ötürülməsi məqsədilə müvafiq addımların atıldığını söyləyib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov çıxışında deyib ki, Prezident İlham Əliyevin 2010-cu il Azərbaycanda “Ekologiya ili” elan etməsi dövlətimizin ətraf mühitin mühafizəsi və əhalinin sağlamlığı məsələlərinə böyük diqqətinin və qayğısının təzahürüdür.

Səhiyyə nazirinin müavini İlqar Qasımov, kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov, deputatlar Jalə Əliyeva, Asim Mollazadə, Naqif Həmzəyev, Nəsib Məhəmməliyev, İltizam Yusifov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyeva və başqaları çıxış edərək əhalinin sağlamlığının müdafiəsinin vacibliyini şərtləndirən amillərindən söz açıblar, ətraf mühitin mühafizəsinin gücləndirilməsinin və ekoloji maarifləndirmənin əhəmiyyətini vurğulayıblar.

**XQ**

## Əfv Komissiyasının iclası

**Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib.**



Iclasda komissiyaya daxil olan 100-dən artıq müraciətə baxılıb.

Xatırladırıq ki, bu il komissiya 700-dən çox müraciətə baxacaq. Burada qadınlar, əcnəbilər, hərbi qulluqçular, yol-nəqliyyat hadisələri və s. bağlı müraciətlərə baxılacaq.

Qeyd edək ki, indiyə qədər 69 Əfv sərəncamı və 12 Amnistiya aktı imzalanıb.

**XQ**

## İrakli Kobaxidze: Qanunun qəbulundan imtina etməyəcəyik



**“Gürcüstanın “Xarici təsirin şəffaflığı haqqında” qanun layihəsi respublikanın ukraynalaşmasına qarşı yönəlib”. Bu sözləri Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuat konfransı zamanı səsləndirib.**

Hökumət başçısı bildirib ki, əgər QHT-lər 2020–2022-ci illərdə inqilab yolu ilə hakimiyyəti dəyişməyə nail olsaydılar, bu gün Gürcüstan Ukraynadan da pis vəziyyətdə olardı.

“Amerikalı və avropalıların bəyanatlarında sıfır arqumentasiya gördük: Arqumentsiz bəyanatlar qərarımıza yenidən baxılması üçün əsas ola bilməz. Parlament ekspertizası bir daha təsdiqlədi ki, layihənin əleyhdarlarının qanun layihəsinə qarşı heç bir arqumenti yoxdur. Əslində, qanun Avropanındır, çünki əsas Avropa dəyərlərindən birinə, yəni şəffaflıq və hesabatlılığa əsaslanır. Həmçinin Avropa qanunu ilə yanaşı, dövlətçiliyimizin əsas prinsipini - Gürcüstanın milli suverenliyini qoruduğuna əsaslanaraq bu qanun layihəsi önəmlidir,” – deyə İrakli Kobaxidze vurğulayıb.

**XQ**

# QDİƏT PA-nın baş katibi Naxçıvanda



**Aprelin 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi, akademik Asəf Hacıyev ilə görüşüb.**

Görüşdə Asəf Hacıyev təşkilat haqqında ətraflı məlumat verib, müxtəlif sahələr üzrə qarşılıqlı maraqlar əsasında əməkdaşlığın inkişaf etdirilməsinə önəm verildiyini vurğulayıb.

Anar İbrahimov bu il muxtariyyətin 100 illiyinin qeyd edildiyini, eyni zamanda Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın Naxçıvanda yeni inkişaf mərhələsinin əsasını qoyduğunu vurğulayıb.

**XQ**

18 Aprel Beynəlxalq Abidələr və Tarixi yerlər Günüdür

# Gəncə karvansaraları

## *Dünəndən soraq verən yaddaş karvanının daş kitabları*

**Gəncə tarixi abidələri ilə öz gözəlliyini 4 min illik bir zaman kəsiyində qoruyub saxlamaqdadır. Bu abidələr sırasında qədim şəhərdə yan-yana yerləşən Şah Abbas və Uğurlu xan karvansaraları xüsusilə seçilir.**



Şah Abbasın 1606-cı ildə tikdirdiyi karvansaranın layihələndirilməsinə və inşasına Şərqin böyük memarlarından olan Şeyx Bəhaəddin Amili başçılıq edib. Bişmiş qırmızı kərpicdən inşa olunan karvansara iki mərtəbədən ibarətdir. Bu tarixi bina "Şeytan bazar"ın günçıxan səmtində tikilib və ikimərtəbəli geniş kvadrat formalı həyəti var. Uğurlu Xan Karvansarası isə 1663–1664-cü illərdə tikilib.

Tarixi mənbələrə görə, Şərqdə karvansaralar yaşayış evləri və məscidlərdən sonra əsas yeri tutur və əsasən, 2 qrupa – şəhər və yol qırağında tikilən karvansaralara ayrılır. Şəhər karvansaraları bazarlara yaxın ərazidə ucaldılırdı. Bu, uzaq ellərdən gətirilən malların bazara daşınmasını asanlaşdırırdı.Yol qırağında tikilənlər isə karvan keçən yerlərdə, bir-birindən ən azı bir günlük məsafədə olurdu. Bu tarixi abidələr dünya xalqlarının ədəbiyyat və mədəniyyətinin yayılmasına da xidmət edirdi. Özü də çox qonaqlı-qaralı, haylı-küylü olurdu. Şah Abbas karvansarası da həmçinin. Təəssüf ki, bu abidə 1905-ci ildə ermənilərin Gəncədə törətdiyi qırğınlar zamanı yandırılıb və ciddi dağıntıya məruz qalıb.

Şərqin əsas ticarət yolu üstündə yerləşən Gəncə öz karvansaraları ilə səyyah və tacirləri hər zaman heyran qoyub, tarixçilər də bunu qələmə alıblar. Bu abidələr əsrlərlə mümkün qədər qorunub və genişləndirilib. Əvvəllər binanın yalnız Tün bazarına, yəni indiki Gəncə mehmanxanasına baxan hissəsi ikimərtəbəli, arxa hissəsi isə birmərtəbəli olub. Sonradan əlavə olaraq, 2-ci mərtəbəsi ucaldılıb.

Çoxəsrlik tarixə, ulu ənənələrə və zəngin bədii təsvir vasitələrinə malik olan Azərbaycan memarlığının özünəməxsus səciyyəvi xüsusiyyətləri Gəncədə Şah Abbas karvansarasının xarici quruluşunda olduğu kimi, daxili interyerində də özünü göstərib. İri tağları onu daha əzəmətli göstərir. Burada sağ və sol divarların içərisində gözətçilərin dayanması üçün konusvari yarıqlar düzəldilib. Bura pəncərəsizdir, daxili işıqlandırma üçün lampa və şamlardan istifadə olunub. Yuxarı qalxan pilləkən 44 pillədən ibarət olmaqla, karvansaranın daxili interyerində yerləşdirib. Memar gümbəzdə 8 guşəli ulduz formasında olan şəbəkəli naxış kompozisiyasını yaratmaqla ona xeyli gözəl milli görkəm verə bilib. Burada mərkəzdən kənarlara doğru yayılan həndəsi naxış elementləri kompozisiyaya, bir növ sərbəstlik verir. Maraqlı cəhət burasındadır ki, karvansaranın otaqlarının qapıları oval şəklində hörülən dalanla birləşir. Eləcə də bina bütün karvansaralar kimi 4 tərəfdən uca divarlarla əhatə edilib. Bununla da onun qala tikililəri tipində olduğu görünür.

Tikilinin darvazalarının birindən karvan girir, digərindən çıxırdı. Axşamlar böyük darvazalar qala qapıları kimi bağlanardı. Burada otaqların qızdırılması üçün buxarılar da qoyulub. Tarixi mənbələr göstərir ki, XVII əsrin sonu–XVIII əsrin əvvəllərində Gəncə karvansaraları arasında bu məkan ən nüfuzlu və qonaqpərvər yerlərdən biri hesab edilirdi.

Ötən əsrin 70-ci illərində Ümummilli lider Heydər Əliyevin tapşırığına əsasən, yenidən Şah Abbas və Uğurlu xan karvansaralarında rəssam Cavanşir Məmmədovun rəhbərliyi ilə kompleks bədii tərtibat, bərpa və abadlaşdırma işlərinə başlanılıb. Qeyd etmək lazımdır ki, bununla da Azərbaycanın milli-mənəvi dəyərlərinin üzə çıxarılması, bu tarixi abidələrin bərpa olunub xalqın istifadəsinə verilməsi sahəsindəki əməli addımlar atılıb. Bu dövrdə karvansarada "Azərbaycan miniatürləri", "Məhsəti Gəncəvi" qadın yaradıcılığı muzeyləri yaradılıb. 1981-ci ildə Ulu öndər Gəncəyə növbəti tarixi səfəri zamanı burada görülən işlərə baxıb, onun məsləhətləri əsasında bədii tərtibat işlərinin 3 istiqamətdə həyata keçirilməsi reallaşdırılıb. Karvansarayın gümbəzinin tərtibatında "Əfşan" bədii üslubunda Azərbaycan xalqının məişət həyatı improvizə edilib. Tərtibat işlərinin 2-ci qolu isə Azərbaycanın dahi şairi Nizami Gəncəvinin yaradıcılığını ehtiva edən və qədim İpək yoluna həsr edilən illüstrativ kompozisiyalardan ibarət olub.

Müasir dövrümüzdə Şah Abbas və Uğurlu xan karvansaraları ölkə başçısı İlham Əliyevin xüsusi göstərişi əsasında yenidən bərpa olunub. Burada 2012-ci ildən təmir-bərpa işləri aparılmaqla, Şah Abbas və Uğurlu xan karvansaralarının xarici görünüşünün yaxşılaşdırılması üçün yeni layihə həyata keçirilib. Şah Abbas karvansarasının yan və arxa hissələrində, eləcə də Uğurlu xan karvansarasında da 2-ci mərtəbə ucaldılıb. Karvansaraların təmiri və yenidən qurulmasında bu günə kimi 800 minə yaxın kərpicdən və dam örtüyü üçün 90 min kirəmitdən istifadə olunub. İki karvansaranın ümumlikdə 120 otağı, 900 kvadratmetr uzunluğunda dəhlizi, həmçinin 4 daxili və 3 xarici girişi var.

Qeyd edək ki, tarixi abidənin bərpası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sifarişi ilə "Azərbərpa" Elmi Tədqiqat Layihə İnstitutunun layihəsi əsasında icra edilib. Ötən müddətdə tarixi abidənin möhkəmləndirilməsi yekunlaşıb, qəzalı vəziyyətdə olan hissələri təmir olunub, mərtəbələrarası örtüklərin bərpası tamamlanıb və kommunikasiya xətləri çəkilib, həmçinin binanın bütün hücrə və otaqları əvvəlki görkəminə qaytarılıb.

...Düz 40 il əvvəl dövlətlərarası səviyyədə ilk dəfə olaraq Tarixi Abidələrin Mühafizəsi Günü qeyd olunub. Ondan sonra hər il bu bayram keçirilib və insanların diqqəti abidələrin və tarixi yerlərin qorunmasına yönəldilib. Özünəməxsus yubileylə əlaqədar inamla deyə bilərik ki, ölkəmizdə mədəni irsin qorunması prioritet olaraq qalmaqdadır. Gəncə memarlıq kompleksinə daxil olan karvansaralar bunun əyani nümunəsidir.

***Anar BURCƏLİYEV***
**Gəncə**

# Tatarıstan arxeoloqları AMEA-da



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Tatarıstan Elmlər Akademiyasının (Rusiya Federasiyası) Arxeologiya İnstitutunun direktoru akademik Ayrat Sıtdıkovla görüşüb.**

Qonağa AMEA-nın elmi istiqamətləri, xüsusilə arxeologiya və antropologiya sahəsində aparılan tədqiqatlar, Azərbaycan arxeologiyasının tarixi, əldə etdiyi nəticələr, yeni yaradılan ekspedisiyalar və onların fəaliyyəti barədə məlumat verən akademik İsa Həbibbəyli ölkəmizdə bu elm sahəsinin daim diqqət mərkəzində olduğunu bildirib. İşğaldan azad olunmuş ərazilərimizdə böyük miqyaslı arxeoloji qazıntı işlərinə start verildiyini diqqətə çatdıran AMEA rəhbəri artıq ilkin uğurlu elmi nəticələrin əldə edildiyini vurğulayıb. Akademiyanın prezidenti aparılacaq tədqiqatların mühüm əhəmiyyət kəsb etdiyini bildirərək, böyük təcrübəyə malik olan Tatarıstan arxeoloq və antropoloq alimlərini Azərbaycan arxeoloqları ilə birlikdə Qarabağda birgə tədqiqatlarda iştiraka dəvət edib.

Görüşdə Tatarıstan EA Arxeologiya İnstitutunun direktoru akademik Ayrat Sıtdıkov çıxış edərək, rəhbərlik etdiyi elmi-tədqiqat müəssisəsinin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib, birgə elmi tədqiqatların aparılmasında maraqlı olduqlarını diqqətə çatdırıb, qarşılıqlı elmi bilik və təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə AMEA-nın vitse-prezidenti vəzifələrini icra edən akademik Gövhər Baxşəliyeva, AMEA Arxeologiya və Antropologiya İnstitutunun direktoru tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Quliyev, AMEA Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri biologiya üzrə fəlsəfə doktoru, dosent Esmira Əlirzayeva və AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru, dosent Ağahüseyn Şükürov da iştirak ediblər.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Xalq yazıçısı Anarın Muğan görüşü

**Görüşü Mil-Muğan Regional Mədəniyyət İdarəsi, Azərbaycan Yazıçılar Birliyi, Regional Təhsil İdarəsi və Regional Gənclər və İdman İdarəsi təşkil ediblər.**



Xalq yazıçısı, AYB-nin sədri Anar öncə Mədəniyyət Nazirliyinin müvafiq tövsiyələri əsasında yaradılan "Hophopnamə" Kitab Mərkəzini ziyarət edib, ona Mərkəzin fəaliyyəti haqqında ətraflı məlumat verilib. Sabirabad şəhərindəki Mədəniyyət Mərkəzində keçirilən görüşdə rayon rəsmiləri, yazarlar, mədəniyyət işçiləri, regionda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların rəhbərləri, ziyalılar, gənclər, müəllim və tələbələr iştirak ediblər. Tədbirin aparıcısı Ağalar Ağamədov görkəmli yazıçı və tanınmış ictimai xadim Anarın çoxcəhətli yaradıcılıq fəaliyyəti barədə iştirakçılara məlumat verib.

Daha sonra rayon icra hakimiyyətinin başçısı Siraqəddin Cabbarov Anarı və qonaqları salamlayaraq, dövlətimizin bədii ədəbiyyata xüsusi önəm verməsindən, ədəbiyyatımızın – yazıçı və şairlərin milli şüurun formalaşmasında, mənəvi dəyərlərin təbliğində böyük rolundan danışıb və Anar müəllimin bu sahədəki xidmətinin əvəzsiz olduğunu qeyd edib.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Mətbuat Şurasının sədri Rəşad Məcid, Birliyin mətbuat xidmətinin rəhbəri Xəyal Rza, yazıçı-dramaturq Əyyub Qiyas, gənc şair-publisist Nadir Yalçın çıxış edərək, böyük həyat məktəbi, zəngin yaradıcılıq yolu keçən Anarın Azərbaycan dilinin, ədəbiyyatının, mədəniyyətinin inkişafında və təbliğində əvəzsiz xidmətlərindən söz açıblar. Onun əsərlərinin xalqımızın mənəviyyatının zənginləşməsində, mədəni inkişafında, milli özünüdərkində mühüm rol oynadığı vurğulanıb. Görüşdə, həmçinin "Günlərdən şeir" layihəsi çərçivəsində yaradıcılıq nümunələri səsləndirilib.

Anarın mərasimdəki çıxışı böyük maraqla dinlənilib. O, keçdiyi həyat yolundan, Ulu öndər Heydər Əliyevlə, eyni zamanda, Şuşa şəhəri ilə bağlı xatirələri vərəqləyib, maraqlı məqamlara toxunub. Xalq yazıçısı ədəbiyyat, söz, sənət, mədəniyyət haqqında, eləcə də öz əsərləri və yaradıcılığı ilə bağlı sualları əhatəli cavablandırıb.

Təqdim olunan musiqi proqramı da qonaqların və iştirakçıların zövqünü oxşayıb. Mil-Muğan Regional Mədəniyyət İdarəsinin tabeliyindəki musiqi məktəblərinin müəllim və şagirdlərinin ifasında "Sənə də qalmaz", "Ala gözlüm", "Aman ayrılıq", "Ay Laçın" mahnıları səsləndirilib.

Xalq yazıçısı Anar maraqlı müzakirələrlə yadda qalan görüşə görə təşkilatçılara təşəkkür edib, səslənən xoş fikirlərdən məmnunluğunu bildirib. O, eyni zamanda, "Hophopnamə" Kitab Mərkəzinin yaradılmasının regionda mədəni mühitin canlanması istiqamətində atılan mühüm addım olduğunu da vurğulayıb.

Görüşdən sonra qonaqlar mərhum şair Nisə Bəyimin məzarını ziyarət edib, ruhuna ehtiramlarını bildiriblər.

***XQ***

# Mətbuat Şurasının tələbə-jurnalistlərə töhfəsi

**Bakı Dövlət Universitetinin (BDU) jurnalistika fakültəsində "Azərbaycan Mətbuat Şurası" auditoriyasının açılışı olub. Toplantıda Mətbuat Şurasının İdarə Heyətinin üzvləri, BDU-nun rəhbərliyi, o cümlədən jurnalistika fakültəsinin pedaqoji kollektivinin üzvləri və tələbələr iştirak ediblər.**



BDU-nun rektoru Elçin Babayev çıxışında jurnalistika fakültəsində peşəkar kadrların hazırlanması zamanı tələbələrin praktik bilik və bacarıqlara yiyələnmələrinin əhəmiyyətindən söz açıb. O, bu baxımdan "Azərbaycan Mətbuat Şurası" auditoriyasının əhəmiyyətli olacağına əminliyini vurğulayıb.

MŞ sədri Rəşad Məcid də "Azərbaycan Mətbuat Şurası" auditoriyasının tələbə-jurnalistlərin təcrübi biliklərə yiyələnmələrinə dəstək perspektivindən danışıb. O bildirib ki, Şuranın Şikayətlər üzrə Komissiyasının iclaslarının bu auditoriyada tələbələrin iştirakı ilə keçirilməsi nəzərdə tutulur. R.Məcid həmin iclasların jurnalist fəaliyyəti ilə bağlı nöqsanları aşkara çıxarmaq baxımından əhəmiyyətli tərəflərinə diqqət çəkib və deyib ki, tələbələr iş prosesindəki spesifik cəhətlərə nəzər salmaqla, peşəkar fəaliyyətləri zamanı səhvlərdən sığortalana biləcəklər: "Düşünürəm ki, bu, onların yetişməsində mühüm rol oynayacaq".

MŞ sədrinin müavini, BDU-nun jurnalistika fakültəsinin dekanı Vüqar Ziferoğlu "Azərbaycan Mətbuat Şurası" auditoriyasının yaradılması təşəbbüsünün konkret məqsədlərindən söz açıb. O, mövcud təşəbbüsün ilk növbədə Şura ilə jurnalistika fakültəsinin əlaqələrini daha da genişləndirəcəyinə inandığını deyib. İkinci məqsəd MŞ İdarə Heyətinin üzvləri ilə tələbələr arasında müntəzəm görüşlərin təşkilidir. Üçüncü məqam MŞ-nin bəzi komissiyalarının iclaslarının fakültədə təşkilidir ki, bu da gənclər üçün maraqlı və əhəmiyyətlidir.

Toplantıda çıxış edənlərdən BDU-nun jurnalistika fakültəsinin professoru Cahangir Məmmədli, MŞ sədrinin müavini, ATV telekanalı prezidentinin müşaviri Səadət Məmmədova, MŞ İdarə Heyətinin üzvləri – jurnalistika fakültəsinin kafedra müdiri, professor Qulu Məhərrəmli, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı və başqaları "Azərbaycan Mətbuat Şurası" auditoriyasının perspektiv faydaları ilə bağlı düşüncələrini bölüşüb, təşəbbüslərini səsləndiriblər.

***XQ***

# Azərbaycan musiqiçisinin xatirəsi ABŞ-da yad edildi

**Xalq artisti Çingiz Sadıxovun 95 illik yubileyi Şimali Kaliforniyada qeyd olunub.**

Azərbaycanın Los Ancelesdəki Baş konsulluğunun dəstəyi və Diaspor İncəsənət Şəbəkəsinin təşkilatçılığı ilə keçirilən konsert çıxış edən baş konsul Ramil Qurbanov Çingiz Sadıxovun həyatı və yaradıcılığı haqqında məlumat verib.

Konsertdə tanınmış kamançaçı İmamyar Həsənov, müğənni Vahid Bayat, pianoçu Amir Bayat və başqaları Ç.Sadıxovun repertuarından musiqi və xalq mahnılarını ifa ediblər.

Xatırladaq ki, Çingiz Sadıxov Azərbaycan Dövlət Filarmoniyasının solisti və konsertmeysteri olub, Bakıda 16 nömrəli musiqi məktəbinin direktoru, "Azkonsert" yaradıcılıq birliyinin bədii rəhbəri, Bakı Musiqi Akademiyasının professoru vəzifələrində çalışıb.

Musiqiçi 1994-cü ildən Amerika Birləşmiş Ştatlarında yaşayıb, 2017-ci ildə dünyasını dəyişib və Fəxri xiyabanda dəfn edilib.





İDMAN

# Böyük futbolun uğur qaynağı kiçik yaşlılardır

(əvvəli 1-ci səhifədə)

Biz belə qənaətə gəlməklə heç də demək istəmirik ki, uşaq və yeniyetmələr arasından istedadları seçib, onları ustalığa aparan yolda müasir akademiyalar, ixtisaslaşdırılmış məktəblər, nüfuzlu bölmələr, təcrübəli məşqçi və mütəxəssislər olmadan da keçinmək mümkündür. Əksinə, bu gün onlara həmişəkindən də çox ehtiyac var. Kim bilmir ki, əlverişli şəraitdə keçirilən müntəzəm və səmərəli məşğələlərdən daha çox fayda götürmək olar. Deməli, birinci abzasda söylədiyimiz fikir tək-tək mütəxəssislərə aiddir və küçə futbolunda yalnız nadir hallarda gördüyün işin faydasına sevinə bilərsən.

Rəhmətlik Konstantin Maksimoviç Abramenko da uşaq futbolunda nadir uğurlu məşqçilərdən olub. Bu ad Azərbaycanın futbol ictimaiyyətinə yaxşı tanışdır. Ötən ilin noyabr ayında gəncəli veteranlar anadan olmasının 100-cü ildönümü münasibətilə onun məzarını ziyarət etmiş, xatirəsini hörmətlə anmışlar.

Yetirmələrinin "Kostya əmi" deyə çağırdığı bu insan iyirminci əsrin altmış-səksəninci illərində təkcə məşğələ keçdiyi, futbolun sirlərini öyrətdiyi uşaq və yeniyetmələrin deyil, bütün gəncəli futbol adamlarının sevimlisinə çevrilmişdi. Onun yetirmələrindən sonralar usta oyunçular kimi Gəncə "Dinamo"suna, "Kəpəz"ə, Azərbaycanın o vaxtlardakı 1 nömrəli komandası "Neftçi"yə dəvət olunan neçə-neçə futbolçu həmin kollektivlərdə uğurlu çıxışları ilə yadda qalmışdır.

Mən 2005-ci ildə 82 yaşında vəfat etmiş Əməkdar məşqçi, Əməkdar bədən tərbiyəsi və idman xadimi K.Abramenko haqqında ürəkdən gələn çox səmimi sözlər eşitmişəm. Mərhum həmkarım Abas Əzimovun Azərbaycan futbolunun 100 illiyi münasibətilə 2011-ci ildə nəşr etdirdiyi "Xatirələrdə yaşayanlar" kitabında verilmiş "Ocaq sahibi Kostya əmi" sərlövhəli yazı isə onun barəsində məlumatımı zənginləşdirmişdir. Buyurun, həmin kitabdakı qeydlərdən bəzi məqamları sizin də diqqətinizə çatdırırıq:


Konstantin Abramenko növbəti məşq zamanı

"1960–1980-ci illərdə Gəncədə uşaqların ən çox sevdikləri idman növlərindən biri də futbol idi. Həmin illərdə Gəncəni Azərbaycan futbolunun ocağı adlandırırdılar. Bu ocağın körükçüsü isə Kostya əmi idi. Onun yetirmələrinə nəinki Azərbaycanda, hətta SSRİ-nin digər şəhərlərində də rast gəlmək olardı. K.Abramenko Gəncədə anadan olmuşdu. Şərab zavodunda qaynaqçı işləyirdi. Boş vaxtlarında isə dəmiryolçuların "Lokomotiv" komandasında futbolla məşğul olurdu. Hətta Zaqafqaziyanın "Lokomotiv" cəmiyyətinin komandası heyətində Tbilisidə beynəlxalq turnirdə iştirak etmişdi. "Futbol mənim həyatımdır, ondan ayrıla bilmərəm" deyən K.Abramenko dəmiryolçular deyilən məhəllədəki düzənlikdə futbol meydanı düzəltmək üçün bu oyunu seçən uşaqları başına toplayıb, işə başlamışdı.

K.Abramenkonun ondan çox yetirməsi müxtəlif illərdə Azərbaycan milli komandasının şərəfini qoruyub. Təcrübəli məşqçi 40-dan çox idman ustası hazırlayıb. Onun yetirmələrinin hər biri haqqında uzun-uzadı danışmaq olar. Mehman və Füzuli Allahverdiyevlər, Yunis Hüseynov, Maşallah Əhmədov, Əli Rəhimov, Şahmir Hüseynov, Xaliq Mərdanov, Ceyhun Tanrıverdiyev, İmamyar və Yadigar Süleymanovlar, Fuad İsmayılov, Asif Əliyev, Mahmud Qurbanov, Alim Qurbanov, Cavid Əhmədov, Rövşən Əhmədov, Nurəddin Əliyev, Elbrus Qasımov, Arzu Mirzəyev, Arif Orucov və başqaları. Onların hamısı xoş sözlərə layiqdir".

Kitabda Kostya əminin vaxtı ilə küçə futbolunda məşğələlərə cəlb etdiyi, sonralar isə ustalardan ibarət komandaların şərəfini qoruyan futbolçuların da fikirlərinə geniş yer ayrılıb.

**SSRİ idman ustası Şahmir Hüseynov:**

– Mən Kostya əmini 1965-ci ildən tanıyırdım. Dəmiryolçular məhəlləsindəki düzənliyin sahmana salınmasında mənim də əməyim olub. Ağır işləri Kostya əmi özü görərdi. Çox gözəl insan idi. Kasıb uşaqlara maddi yardım da göstərərdi. Onun kimi çoxsaylı usta futbolçu hazırlayan ikinci məşqçi tanımıram. Təcrübəli məşqçi 40-dan çox idman ustası hazırlamışdı. Azərbaycanda elə bir komanda tapılmaz ki, onun heyətində Konstantin Maksimoviçin yetirmələrinə rast gəlinməsin.

**SSRİ idman ustası Asif Əliyev:**

– Biz uşaqlar hamımız Kostya əminin xətrini istəyirdik. O da bizi çox sevirdi, qayğımıza qalırdı. Əgər bölmədə kimsə bir balaca xəstələnsəydi, tez dərman tapıb ona verərdi. Çox işgüzar adam idi, məşqlərdən əvvəl meydanı sulayırdı, yorulmaq bilmirdi. Heç vaxt gözləməzdi ki, hansısa bir uşaq gəlib onun bölməsinə yazılsın. Özü Gəncə küçələrini gəzib, futbol oynayan uşaqlara xeyli tamaşa edər və onların arasından istedadlı uşaqları seçərdi.

**"Gəncə" komandasının məşqçisi Fuad İsmayılov isə öz fikrini belə ifadə etmişdir:**

– Kostya əmi məni də küçə futbolundan seçmişdi. Çox mehriban insan idi. Hamının qayğısına qalırdı. Kimin nəyə ehtiyacı vardısa, alıb həmin uşağa verərdi. Bizi tez-tez ustalardan ibarət "Dinamo" komandasının oyunlarına aparırdı. Kostya əmi mağazalardan parçalar alar, bizim üçün gözəl köynəklər tikdirərdi.

…Göründüyü kimi, Konstantin Maksimoviç küçə futbolundan böyük futbola aparan yolda çox böyük iş görmüşdür. Yetirmələrinin daim onu minnətdarlıqla, dərin hörmət və ehtiramla xatırlamaları əbəs deyil.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***



## Azərbaycan bilyardçısı Avropa çempionudur

**Moldovanın Kişinyov şəhərində bilyardın piramida növü üzrə Azərbaycan idmançısı Tofiq Quliyev uğurla çıxış edərək qızıl medal qazanıb.**

Komandamızın digər üzvü Niyazi Xələfov isə bürünc mükafata sahib olub. Gümüş medala isə Ukrayna bilyardçısı Dmitro Pokotilski layiq görülüb.

## Stolüstü tennisçilərin Qazaxıstan uğuru

**15 yaşadək stolüstü tennisçilərdən ibarət seçmə komandamız beynəlxalq arenada növbəti uğura imza atıb.**

Banu Baytallı və Şəbnəm Mansurovadan ibarət heyət məşqçi Zakir Cavadovun rəhbərliyi ilə Türkiyənin Balıkesir şəhərində təşkil olunan "Türk Dövlətləri" beynəlxalq yarışında bürünc medal qazanıb. Qazaxıstan seçməsi birinci, Türkiyə millisi isə ikinci yeri tutub. Qeyd edək ki, turnirdə Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr idmançıları iştirak ediblər.



## Şəhriyar Məmmədyarov Kanadada qalib olub

**Kanadada şahmat üzrə İddiaçılar Turnirində istirahət günü məşqçi-köməkçilər arasında rapid turniri keçirilib.**

Yarışda azərbaycanlı qrossmeyster Şəhriyar Məmmədyarov da iştirak edib. O, blitsdə olduğu kimi, rapid yarışında da qalib adını qazanıb.

Qeyd edək ki, Şəhriyar Məmmədyarov Torontoya Azərbaycan təmsilçisi Nicat Abasovun sekundant-məşqçisi kimi yollanıb.

***L.SABİRQIZI***
***XQ***


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutu

### 2024-cü il üçün aşağıdakı ixtisaslar üzrə doktorantura və dissertanturaya qəbul elan edir

**Doktorantura (fəlsəfə doktoru proqramı üzrə)**

2506.01 – Geologiya – 1 yer (əyani)
2507.01 – Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları – 1 yer (əyani)
2512.01 – Ümumi və regional geologiya – 1 yer (əyani)
2521.01 – Neft və qaz yataqlarının geologiyası, axtarışı və kəşfiyyatı – 1 yer (əyani)

**Dissertantura (elmlər doktoru proqramı üzrə)**

2508.01 – Geoekologiya – 1 yer

QEYD – 1. Doktorantura və dissertanturaya qəbul yerləri ödənişsizdir.

2. Doktorantura və dissertanturaya sənəd qəbulu "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçərək təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

3. Sənədlərin təqdim edilmə müddəti 2024-cü il aprel ayının 16-dan may ayının 15-dəkdir.

Telefon – 510 01 41 (143), mob.: +994507837328.


# Gəncə öz yetirmələrinə Paris qələbəsi arzulayır

## Şəhər icra hakimiyyətində Olimpiya lisenziyalı idmançılarla görüş





**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov 2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya qazanan sərbəst güləş üzrə Avropa və Dünya çempionu Turan Bayramovla və parataekvando idman növü üzrə Dünya, Avropa, o cümlədən beynəlxalq turnirlərin çempionu İmaməddin Xəlilovla görüşüb.**

Görüşdə "Şöhrət" ordenli Əməkdar məşqçilər Elçin Zeynalov və Əli Hacıyev, icra hakimiyyəti aparatının, regional təhsil, gənclər və idman idarələrinin məsul işçiləri, idman məktəblərinin, idman liseyinin direktorları iştirak ediblər.

Niyazi Bayramov idmançıları salamlayaraq Prezident İlham Əliyevin ölkənin bütün bölgələrində olduğu kimi, Gəncə şəhərində də idman sahəsinə xüsusi diqqət və qayğı göstərdiyini bildirib. Şəhər rəhbəri qeyd edib ki, 2024-cü il aprelin 9-da ölkə başçısının Gəncə şəhərinə səfəri zamanı möhtəşəm İdman Sarayının açılışı, o cümlədən şəhər stadionunun təməlinin qoyulması bu qayğının bariz nümunəsidir. Eyni zamanda, Gəncə şəhərinin 2025-ci ildə MDB-nin İdman paytaxtı seçilməsi də ölkə rəhbərinin yürütdüyü idman siyasətinin nəticəsidir.

Niyazi Bayramov hər iki idmançını təbrik edib və onlara 2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarında uğurlar arzulayıb.

Çıxış edənlər Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ölkədə idmanın inkişafına göstərdikləri qayğıdan söz açıblar və ölkə rəhbərinə idman sahəsində yaradılan yüksək şəraitə görə minnətdarlıqlarını bildiriblər.

İdmançılar öz növbələrində səmimi görüş üçün şəhər rəhbərinə təşəkkür ediblər.

Məlumat üçün bildirək ki, Turan Bayramov Bakı şəhərində keçirilən Avropa təsnifat turnirində finala yüksələrək 2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarına vəsiqə qazanıb. Dünya və ikiqat Avropa çempionu olan İmaməddin Xəlilov isə dünyanın ən güclü 8 idmançısının qatıldığı Qran-Pri final seriyasında qalib olub və hazırda dünya reytinq sıralamasında 1-ci yerdədir. O, 2024-cü il Yay Paralimpiya Oyunlarına lisenziya qazanıb.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**


## "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti

İnformasiya Texnologiyaları infrastruktur avadanlıqlarının - kamera, kabel, şəbəkə aksessuarları və s. satın alınması üçün kotirovka (açıq müsabiqə) elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.portofbaku.com səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Zərflərin təqdim edilməsi üçün son tarix 2 may 2024-cü il saat 17.00-dəkdir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: +994 12 599 00 03 (daxili 3706).

Ünvan- AZ1010, Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyov küçəsi 140.


# "Bir ömrün naxışları"

**Azərbaycan Milli Xalça Muzeyində Azərbaycan Rəssamlar İttifaqının dekorativ-tətbiqi sənət bölməsinin rəhbəri, Xalq rəssamı Aydın Rəcəbovun 80 illik yubileyi münasibətilə "Bir ömrün naxışları" adlı sərgi təşkil edilib.**

Muzeydən bildirilib ki, Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Xalça Muzeyinin birgə sərgisində xalça sənətində öz dəst-xətti, fərqli yanaşma tərzi ilə seçilən sənətkarın müəllifi olduğu 40-dək əsər yer alıb. Onların sırasında milli adət-ənənələrdən, nağıl və əsatirlərdən, türkçülük ideyalarından bəhrələnərək yaradılan orijinal kompozisiyalı "Oğuz onqonları", "Oğuz damğaları", "Qızıl balığın nağılı", "Dür at", "Qurbanlıq qoç", "Ağaclı", "Simurq quşu", "Novruz fəlsəfəsi", həmçinin vətənə sonsuz məhəbbəti, doğulub, boya-başa çatdığı Abşeron torpağına, onun təkrarolunmaz ab-havasına bağlılığı tərənnüm edən "Azərbaycan", "Naxçıvan", "Şirvan", "Əncir ağacı", "Faytonçu", "Neft səltənəti" kimi xovsuz və xovlu xalçalar yer alacaq.

Görkəmli rəssam, böyük alim Lətif Kərimov məktəbinin davamçılarından sayılan Aydın Rəcəbov əsərlərində türk-oğuz ornamental motivlərindən geniş istifadə edərək ənənə və müasirliyin mükəmməl vəhdətinə nail olub. Onun yaratdığı bəzi süjetli xalçalarda orta əsr miniatür sənətimizin təsirlərini də görmək mümkündür. Xalq rəssamının mükəmməl kompozisiya quruluşu, uğurlu rəng həlli, yüksək texniki göstəriciləri, həndəsi stilizasiyası ilə seçilən xalçaları Azərbaycanın və xarici ölkələrin muzeylərində, qalereyalarında qorunub saxlanılır.




Milli xalça sənətimizin bütün incəliklərindən bəhrələnən çoxşaxəli yaradıcılığa malik Aydın Rəcəbovun yubiley sərgisi aprelin 30-dək davam edəcək.

***AYTƏN***
***XQ***


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

## Azərbaycan Dövlət Rəssamlıq Akademiyası

### fakültə və kafedralardakı vakant vəzifələri tutmaq üçün müsabiqə elan edir

Fakültələr üzrə boş olan dekan vəzifəsini tutmaq üçün:
- dekorativ tədbiqi sənət.

Kafedralar üzrə boş olan kafedra müdiri vəzifəsini tutmaq üçün:
- bədii keramika, şüşə və metal
- bədii toxuculuq və xalça sənəti
- akademik rəngkarlıq və kompozisiya.

Müsabiqə müddəti bu elan dərc edildikdən sonra bir ay keçənədəkdir.
Sənədlər təlimata uyğun olaraq bu ünvana göndərilməlidir.
Ünvan- Bakı, H.Əliyev prospekti 58.

***REKTORLUQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 77 (30481) 18 aprel 2024-cü il, cümə axşamı

## 18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür

# Çıraqqala – igid babaların Laçın yuvası

**Şərqdən mavi Xəzərin qumsal sahillərindən başlayan Şabran rayonunun ərazisi düzənliklərdən keçərək meşə ətəklərinə qovuşur. Buradan Şabranın yaşıl donu sayılan böyük meşələr başlayır. Sıx meşələrin bitdiyi yerdə əzəmətli dağlar yüksəlir. Möhtəşəm duruşu ilə bu yurda keşik çəkirmiş kimi görünən Çaraqqaya dağının ən uca zirvəsində isə əsrlərə şahid olan əzəmətli qədim bir qala boy verir – Çıraqqala. Əsrlərin amansız savaşlarından zəfərlə ayrılmış "yorğun cəngavərə" bənzəyən bu möhtəşəm qala qüruru, əzəməti ilə adamı heyran edir. 15 əsrdən çoxdur ki, Çıraqqala zamanın fitnə-fəsadına, müharibələrə, düşmənlərin hücumlarına, təbiətin şıltaqlıqlarına sinə gərməkdədir.**



Çıraqqala V-VI əsrlərdə Səsani hökmdarı I Qubadın (488-531) hakimiyyəti dövründə inşa edilib və XVIII əsrə qədər müdafiə qalası kimi istifadə olunub. Yazılı mənbələrdəki məlumatlara görə, vaxtilə qalanın ərazisində Quba xanı Fətəli xanın üçmərtəbəli sarayı olub. Qalada xidmət edən keşikçi dəstələri Beşbarmaqdan başlamış Dərbəndədək təxminən 100 kilometr əraziyə nəzarət edə bilibilər. Xəzər sahillərindən keçən İpək Yolunun müdafiəsində isə Çıraqqala baş dayaq məntəqəsi rolunu yerinə yetirib. Karvanlara basqınlar, yadelli soyğunçuların hücumları gözə dəyəndə dərhal qalada tonqal yandırılmaqla təhlükə barədə Xəzər sahilində yerləşən müvafiq mühafizə dəstələrinə xəbərdarlıq siqnalı ötürülüb.

Dəniz səviyyəsindən 1232 metr hündürlükdə yerləşən qala Şabran rayon mərkəzindən 25 kilometr aralıda olan Çaraq kəndinin ərazisində yerləşir. Düşmənlərdən müdafiə olunmaq və onların hücumları barədə 4 istiqamət üzrə məlumat vermək məqsədilə tikilən qala 120 metr hündürlüyü olan nəhəng bir qayanın üstündə inşa olunmuşdur. Tədqiqatçıların fikrincə, qalanın tikilməsində əsas məqsəd Xəzər dənizindən başlayan və Babadağadək uzanan 60 kilometr uzunluğundakı Gilgilçay səddini düşmən hücumlarından qorumaq idi. Çünki o dövrlərdə Gilgilçay səddi təkcə Azərbaycanda deyil, Qafqazda da ən böyük müdafiə qurğusu hesab olunurdu. Dünyada isə o, Çin səddindən sonra ikinci hərbi qurğu sayılırdı.

Çıraqqala tipli qalalar Azərbaycanın digər bölgələrində də vardır. Oğuz, Qazax, Lerik, Yardımlı, İsmayıllı və başqa rayonlarımızda belə qalalara rast gəlinir. Lakin Çıraqqala həm qalanın inşası üçün ayrılan yerin hərbi-strateji üstünlükləri və coğrafi relyefinə, həm memarlıq üslubuna, möhkəmliyinə və tikintinin keyfiyyətinə, həm də tikinti zamanı siyasi, hərbi, mədəni və estetik tələblərin yerinə yetirilməsinə görə digər qalalardan köklü surətdə fərqlənir. Qalanın ərazisi təxminən 20 hektara yaxındır. Bu, Bakı şəhər qalası İçərişəhərin ərazisindən (21,5 hektar) azacıq kiçikdir.

Çıraqqala Xəzər dənizindən başlayaraq Babadağın ətəklərinədək uzanan üç qaladan biridir. Ancaq həmin iki qala və səddin çox hissəsi zamanın tufan və boranına, təbiətin şıltaqlığına tab gətirmədiyi üçün uçulub dağılmışdır. Çıraqqalanın mərkəzi qala da daxil olmaqla 17 bürcü olmuşdur. Hazırda 17 bürcün yalnız 3-ü salamatdır, 14 bürcün isə yalnız xarabalıqları qalmışdır. Bu nəhəng tikintinin divarlarının hündürlüyü 8-10 metr, qalınlığı 3-4 metrdir. Qala divarının yanında su anbarı yerləşib. Anbara su xətti saxsı torbalarla dağlardan çəkilib. Qarşıda hündürlüyü 150 metr olan sıldırım qayalığın uca zirvəsində müşahidə məqsədilə daş bürc və siqnal məntəqəsi inşa edilmişdir. Qalanın xüsusi həbsxanası, ərzağın normal saxlanması üçün 80-200 metr məsafədə qaya döşündə yerləşən buxzanası olmuşdur.

Çıraqqala Bakıdakı Qız qalası formasına uyğun inşa edilib. Bu qalaların hər ikisinin hündür tikilməsi qarşıdan gələn hücumun qarşısının alınması və uca zirvədən döyüşü müşahidə etmək məqsədi daşıyıb. Qalanın ətrafında 5-6 yerdə bulaqların mövcudluğu burada kifayət qədər su ehtiyatının olması, qalaya yaxın ərazilərdə münbit və məhsuldar əkin və bostan sahələrinin yerləşməsi qalada yaşayan bütün heyətin, o cümlədən əsgər və keşikçilərin rahat həyat şəraitindən xəbər verir.

"Çıraqqala"nın adı 2001-ci ildə UNESCO-nun siyahısına daxil edilib. Qalanın adının yaranması haqqında da tədqiqatçıların fikirləri fərqlidir. Görkəmli tədqiqatçı, alimimiz Mirəli Seyidov qalanın adı ilə bağlı açıqlamada qeyd edirdi ki, türk mənşəli "sıraq", "şiraq", "çıraq" sözləri "işıq buraxan", "şüa buraxan" mənasını verir. Ona görə də Çıraqqalanın adının qədim türk tayfaları sıraqların adı ilə bağlı olması fikirləri də həqiqətə yaxındır.





Qalanın tikintisi zamanı bişirilmiş gil kərpic və daşdan istifadə edilmişdir. Tikintinin üslubu Alban və Sasani memarlığına uyğun formada aparılmışdır.

Sovetlər birliyinin zamanında Çıraqqalada bərpa-konservasiya işlərini həyata keçirməyə cəhdlər edilmiş, qalanın bərpası barədə cizgilər və layihələr işlənib hazırlanmış, lakin bərpa-konservasiya işlərini görmək mümkün olmamışdır. Milli tarixi-mədəni abidəmiz Çıraqqalaya da diqqət və qayğı ulu öndər Heydər Əliyevin "Çıraqqala" tarixi abidələr kompleksinin bərpası və qorunması haqqında" 23 iyun 2003-cü il tarixli sərəncamı ilə başlayıb. Sərəncama əsasən Çıraqqala tarixi kompleksi qoruq elan edilib, onun qorunması və bərpa edilməsi üçün müvafiq təşkilatlara tapşırıqlar verilib. Həmin vaxtdan başlayaraq qalanın mühafizəsi və bərpası istiqamətində geniş işlərə başlanıb. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu sədaqətlə və uğurla həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il martın 13-də "Çıraqqala" abidəsində möhkəmləndirmə, bərpa-konservasiya işlərinin görülməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. Bu məqsədlə Mədəniyyət Nazirliyinə maliyyə vəsaiti ayrılıb. Hazırda qalada abadlaşdırma, xüsusilə mədəni abidənin möhkəmləndirilməsi, bərpa-konservasiya işləri davam etdirilir.

Azərbaycan Prezidentinin 2019-cu il 22 oktyabr tarixli sərəncamı ilə "Çıraqqala Tarixi Qoruğu" və "Şabran şəhəri Tarixi Qoruğu" birləşdirilərək "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılıb. Hazırda Çıraqqala-Şabran Qoruğunda 7 tarixi abidə var. Onlardan 3-ü Çıraqqala, Gilgilçay səddi və qədim Şabran şəhəri dünya əhəmiyyətli abidələrdir. Azərbaycan müstəqillik qazandıqdan sonra Çıraqqalanı tədqiq edən professor Cəfər Qiyasi belə yazır: "Çıraqqala" abidəsi orta əsrlər Azərbaycan hərbi memarlığının mükəmməl nümunələrindən biridir".

Hər il ulu öndər Heydər Əliyevin doğum günü mayın 10-u Şabranın bütün idarə, müəssisə və təşkilatları, rayon ictimaiyyəti, o cümlədən gənclər və idmançılar rayonun ən uca zirvəsində qərar tutan Çıraqqalaya yürüş edirlər.

***Zakir BAYRAMLI,***
***şair-publisist***

# Yazda açan, ətir saçan çiçəklər...

**Çiçəklər təbiətin və fəsillərin yaraşığı, sevincli və kədərli günlərimizin şərikidir. Toy-düyündə, ad günlərində, qonaq gedəndə çiçəkdən gözəl hədiyyə tapmaq mümkün deyil. Ən yaxın, ən doğma adamlarımızın məzarı üstünə təzətər çiçəklər qoyuruq. Görünür, elə bu səbəblərə görə çiçəklər klassik hədiyyə hesab edilir.**



Alimlər və bioloqlar çiçəklər haqqında maraqlı bir fakt üzə çıxarıblar: onlar təkcə estetik zövq predmeti deyil, həm də insan beyninin müalicəsində əvəzsiz rol oynayırlar. Çin alimlərinin araşdırmalarına görə, nərgiz, novruzgülü, lavanda və zəfəran kimi çiçəklər bir sıra müalicəvi xüsusiyyətlərə malikdir.

Novruzgülünün tərkibindəki qalantamin maddəsi əqli zəiflik və beyin qan dövranının xroniki pozğunluğu zamanı faydalıdır. Həmin maddə



nərgizin tərkibində də var. Onun xərçəng əleyhinə xassələrə malik olduğu da güman edilir. Sidneyli alimlər müəyyən ediblər ki, zəfəran görmə hüceyrələrinin elastikliyinə kömək edir, lavanda isə qorxu hissini aradan qaldırır, yuxusuzluqdan xilas edir, ağrıları və aqressivliyi azaldır. Südləyən gülü də eyni xüsusiyyətlərə malikdir. O həm də beyin hüceyrələrini qocalmadan qoruyur. Qızılgül güllərin şahı, lalə baharın müjdəçisidir, bənövşə isə gözəl gözlərin simvoludur.

Jasmin gözəlliyi ilə yanaşı məişətdə və tibdə faydalı çəkildə istifadə olunan bitkidir. Fransada onun gövdəsindən fleyta və tütək hazırlayırlar, Çində isə onu çaya əlavə edirlər. Hindistanda jasmini sevginin "Ay işığı" adlandırırlar. Qızlar həmin güldən bəzək və kosmetik vasitə kimi istifadə olunur. Jasminin cavan yarpaqlarından ədva kimi də istifadə edirlər. Onunla gözləri yumaq çox faydalıdır. Alimlərin fikrincə, bu heyranedici gülün ətri beyni canlandırır, yaradıcılığı stimullaşdırır.

Lalə nazənin gözəl bir güldür, yaraşığından əlavə məhsuldarlığın da rəmzi sayılır. Onun qutucuğunda 30 min toxum var, ona görə də onu bolluğun və izdivaclıq ilahəsinin simvolu hesab edirlər. Ağ su zanbağı təmiz, durğun şirin su və göl səthində yetişən bitki növü, qeyri-adi bir güldür. Rəvayətə görə, ağ su zanbağı su pərilərinin güldüür. Ondan əsəblərin sakitləşməsində, fikir dağınıqlığının aradan qaldırılmasında istifadə edirlər.

Təbiət ilin bütün fəsillərində öz gözəlliyi ilə valeh edir və ovsunlayır. Baharda açaraq həyatımıza gözəllik gətirən çiçəklər həm yüksək ovqat, həm də gözəllik yaradır.

***Süleyman QARADAĞLI,***
***Elşən AĞALAR (foto)***

# Aprel süfrəsi – oyanışın nəfəsi

**Aprel ayının gəlməsi ilə bazarlarda, marketlərin meyvə-tərəvəz şöbələrində rəngarəng məhsullar görünür. Türkiyəli professor Canan Karatay hər meyvə və tərəvəzi mövsümündə yeməyi tövsiyə edir.**



Dietoloq bildirib ki, yazda mövsümi qidalanmaya diqqət yetirmək, gün ərzində istifadə etdiyimiz qida əlavələrindən uzaq durmaq və tərkibində kimyəvi maddə olmayan məhsullardan istifadə etmək lazımdır.

Baharın gəlişi ilə aprel ayında hansı meyvə, tərəvəz və göyərtilərdən istifadə edək ki, bədənimizə xeyri olsun və qışda itirdiyimiz vitamin və mineralların yerini az da olsa doldursun?

Canan Karatayın fikrincə şüyüd, paxla, kahı, təzə yaşıl noxud, cəfəri, göy soğan, təzə sarımsaq, rozmarin (mərzə), nanə, pərpərən (bəzi bölgələrdə pərpətöyün), çuğundur, quşqonmaz (qulançar), kök məhz orqanizmin tələb etdiyi maddələrlə zəngindir.

Karatay həmçinin qeyd edib ki, aprelin faraş meyvələri alça və çiyələkdir.

***Z.HÜSEYNLİ***
***XQ***

# Yenə də yağmursuz, amma arabir dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 18-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək.**



Səhər bəzi yerlərdə duman olacaq. Mülayim cənub küləyi əsəcək. Gecə 9-14°, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 756 mm civə sütununa enəcək, nisbi rütubət gecə 60-65, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi dağlıq və dağətəyi rayonlarda arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 23-28°, dağlarda gecə 5-10°, gündüz 18-23° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin kollektivi Azərbaycan Respublikası Prezidentinin İşlər müdirinin müavini Elçin Rəhimova qudası

**HADI RƏCƏBLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Süleyman İsmayılov və şöbənin əməkdaşları iş yoldaşları Akif Atababayevə anası

**ZƏHRA MƏMMƏDQIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi Dövlət İdarəçilik Akademiyasının dövlət qulluğu və kadr siyasəti kafedrasının professoru

**HADI RƏCƏBLİNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Xalq qəzeti"nin kollektivi Azərbaycan Mətbuat Şurası idarə heyətinin üzvü Yadigar Məmmədliyə dayısı, Milli Məclisin keçmiş deputatı, tanınmış tarixçi alim

**İSGƏNDƏR QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Meliorasiya Elmi-Tədqiqat İnstitutunun kollektivi institutun direktoru Mir Mövsüm Dadaşevə əzizi

**HADI RƏCƏBLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin kollektivi komitənin sədri Arif Mərdanova əzizi

**ELÇİN SULTANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3882
SİFARİŞ 824
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00